# DÜŞÜNƏN İNSAN

№ 6 - Fevral 2012 - 2 AZN

# İNSAN RUHU HAQQINDA BİLMƏDİKLƏRİNİZ



- Hüquqi dövlət və hüququn aliliyi prinsipi
- Darvinizm elm deyil, təbiəti ilahiləşdirmiş şaman dinidir
- Sən pisliyi yaxşılıqla dəf et...
- “İnşaAllah” və “maşaAllah” sözlərində xüsusi sirr var
- Allah hər hadisəni İslam əxlaqını dünyaya hakim etmək üçün xüsusi olaraq yaradır
- Quranda sevgi
- Həyatın həqiqi mənası
- Şeytanın gücü zəifdir
- İnsan səsindəki möhtəşəm müxtəliflik
- Qədim türklər və İslam

# İSTİFADƏ EDƏ BİLƏCƏYİNİZ İNTERNET RESURSLARI

www.heyatingercekmenseyi.com

www.qeder.com

www.maddeninardindakisirr.net

www.tekamulinternasional.com



DÜŞÜNƏN İNSAN - Fevral 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli “1400 Design”
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər



İlham Əliyev İslam dini haqqında 3
Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Qara dəliklər 11
Sən pisliyi yaxşılıqla dəf et… 14
Qan dövranını tənzimləyən mexanizm 28
Quranda sevgi 32



Kainatdakı həssas tarazlıq 8



Hüquqi dövlət və hüququn aliliyi prinsipi 12



20
Qədim türklər və İslam



Şüurun görünməz mənbəyi 18



Son illərdə müsəlman ölkələrində baş verən ictimai iğtişaşlar hz. Mehdinin (ə.s) çıxış əlamətləridir 22



ÜZ QABIĞI MÖVZUSU
İnsan ruhu haqqında bilmədikləriniz 36

Şərq-Qərb mətbəəsində çap olunmuşdur

# içindəkilər



| | |
|---|---|
| Fosillər təkamülü təkzib edir | 43 |
| Allah hər hadisəni İslam əxlaqını dünyaya hakim etmək üçün xüsusi olaraq yaradır | 46 |
| Bir ayə bir açıqlama | 51 |
| İnsan səsindəki möhtəşəm müxtəliflik | 54 |
| Darvinizm elm deyil, təbiəti ilahlaşdırmış şaman dinidir | 64 |
| Dinsizliyin yanlış təlqini: sabit fikirli olmaq | 68 |




Şeytanın təlqini: boş vaxt
52

















66
Şeytanın gücü zəifdir



İlham Əliyev:

"Biz müqəddəs dinimizə - İslam dinimizə sadiq olan xalqıq. Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik. Bu məqsədlə Azərbaycan çox böyük işlər görür - həm Azərbaycan dindarları, həm Azərbaycan dövləti. Biz öz dinimizi həm təbliğ etməliyik, həm də əsassız hücumlardan qorumalıyıq.

Ancaq əfsuslar olsun ki, İslam dininə qarşı aparılan çirkin təbliğat kampaniyası hələ də davam edir. Biz həm bu yalan və böhtan üzərində qurulmuş kampaniyaları dağıtmalı, həm də öz təbliğat işimizi daha da güclü şəkildə aparmalıyıq, eyni zamanda, bizim, yəni İslam dünyasının birləşməsi bu kampaniyanı aparanlara ən gözəl cavab ola bilər".



22 dekabr, 2011



# Elmi-Texnoloji xəbərlər



## Boa ilanlarının həssas hissetmə qabiliyyəti

Tutduğu qurbanları əzərək öldürən boa ilanları qurbanlarını nə qədər sıxacağını hiss edə bilir. Qurbanının ürək döyüntülərinin zəiflədiyini hiss edən boa ilanları ancaq ürək döyüntüsü dayandıqdan sonra qurbanlarını yeyir. İlanlar üzərində aparılan müşahidələr "Biology Letter" adlı jurnalda dərc edilmişdir.

İlanların davranışlarını analiz edən tədqiqatçılar boa ilanlarının zənn edildiyindən daha çox toxunma qavrayışına sahib olduqlarını müəyyən etdilər.

Təxminən 30 il ömür sürən boa ilanları 4 metr uzunluğunda olur. Zəhərləri olmayan boa ilanları qurbanlarını kiçik, qarmağa bənzər dişləri ilə tutur və bədənlərini qurbanlarına dolayaraq əzirlər.

Gəmiricilər, meymunlar və hətta çöl donuzları ilə qidalanan boa ilanlarının çənə sümükləri bir-birinə çox elastik bağlarla bağlandığı üçün qurbanını bütünlüklə udur.

## İnsulin iynəsinə son

Tibb sahəsi nanotexnologiyanı sevdi. Nanotexnologiya indi də diabet sahəsini təsiri altına aldı. Hər il milyonlarla insanın əziyyət çəkdiyi şəkər xəstəliyinin müalicəsi üçün insulin həbləri istehsal edildi. Bu həblər insulin iynəsindən istifadə edilməsinə son verəcək və gündəlik iynədən daha təsirli olacaq, bədəndəki qlükoza nisbətini tarazlayacaq.





## Planet bolluğu



Qalaktik araşdırmaların nəticəsində məlum oldu ki, günəş sisteminin xaricində planetlər ulduzlardan daha çoxdur. Artıq gecə səmaya baxıb ulduzların çoxluğuna heyrət etsəniz, yenidən düşünmənizi tövsiyə edərik. Çünki gördükləriniz göydəki cisimlərin yalnız bir qismidir.

Qalaktik araşdırmalar Süd yolu xaricindəki qalaktikalarda ulduzdan çox planet olduğunu ortaya qoydu. Araşdırmalara görə, günəş sisteminin xaricində qarşımıza adam başına bir planet çıxır. Adi gözlə görməyin qeyri-mümkün olduğu bu planetləri teleskopla görmək belə olduqca çətindir.

## Yaşlanmağı gecikdirən elmi tədqiqat

Amerikalı elm adamları laboratoriya mühitində yaşlanmağa səbəb olan hüceyrə fəaliyyətlərini qismən də olsa dayandırmağı bacardı.

ABŞ-da elm adamları laboratoriya mühitində siçanlar üzərində apardıqları təcrübələrdə qırışlar, əzələ toxumasının zəifləməsi və katarakt kimi yaşlanma əlamətlərini ortadan qaldırmağı bacardılar.

"Nature" jurnalında nümayiş olunan araşdırmaya görə, elm adamları "yaşlı hüceyrələri", yəni artıq bölünməyən və yeni hüceyrə meydana gətirməyən hüceyrələri yox etdilər.

### Yaşlı insanların hüceyrələrinin təxminən 10 %-i bu hüceyrələrdən ibarətdir.

Mayo klinikasında aparılan araşdırmada elm adamları genetik dəyişikliyə məruz qalmış siçanlarda bütün yaşlı hüceyrələri yox etməyi bacardılar.

Sonra siçanlarda yaşlanmanın üç əlamətinə baxıldı: gözlərdə katarakt meydana gəlməsi, əzələ toxumasının zəifləməsi və dəridə qırışların meydana gəlməsi.

Yaşlanan hüceyrələrin yox edildiyi siçanlarda bu xüsusiyyətlər nəzərəçarpacaq dərəcədə yavaşladı. Yaşlanmış siçanlara eyni müalicə tətbiq olunduğunda isə əzələlərdə əhəmiyyətli dərəcədə yaxşılaşma hiss edildi.

Araşdırmanın nəticələri insanlarda yaşlanmanın yavaşladılması və ya tamamilə ortadan qaldırılması ilə əlaqədar ümidləri yenidən alovlandırdı.

Elm adamları istehsal etdikləri xüsusi zülal sayəsində yalnız yaşlı hüceyrələri hədəfləyən dərman düzəldə biləcəklərini söylədilər.

# İslam Dünyasında



## Almaniyada ilk İslam-İlahiyyat fakültəsi fəaliyyət göstərir

Almaniyanın orta məktəblərində və liseylərində təhsil alan 700 min müsəlman şagirdə dini bilikləri öyrədən müəllimlərin hazırlanması üçün yaradılan ilk İslam-İlahiyyat fakültəsi ölkənin Tübingen universitetində fəaliyyətə başlayıb. Xəbərlərdə ölkədə təhsil alan 700 min müsəlman şagirdə dərs demək üçün təxminən 2 min müəllimə ehtiyac duyulduğu qeyd edilir.

Tübingen universitetinin rektoru Bernd Enqler İlahiyyat fakültəsində bu il qız və oğlanlardan ibarət 24 tələbənin təhsil alacağını, dörd il davam edən təhsil prosesində tələbələrə mədəniyyət, fəlsəfə və sosiologiya kimi fənlərin də tədris ediləcəyini deyib.

Xəbərlərdə Almaniyanın Osnabrük, Erlangen və Frankfurt universitetlərində anoloji fakültələrin açıldığı, ancaq bu təhsil ocaqlarında tədrisin gələn il başlayacağı qeyd olunub. Mətbuat Almaniya hökumətinin 4 fakültəyə 5 il büdcədən 20 milyon avro vəsait ayırdığını yazıb.

Məlumat üçün bildirək ki, indiyədək Almaniyadakı məscidlərin türk müsəlman imamlarına olan ehtiyaclarının ödənməsi üçün hər il Türkiyədən təxminən 100 min imam dəvət edilir.

## Rusiyada məscidlərin sayı 90-dan 7 minə qalxdı

Rusiya prezidenti Dmitri Medvedev: "1990-cı illərin əvvəllərində Rusiyada 90 məscid vardı. İndi isə 7 mindən çox məscid var", -dedi.

Dmitri Medvedev Başqırdıstan Respublikasının paytaxtı Ufada Mərkəzi məscidi ziyarət etdi. Ayaqqabılarını çıxarıb məscidə daxil olan prezident Rusiya müsəlmanları Mərkəzi Din İşləri rəhbəri Talqat Tacəddindən məlumat aldı. Rusiya müftilər şurasının başçısı Ravil Qaynuddin və bölgə müftiləri ilə iclas keçirən Medvedev Rusiya müsəlmanlarının problemlərini dinlədi.

Rusiya prezidenti SSRİ-nin dağılmasından sonra müsəlman cəmiyyətinin dini təhsil ocaqları və məscidlər tikməsinin bəyənilən hal olduğunu bildirdi. Rusiyanın çox dindar və çoxmillətli quruluşuna diqqət çəkən Medvedev Rusiyanın gələcəyi olan uşaqların mənəvi və əxlaqi baxımdan təhsillərinin əhəmiyyətini vurğuladı.

Rusiyada müsəlman cəmiyyətin aktiv olduğuna toxunan Medvedev əhəmiyyətli məlumatlar verdi: "1990-cı illərin əvvəllərində Rusiyada 90 məscid vardı. Dini təhsil verən məktəb heç yox idi. İndi isə 7 mindən çox məscid var. 96 müsəlman din adamı yetişdirən təşkilat və 7 universitet var. Təkcə son dörd ildə 320 yeni məscid tikildi. Hər yerdə işlər gedir. Rusiyanın mərkəzində, Çeçenistan, Dağıstan, Tataristan və digər Qafqaz respublikalarında, Kabardin-Balkar və İnquşetiyada yeni dini qurumlar inşa edilir".

Rusiya müsəlmanlarının həcc ibadətinə də böyük maraq duyduqlarını ifadə edən Medvedev bu il 22.500 vətəndaşın bu ibadəti yerinə yetirdiyini, bunun müsəlman ölkələrindən daha yüksək olduğunu qeyd etdi.

## Tarixi məscidlərdə ingiliscə moizə oxunacaq

İstanbul şəhərindəki tarixi məscidlərdə oxunan xütbənin (cümə namazına aid xüsusi moizə) ingilis dilində icmalı da turistlərə çatdırılacaq.

Bu barədə məlumatı Türkiyənin rəsmi din qurumunun sədri Məhmət Görməz bildirib. Professor Görməz sadəcə Sultanəhməd camesini hər cümə namazı vaxtı beş yüzdən çox, bəzən minə yaxın əcnəbi turistin ziyarət etdiyini bildirib. O: "Sultanəhməddəki xütbələrimizin ingiliscə icmalını verməklə gələn turistlərin natiqin bu həftə nə danışdığını bilməsini təmin etməyi çox əhəmiyyətli görürük. Yaxın vaxtlarda bunu da görəcəksiniz. Tarixi camelərimizə gələn müsəlman turistlər cümə namazı qıldıqdan sonra oxunan xütbənin ingiliscə icmalı ilə də tanış olacaqlar", -deyib.



## R.T. Ərdoğan: "Qorxmadım, çünki Allaha inanıram"

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan xərçəng xəstəliyinə yoluxduğuna dair şayiələri təkzib edib. "Kanal D" telekanalına müsahibə verən Türkiyənin Baş naziri R.T.Ərdoğan xəstəliyi ilə bağlı yayılan şayiələrə cavab verib. Xərçəng xəstəliyinə yoluxmasına dair şayiələri təkzib edən Baş nazir belə bir xəstəlikdən əziyyət çəkmədiyini və kemoterapiya müalicəsi olmadığını deyib.

Jurnalistin xəstəxanada cərrahiyyə əməliyyatı keçirməzdən əvvəl qorxub-qorxmadığına dair sualını da cavablandıran Ərdoğan qətiyyən qorxmadığını deyib. Baş nazir xəstəxanada olarkən qorxmadığını, çünki Allaha inanan bir insan olduğunu deyib. Xatırladaq ki, Türkiyənin Baş naziri ötən ilin noyabrında bağırsaq problemi səbəbindən cərrahiyyə əməliyyatı keçirmişdi.





# KAİNATDAKI HƏSSAS TARAZLIQ

Kainatımızı, Süd yolu qalaktikasını, Günəş sistemini və yaşadığımız Yer planetini əhatə edən möhtəşən  tarazlıq var. Bu həssas tarazlıq və ölçülərin hər biri insanın yaşaması üçün xüsusi olaraq hesablanmış və təşkil edilmişdir. Kainatımızı ətraflı araşdırsaq, ən fundamental kosmik qanunlardan ən yüksək fiziki dəyərlərə, ən kiçik tarazlıqlardan ən incə hesablara qədər hər şeyin ayrılıqda çox həssas şəkildə nizamlandığını görərik.

Kainatın genişlənmə sürətindən Yerin Süd yolu qalaktikasındakı mövqeyinə, günəş şüalarının tərkibindən suyun axıcılıq dəyərinə, Ayın Yerdən uzaqlığından atmosferdəki qazların nisbətinə qədər saysız faktor insan həyatının mövcud olması üçün ən ideal ölçülərdə nizamlanmışdır. Belə ki, bu saysız faktorlardan yalnız birində kiçik dəyişiklik olsa, bu, kainatda canlılığın məhv olmasına gətirib çıxarar.

Həqiqətən də, insanın var olması və yaşaması üçün vacib olan faktorların hər biri möcüzədir. Bu faktorların bir araya gəlməsi ucsuz-bucaqsız möcüzələr zəncirini meydana gətirir. Bir şeyin möcüzə olması isə, əlbəttə, Allahın varlığının və üstün ağlının dəlillərindəndir. Qüsursuz və mükəmməl dizayna sahib olan kainat Allahın bənzərsiz elmini və qüdrətini bizə tanıdır.

## Kainatın genişlənmə sürətindəki möcüzəvi ölçü

Kainatın genişlənmə sürəti onun hal-hazırki quruluşunun meydana gəlməsində böyük rol oynamışdır. Əgər genişlənmənin sürəti bir az yavaş olsaydı, bütün kainat yenidən içə doğru  çökəcəkdi. Əgər kainat bir az daha sürətlə genişlənsəydi, maddə nə qalaktikaları,



nə də ulduzları meydana gətirə bilməz, boşluqda dağılıb gedərdi. Hər iki vəziyyət də canlılığın olmadığını ifadə edir.

Ancaq bunların heç biri baş verməmiş və genişlənmə sürətinin sahib olduğu çox həssas dəyər sayəsində indiki kainat ortaya çıxmışdır.

## Bəs bu tarazlıq nə qədər həssasdır?

Avstraliyadakı Adelaide Universitetinin məşhur riyaziyyat-fizika professoru Pol Devis bu sualı cavablandırmaq üçün uzun müddət hesablamalar aparmış və inanılmaz nəticə əldə etmişdir. Devisə görə, kainatın yaradıldığı böyük partlamadan sonra reallaşan genişlənmə sürəti əgər milyard dəfə milyardda bir nisbətdə ($1/10^{18}$) belə fərqli olsaydı, kainat meydana gələ bilməzdi. Milyard dəfə milyardda bir ifadəsi belə yazılır:

**“0,000000000000000001”.**

Yəni bu dərəcə astronomik kiçiklikdə fərq belə kainatın yaranmamasına səbəb olardı. Bu səbəbdən, Biq Banq hər hansı bir partlayış deyil, çox həssas hesablanmış və təşkil edilmiş meydana gəlmədir.

## Göy cisimlərinin arasındakı məsafələr

Məlumdur ki, Yer planeti Günəş sisteminin bir hissəsidir. Günəş sistemi isə qüsursuz planın və mükəmməl tarazlıqların olduğu məkandır. Günəşin diametri Yerin diametrinin 103 misli qədərdir. Bunu bir misalla açıqlaya bilərik: əgər diametri 12.200 km olan Yeri bir tennis topu böyüklüyündə təsəvvür etsək, Günəşi də futbol topunun iki misli böyüklüyündə fərz etməliyik. Burada maraqlı cəhət onların arasındakı məsafədir. Əslində, uyğun bir model qurmaq üçün tennis topu böyüklüyündəki Yerlə top böyüklüyündəki Günəşin arasını təxminən 280 metr etməliyik. Günəş sisteminin xaricində olan planetləri isə bir neçə kilometr uzağa qoymalıyıq.

Göy cisimlərinin kosmosdakı yerləşməsi və aralarındakı nəhəng boşluqlar dünyadakı canlıların var olması üçün zəruridir. Göy cisimləri arasındakı məsafələr dünyadakı həyatın mövcud olması üçün dəqiq şəkildə hesablanaraq təşkil edilmişdir. Bu məsafələr planetlərin orbitinə, hətta varlıqlarına birbaşa təsir edir. Bu məsafələr bir az daha az olsaydı, ulduzlar arasında cəzbetmə qüvvəsi planetlərin orbitlərini qərarsız hala gətirərdi. Bu qərarsızlıq isə planetlərdə temperatur dəyişikliyinə gətirib çıxarardı. Əgər məsafələr bir az çox olsaydı, supernovalarla kosmosa atılan ağır elementlər çox seyrək olar və Yer kimi dağlıq planetlər meydana gələ bilməzdi.

Ulduzlar arasındakı bu boşluqlar Yer kimi bir planet sisteminin var ola bilməsi üçün ən ideal məsafədir. Qısaca desək, kainatdakı göy

cisimlərinin yerləşməsi insanın həyatı üçün tam lazım olan ölçülərdədir. Eyni şəkildə kainatdakı nəhəng boşluqlar da təsadüfən ortaya çıxmamış, məqsədli yaradılışın nəticəsində olmuşdur. (Harun Yahya, Evrenin Yaratılışı)

## Ağlın sərhədlərini aşan ehtimal

Bizə yaşamaq imkanı verən belə bir kainatın təsadüfən meydana gəlmə ehtimalı nə qədərdir? Bu ehtimal milyard dəfə milyardda birdirmi? Ya da trilyard dəfə, trilyard dəfə trilyardda birdirmi? Yoxsa daha da kiçikdir?

Prof. Rocer Penrouza görə, bu ehtimal $10^{123}$-də birdir. Bunun nə məna verdiyini düşünmək belə çətindir. Riyaziyyatda $10^{123}$ şəklində yazılan bir rəqəm 1 sayının yanına 123 ədəd sıfır yazılması ilə meydana gəlir (bu, kainatdakı bütün atomların sayının cəmindən, yəni $10^{78}$-dən də böyük, çox astronomik rəqəmdir). Riyaziyyatda $10^{50}$-də 1-dən daha kiçik ehtimallar "sıfır ehtimal" sayılır. Amma bəhs etdiyimiz rəqəm $10^{50}$-də 1-in trilyard dəfə, trilyard dəfə trilyard qatından daha böyükdür. Qısaca desək, bu rəqəm bizə kainatın təsadüflə açıqlanmasının qətiyyən qeyri-mümkün olduğunu göstərir.

Yaşadığımız kainatın yaranması üçün zəruri olan şəraitin ən mükəmməl şəkildə meydana gəlməsi yaradılışın açıq-aşkar dəlillərindəndir. Şübhəsiz, belə qüsursuz bir kainatda yaşamağımız təsadüflərin və ya şüursuz atomların verdikləri qərarların, meydana gətirdikləri nizamın əsəri ola bilməz. Bütün kainat canlı və cansız varlıqlarla birlikdə Aləmlərin Rəbbi olan Allahın bənzərsiz elmini və sonsuz gücünü sübut edir.



Rocer Penrouz





# Qara Dəliklər

- Qara dəliklər yanacağı bitmiş, yəni sönmüş ulduzlardır.
- Enerjisi bitən ulduzların işıqları da yox olur.
- Ulduzun öz içinə doğru yığılması və büzülməsi nəticəsində ulduzun yerinə sonsuz sıxlıqda və sıfır həcmdə cəzbetmə sahələri, yəni qara dəliklər meydana gəlir.
- Ulduzlar bir an içində qara dəliyə çevrilə bilər.
- Qara dəliklər "qara"dırlar. Gözlə görmək mümkün deyil.
- Cəzbetmə qüvvələri böyük olduğundan işığı həbs etdikləri üçün onları ən müasir teleskoplarla belə görmək mümkün deyil.
- Günəşin təxminən 3 misli olan qara dəliklərin diametri bir neçə kilometrdir.
- Ətraflarına təsir etmələri sayəsində varlıqları aydın olur.
- İşığı, səsi, zamanı, hətta özlərinə yaxın olan ulduzları da uda bilirlər.
- Udduqları obyektlərin artması ilə cəzbetmə qüvvələri də artır.
- Bu udma xüsusiyyətləri onların "qara bataqlıq" adlandırılmalarına səbəb olmuşdur.
- Böyük ulduzlar kosmosda bükülmələrə səbəb olarkən, qara dəliklər yalnız bükülməyə səbəb olmur, eyni zamanda kosmosu dəlib keçirlər.
- Kosmosu dəldikləri üçün də "qara dəlik" adlandırılırlar.
- Qara dəliyə yaxınlaşan heç bir maddə onun cəzbetmə sahəsindən qurtula bilməz.
- Qara dəliklərin isti və ya soyuq olduqları barədə heç bir məlumat yoxdur.
- Qara dəliyin içinə girən maddələrin itdikləri, başqa yerə düşdükləri və ya orada qaldıqları hələ də məlum deyil.
- Varlıqları yalnız yaydıqları radiasiyadan bəlli olur.





# HÜQUQİ DÖVLƏT VƏ HÜQUQUN ALİLİYİ PRİNSİPİ

**"Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır!"**

**Heydər Əliyev**



Azərbaycan Respublikası hüquqi dövlətdir. Yəni məqsədi qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaqdır. Başqa sözlə, dövlətimiz "qanunun aliliyi" prinsipini mənimsəmişdir. Bu prinsip ədalət anlayışının əsasını meydana gətirir. O dövlət hüquqi dövlət kimi xarakterizə olunur ki, hüquqla özünün fəaliyyətini məhdudlaşdırır, insan və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasını özünün başlıca məqsədi hesab edir.

Qanunun aliliyi dövlətin bütün mexanizmlərinin əvvəldən təsbit edilmiş bəzi qanun və qaydalar daxilində işləyəcəyi mənasını verir. Hər bir dövlət qurumu konstitusiyanın və digər qanunların təsbit etdiyi hüquq və vəzifələrə malikdir. Heç kimin bu hüquq və vəzifələri aşmaq və dəyişdirmək səlahiyyəti yoxdur. Hüquq hər şeydən üstündür və dolayısilə, dövlət "özbaşına" deyil.

Hüququn aliliyi prinsipi hüquqi dövlətin ən mühüm prinsipidir. Bu prinsip öz təzahürünü hər şeydən

əvvəl qanunun aliliyində tapır. Ölkəmizdə Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan qanundur. Konstitusiya təkcə qanunvericilik sisteminin yox, eyni zamanda hüquq sisteminin əsasını təşkil edir. Digər tərəfdən Konstitusiya – dövlətin bütün ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsi konstitusiyanın əsas qanun kimi mövcudluğunu özündə təsbit etmişdir.

I Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.
II Azərbaycan Respublikası Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.
III Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Hüquqi dövlətdə yaşamaq bütün vətəndaşlar üçün böyük qazancdır. Çünki hüquqi dövlətdə hər kəsin mülkiyyəti, konstitusion hüquq və azadlıqları qorunur. Heç kəsin mülkiyyəti zorla müsadirə edilə bilməz, heç kəs zorla işlədilə bilməz, hüquqlarından məhrum edilə bilməz. Əgər hər hansı bir şəxs bu hüquqlarının pozulduğunu, ədalətsizliyə məruz qaldığını düşünürsə, bu halda, məhkəmə qaydasında pozulmuş hüquqlarını bərpa edə bilər. Azərbaycanda mövcud bütün hüquq mühafizə orqanları hüquqi dövlətdə hüquqları qorumaq üçün çalışırlar. İstəyən hər kəs hüquqi dövlətin qaydalarına uyğun olaraq ərizə ilə müvafiq dövlət orqanına müraciət edə bilər və dövlətdən ədalət tələb edə bilər.

Hüququ, yəni qanunları isə xalqın seçdiyi nümayəndələrdən ibarət olan Azərbaycan Respublikası Milli Məclisi müəyyən edir. Əgər qanunlarda hər hansı bir boşluq olarsa, bu halda, qanunlar dəyişdirilir və ya yeniləri qəbul edilir. Dolayısilə, bu qanunların hər hansı bir şəkildə xalqın əleyhinə olması qeyri-mümkündür.

Göründüyü kimi, hüquqi dövlət sistemi bir ölkənin vətəndaşları üçün ən ədalətli, azad və güvənilən sistemdir. Hər bir vətəndaş dövlətimizin bu əsas xüsusiyyətinə sahib çıxmalıdır. Əgər hüquqi dövlətin işlərində axsaqlıq meydana gələrsə, hər kəs əlbir olub dövlətə kömək etməli və hüququn aliliyi prinsipini qorumağa cəhd göstərməlidir.



# Sən pisliyi yaxşılıqla dəf et...

Lovğalanan birinə təvazökarlıq etmək, ona hörmət etmək, haqsız yerə qəzəblənən birini sakitləşdirmək və güzəştə getmək, mübahisə etmək istəyən birinə gözəl söz söyləmək…

Pisliyə yaxşılıqla cavab vermək iman gətirməyən insanların anlayışına zidd davranışdır. İslam əxlaqında isə sülh, tolerantlıq və təvazökarlığın əhəmiyyətini və möminlərin yüksək əxlaqını nümayiş etdirən mühüm əxlaqi xüsusiyyətlərdən biridir.

Cəmiyyətdə geniş yayılmış yaxşılıq anlayışı var, lakin bu anlayışın da içində bəzi çatışmazlıqlar və səhvlər var. Quran əxlaqına uyğun yaşamayan insanlar yaxşılığı bəzən kiçik yardım kimi qəbul edir və əsasən, bunu qarşı tərəfə lütf olaraq edirlər. Əsl yaxşılığın nə olduğunu isə Quran ayələrindən öyrənmək olar. Quranda bildirilən yaxşılıq möminin bütün həyatını əhatə edir və ömür boyu yerinə yetirdiyi ibadətdir. Möminlərin yaxşılıq anlayışını cəmiyyətdəki yaxşılıq anlayışından fərqləndirən ən əsas xüsusiyyət isə onların pis əxlaq və ya pis sözlə qarşılaşdıqda da yaxşılıqla cavab vermələridir. Allah heç bir qarşılıq gözləmədən gözəl davrananların mükafatını, şübhəsiz ki, verəcək.

## Gözəl əxlaq və gözəl söz vicdana təsir edir

Pisliyə yaxşılıqla cavab verməyin Quranda bildirilən bir hikməti var. Pis davranışına yaxşılıqla qarşılıq verilən şəxs, düşmən də olsa, yumşalaraq dosta çevrilir. Uca Allah bu vəziyyəti Quranda belə bildirir:

Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)

Ayədə bildirildiyi kimi, Quran əxlaqında daima ən gözəl davranış hədəflənir. Məsələn, danışarkən Allahın **“Qullarıma de ki, ən gözəl sözləri danışsınlar... (İsra surəsi, 53)”** ayəsinə uyğun olaraq ən gözəl sözdən istifadə edilir. Uca Allah pisliyə yaxşlıqla cavab verməyi, gözəl şeyə isə daha gözəl tərzdə qarşılıq verməyi yaxşı əxlaqi xüsusiyyət kimi bildirmişdir. Quranda Allah salama əvvəlcə daha gözəl tərzdə və ya eynilə qarşılıq verməyi belə buyurur:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya (verilən salamı olduğu kimi) qaytarın!**



**Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

Bu Quran ayələrində bildirildiyi kimi, möminlər qarşılarındakı insanı həmişə gözəl əxlaqla və gözəl sözlə doğru yola dəvət edərlər. Tolerant və ədalətli davranar, kobud üslubdan çəkinərlər. Çünki ancaq Allah rizası üçün yaşayan möminlər gözəl əxlaqın Allahın iznilə qarşılarındakı insanın vicdanına təsir edəcəyini bilirlər.

## Kobud üsluba Quran əxlaqında yer yoxdur

`Kobud üslub Allahın möminlərə əmr etdiyi üsluba əsla uyğun deyil. Rəbbimiz Quranda mömin əxlaqını mülayim, dava-dalaşdan çəkinən, ən çox əleyhdə olan insanlara belə mülayim və dostcasına yanaşan, təvazökar, səbirli, mərhəmətli xarakter kimi tanıdır. Quran ayələrini təhlil etdikdə mülayim, tolerant üslubun bütün peyğəmbərlərin ortaq xüsusiyyəti olduğunu görürük. Uca Allah hz. İbrahimin üstün əxlaqını **"... Həqiqətən, İbrahim (Allaha) çox yalvaran həlim bir kimsə idi. (Tövbə surəsi, 114)"** ayəsi ilə bildirir. Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) əxlaqı isə bir ayədə belə bildirilir:

**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar... (Ali-İmran surəsi, 159)**

Müsəlmanlar din əxlaqına uyğun yaşamaqla və dini təbliğ etməklə məsul olan, insanlara zorakılığı tətbiq etməyən, ən zalım insanlara belə pis davranışlarından çəkindirib ədaləti təmin etmək üçün mülayim söz söyləməyi vəzifə bilən insanlardır. Bu üstün əxlaqa malik möminlərin davakar, kobud və hadisələri qızışdıran siyasət işlətməsi əsla mümkün deyil.

## Qəzəbli və anlayışsız üslub cəmiyyət üçün böyük təhlükədir

Dövrümüzdə hər hansı qrupa və ya inanca mənsub radikal cərəyanlar dünyəvi sülhü və təhlükəsizliyi təhdid edən başlıca ünsürlərdən biridir. Radikallar sərt, acı, hətta bəzən təcavüzkar üslubdan istifadə edən kəslərdir. Cəmiyyət üçün böyük təhlükə olan radikalizmin ən əsas xüsusiyyəti qəzəbli üslubdur. Radikal insanların söhbətlərində, yazılarında və nümayişlərində açıq-aşkar bəlli olan bu üslub İslam əxlaqında yeri olmayan cahiliyyə təkəbbürü təəssübünün (Fəth surəsi, 26) ifadəsidir. Quranda müsəlmanlar qəzəbləndikdə qəzəblərini cilovlayan, ağıllı,



mülayim insanlar kimi tanıdılır. Onlar həmişə uzlaşmanın tərəfində durar, qarşıdurmaları tolerantlıq çərçivəsində həll edər və hadisələrin müsbət tərəflərini görərlər. Hər hadisədə sülhsevər və sakitləşdirici davranarlar. Bir ayədə müsəlmanların bu xüsusiyyətləri belə bildirilir:

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 134)

Qəzəbli üslubla düşüncələrini qəbul etdirməyə çalışan insanlardan fərqli olaraq müsəlmanlar onlarla eyni fikir və inanca sahib olmayan insanlarla danışarkən və onlara İslam əxlaqını təbliğ edərkən çox nəzakətli və hörmətli üslubdan istifadə edirlər. Məqsədləri qarşılarındakı insana təzyiq göstərmək deyil. Bir Quran ayəsində bildirildiyi kimi, **"Dində məcburiyyət yoxdur" (Bəqərə surəsi, 256).** Müsəlmanlar Allahın Quranda bildirdiyi əxlaqı ən gözəl şəkildə insanlara təbliğ etmək və seçimi qarşılarındakı insanın vicdanına həvalə etməklə məsuldurlar. Uca Allah bir müsəlmanın digər insanlara qarşı üslubunu bir ayədə açıq şəkildə bildirir:

**Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

## Qurandan bir nümunə

Pisliyə yaxşılıqla cavab verməklə bağlı möminlərə yol göstərən nümunələrdən biri Qurandakı hz. Musa qissəsidir. Hökm və hikmət sahibi Allah hz. Musaya və hz. Haruna fironun yanına getməyi və onunla yumşaq danışmağı ayələrdə belə bildirmişdir:

**Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" (Taha surəsi, 43-44)**

Firon öz dövrünün ən zalım və Allahı inkar edən insanlarından biri idi. Özünü ilahlaşdıraraq (uca Allahı tənzih edirik) iman gətirənlərə (dövrünün İsrail oğullarına) qorxunc zülm və qırğın törətmiş müstəbid şəxsdir. Buna baxmayaraq, fironun yanına gedərkən belə Allah peyğəmbərlərinə onunla yumşaq danışmağı əmr edir. Diqqət etsək, görərik ki, Allahın bildirdiyi bu metod mülayim üslubla dialoqa girməkdir. İynəli sözlər, qəzəbli şüarlar, həyəcanlı etiraz aksiyaları ilə qarşıdurma halında olmaq Allahın bildirdiyi əxlaqa və təbliğ üslubuna uyğun deyil.

## Möminlər heç bir şəraitdə yaxşılıqdan əl çəkməzlər

Hz. Musa qissəsindən də göründüyü kimi, iman gətirənlər həyatları boyu bir-birindən fərqli insanlarla qarşılaşa bilərlər. Lakin qarşılarındakı insanların davranışllarına görə əxlaq anlayışlarını dəyişdirməzlər. Çünki qarşı tərəfin pis davranması onun da pis davranmasına əsas vermir. Hər insan əməllərinə görə, Allah qarşısında tək məsuliyyət daşıyır.

Habelə, pis davranışa qarşı şəfqətli, mərhəmətli və gözəl əxlaqlı davranmaq Quran əxlaqına əsasən, üstün şəxsiyyətin göstəricisidir. Çünki möminin bu davranışı onun ancaq Allahı razı salmaq üçün səbirlə hərəkət etdiyini və uca Allaha olan bağlılığını göstərir. Ona görə, bütün müsəlmanlar Quran əxlaqına zidd olan hər cür sərt, qəzəbli, davakar üslubdan tamamilə uzaq olmalı, sonsuz rəhmət sahibi Allahın Quranda bildirdiyi mülayim, tolerant, sakit, ağıllı üslubu mənimsəməlidirlər. Müsəlmanlar kamillik, tolerantlıq, insanpərvərlik, mülayimlik, təvazökarlıq və təmkinlik kimi xüsusiyyətləri ilə bütün dünyaya nümunə olmalı və Quran əxlaqının yayılmasına vəsilə olmalıdırlar. Allah bu cür davranan qullarını belə müjdələyir:

**Səbir etdiklərinə görə, onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər. (Qəsəs surəsi, 54)**

**... Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır. Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Hud surəsi, 114-115)**

**... Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır. (Əraf surəsi, 56)**

Bütün insanları gözəl əxlaqa dəvət edərək dini təbliğ edən, yaxşılığı əmr edən və pis işlərdən çəkindirən möminlər ətraflarındakı insanları əsla təcrid etməz, təvazökarlıq və tolerantlıqdan əl çəkməzlər. Bu, onların Allah qorxularının və gözəl əxlaqlarının mühüm göstəricisidir.





# ŞÜURUN GÖRÜNMƏZ MƏNBƏYİ

İnsan orqanizmindəki sistemlər öz funksiyalarını yerinə yetirərkən görülən işin koordinasiyasını, tənzimlənməsini, və təşkil olunmasını da həyata keçirirlər. Bu jurnalın məqalələrində orqanizmdəki sistemlərin bir çoxu ağıllı adlandırılır və buna əsaslanaraq bu ağlın mənbəyi açıqlanmağa çalışılır. Şübhəsiz ki, "ağıllı hüceyrə" və ya "ağıllı orqan" məcazi anlayışdır. Çünki beyni və sinir sistemi olmayan hüceyrə və ya toxumalar şüur sahibi ola bilməzlər. Ancaq hamısının gördüyü işlərdə heyrətamiz şüur təzahür edir. Bu isə darvinistlər və bütün materialistlər üçün müəmmadır. Çünki materialistlər də şüurun beyindəki hüceyrələr və bu hüceyrələr arasındakı kimyəvi reaksiyaların məhsulu olduğunu iddia edirlər. Qısaca desək, materialist iddiaya görə, şüur beyindən ibarətdir. Materialistlər şüuru beyinlə izah etməyə çalışırlar, elmi müşahidələr beyni belə olmayan canlıların şüurlu olduqlarını göstərir. Son illər bakteriyalar və digər təkhüceyrəlilər üzərində aparılan müşahidələr də bu mikroskopik canlıların çox "ağıllı" davrandıqlarını, sanki mövcud vəziyyəti dəyərləndirib qərar verdiklərini göstərir. Molekulyar bioloq Maykl Denton belə yazır:

"Bir toz zərrəciyindən də kiçik olmalarına baxmayaraq, amöblər kompleks canlılar kimi həyat strategiyasına malikdirlər. Əgər bir amöbu götürüb pişik ölçüsündə böyütsək, bu məməli ilə eyni dərəcədə zəkaya malik olduğunu görərik. Bəs bu qədər kiçik canlılar necə olur ki, bu qədər yaxşı ölçülüb-biçilmiş qərarlar verirlər?.. Bir amöb tutmaq istədiyi ovunu şüurlu şəkildə qovur, ov istiqamətini dəyişdirdikdə o da onun ardınca istiqamətini dəyişdirir və bu təqibi uzun müddət davam etdirir. Bu davranışlar molekulyar səviyyədə açıqlana bilmir".

Maykl Dentonun yuxarıdakı son cümləsinə diqqət etmək lazımdır. Amöblərin davranışları molekulyar səviyyədə, yəni kimyəvi reaksiyalarla, fiziki amillərlə açıqlana bilmir. Bu canlılar sanki şüurlu surətdə qərar verərək hərəkət edirlər. Maraqlısı budur ki, onların nə beyni, nə də sinir sistemi var. Zülal, yağ və sudan ibarət tək hüceyrədirlər. Bakteriyaların ağıllı davranışlarını göstərən başqa nümunələr də var. Məşhur fransız elm jurnalı "Elm və həyat"ın (Science et Vie) 1999-cu il iyul sayında bildirildiyinə görə, bakteriyalar bir-birləri ilə xəbərləşir və bu xəbərlərə əsaslanaraq qərar verirlər.



"Elm və həyat" jurnalında bu xəbərləşmənin çox mürəkkəb sistemlə işlədiyi vurğulanır. Bakteriyaların səthində elektrik impulsları göndərən və qəbul edən mexanizmlər var. Bakteriyalar bu sayədə bir-birlərinə impuls göndərir, olduqları mühitin xüsusiyyətləri, həmin mühitdəki qida vəziyyəti kimi məlumatlar ötürürlər. Bu məlumatlara əsasən, nə qədər çoxalacaqları və çoxalmanı nə vaxt dayandıracaqlarına qərar verirlər.

Bir sözlə, gözlə görünməyəcək qədər kiçik canlılar ətraf mühit haqqında məlumat toplayır, bu məlumatları şərh edib bir-birlərinə ötürür və sonra da müəyyən istiqamətdə qərar verib həyata keçirirlər. Həm də qrup halında...

Bütün bu nümunələr canlılarda əsla maddə ilə izah olunmayan şüur olduğunu göstərir. Ən kompleks canlı hesab edilən insandan ən ibtidai canlı hesab edilən təkhüceyrəlilərə qədər canlılarda fövqəlmaddə mənbədən gələn heyrətamiz şüur var.

## Bəs bu fövqəlmaddə mənbə nədir?

Quranda bizə bu barədə çox mühüm məlumatlar verilir. Məsələn, bal arılarından bəhs edən ayələrdə bu canlıların şüurlu davranışlarını onlara Allahın ilham etdiyi bildirilir:

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik; Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə asanlaşdırdığı yollarla get! (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır! (Nəhl surəsi, 68-69)**

Başqa bir ayədə bütün canlıların Allahın hakimiyyətinə tabe olduğu xəbər verilir. Quranda bildirildiyi kimi, **"Elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allahın) əlində olmasın...". (Hud surəsi, 56)**

Quranda açıqlanan bu sirr canlılardakı müəmmalı şüurun mənbəyidir. Şüur materialistlərin hesab etdiyi kimi, maddəyə xas xüsusiyyət deyil. Maddəni təşkil edən atomları əsla şüur sahibi edə bilməzsiniz. Şüur mütləq başqa şüurdan qaynaqlanmalıdır. Canlılardakı şüur isə Allahın ilhamından qaynaqlanır.

İnsan bədənində və ya başqa canlıdakı hüceyrələrdə özünü göstərən ağıl da Allahın varlıqlar üzərindəki mütləq hakimiyyətinin təcəllisidir. Allah yaratdığı varlıqlar vasitəsilə Özünü tanıdır və insanlar bu əsərlərə baxaraq Allahın sonsuz gücünü və qüdrətini tanıyıb təqdir edirlər.



# QƏDİM TÜRKLƏR VƏ İSLAM

Dünya tarixinə nəzər salsanız, dərhal anlayarsınız ki, türklər heç vaxt dövlətsiz qalmayıblar, hər dövrdə bir və ya bir neçə dövlətə malik olublar. Dövlətin hökmdarı yabqu, xan, xaqan, iltəbər adlandırılmışdır. Hökmdarlar nəzəri və praktiki təhsillərini təcrübəli dövlət adamlarının nəzarəti altında tamamlamış, dövlət idarəçiliyində müdrik insanlardan təşkil edilmiş məclislə məsləhətləşmiş, onların tövsiyələrini nəzərə almışlar. Aqil vəzirlər lazım gəldikdə hökmdarlara yol göstərmiş, hətta açıq şəkildə onları tənqid etmşlər. Bu sistem xalqın sülh və əmin-amanlıq, ədalət və zənginlik içində yaşamasına səbəb olmuşdur.

Türklərin hərbçiliyi, intizamlı orduları və döyüş texnikaları dillərə dastan olmuşdur. Avropa və Asiya qitələrinin böyük dövlətləri ordularını təşkil edərkən türklərdən nümunə götürmüşlər.

Qədim türklərin ən əsas xüsusiyyətlərindən biri adət-ənənələrinə bağlılıqları idi. Türk adət-ənənələri yazılı deyildi, dildən-dilə, nəsildən-nəsilə ötürülürdü. Hökmdarlar da daxil olmaqla, hər kəs adət-ənənələrə tabe olmaqla məsul idi. Türk adət-ənənələrində ağır cəzalar da vardı, ancaq doğruluq və ədalətdən ayrılmazdılar. Bu adət-ənənə əsrlərin təcrübəsinin məhsulu idi. Adət-ənənə bir növ ölkənin əsas qanunu idi.

Dövrümüzdə azadlıq və bərabərliyin təşəbbüskarı olduqlarını iddia edənlər bilməlidirlər ki, insan haqları və azadlıqlarının ilk təşəbbüskarı türklər olmuşdur. Türklərin qurduğu dövlətlərdə din, dil və irqi ayrı-seçkilik edilmədən hər kəsə bərabər münasibət göstərilmişdir. Professor Hakkı Dursun Yıldız bu faktı: "Tarix boyu türklərdə din, dil və irqi ayrı-seçkiliyə görə Amerika və Avropada həmişə rast gəlinən qırğına, işgəncəyə və haqların tapdanılmasına əsla rast gəlinmir", - deyə ifadə etmişdir.

Qədim türk tayfalarında qadınlarla kişilərin, demək olar ki, bərabər hüquqlu olması diqqətçəkən cəhətdir. Türk qadınları cəmiyyətin hər sahəsində yer almış, hətta lazım gəldikdə döyüşlərdə də iştirak etmişlər.

## Qədim türklərin İslamı qəbul etməsi

Türklər İslamı könüllü qəbul ediblər. Bu, bütün tarixçilərin yekdilliklə qəbul etdiyi məsələdir. Türklərin Göy Tanrı inancları ilə İslam arasında bəzi bənzərliklərin olması bunda mühüm rol oynamışdır.

Qədim türklər sitayiş etdikləri yaradanı "Tenqri" adlandırırdılar. Tanrının bir olduğuna və hər şeyi yaratdığına inanırdılar. Öldükdən sonra yaxşı insanların "uçmağ" adlandırılan cənnətə, pislərin isə "tamu" adlandırılan



cəhənnəmə gedəcəklərini düşünürdülər. Qədərə inanırdılar. İbn-Fadlanın yazdığına görə, türklərdə zina və homoseksuallıq qadağan idi, oğurluq edənlərə ağır cəza verilir, yaxşılığa riayət edilirdi. Bütün bunlar türklərin müsəlman olmasına təkan verən amillər idi.

Türklər tarix boyu müxtəlif dinləri qəbul ediblər. Buna baxmayaraq, İslamdan başqa dinləri qəbul edənlər türklüklərini qoruya bilməmiş, digər sivilizasiya və dinlər içində assimilyasiyaya məruz qalmışlar. İslam dini milli quruluşa uyğun olduğu üçün türklər kütləvi şəkildə bu dini qəbul etmiş və milli varlıqlarını qorumuşlar. Başqa sözlə, İslam bütün türkləri birləşdirən din olmuşdur. Bu faktlar "Türk tarixindən yarpaqlar" adlı əsərdə belə ifadə edilmişdir:

"Türklər İslam dinini səmimi, könüllü şəkildə, heç bir məcburiyyət və xarici təzyiq olmadan kütləvi qəbul edərək tarixlərinin yeni dövrünə qədəm qoydular. Bu yeni dövr X əsrdən əvvəlki 1200 ildən daha şanlı idi. İslam türk milli quruluşuna uyğun din idi. Türklər müsəlman kimi türklüklərini tamamlamışdılar".

Türklər arasında İslam daha çox təriqətlər və həyatını dinə həsr etmiş insanlar vasitəsilə yayılmışdır. Başqa dinlərin də yayıldığı Mavərünnəhr bölgəsində müsəlman hüquqşünas və elm adamlarının yetişməsi və çoxalması İslamın yayılmasını sürətləndirmişdir. Bu zaman mədrəsələr qurulmuş, "Ali İslam" adlandırılan yazılı adət-ənənəyə bağlı İslam anlayışı tətbiq edilmişdir.

İlk Quran tərcümələri X əsrdə Quranın farsca tərcüməsi ilə müqayisə edilərək sətirlərin arasına yazılmışdır. İslamın qəbulundan sonra Quranın yazılı tərcümələri türk yazılı dilinin inkişafına və yayılmasına kömək etmişdir.

Türklərin İslam dinini qəbul etməsi mühüm irəliləyişə səbəb olmuşdur. İslam türklərin bayraqdarlığı ilə dünyaya yayılmış, bu vəziyyət dünya tarixini formalaşdıran bir çox hadisəyə zəmin hazırlamışdır. Professor Erol Güngör bu həqiqəti belə vurğulayır:

"Türklər İslam dinini özlərinin milli dininə çevirdilər, bütün mənlik və səmimilikləri ilə bu dinə bağlanaraq XI əsrdən etibarən İslam dünyasının bütün düşmən qüvvələrə qarşı qorunmasını təkbaşına boyunlarına götürdülər. İslama qədər türklər hər cür yüksək xüsusiyyətə malik, ancaq hələ dünyada öz yerini tam tapmamış bir millət idi. İslam onun yolunu aydınlandıran işıq oldu və türk milləti bu işığı təqib etdikcə daima yüksəldi".



# Son illərdə müsəlman ölkələrində baş verən ictimai iğtişaşlar hz. Mehdinin (ə.s) ÇIXIŞ ƏLAMƏTLƏRİDİR

Peyğəmbərimizin (s.ə.v) axırzaman və hz. Mehdinin (ə.s) çıxış əlamətləri ilə əlaqədar verdiyi ətraflı məlumatlar bir-birinin ardınca zühur edir. Hədislərdə bildirilən əlamətlər arasında müsəlman ölkələrində baş verən hadisələrdən də bəhs edilmişdir. Peyğəmbərimizdən (s.ə.v) edilən rəvayətlərdən məlum olur ki, müsəlman ölkələrində baş verən qarışıqlıqlar, fitnələr və böyük hadisələr hz. Mehdi (ə.s) çıxana qədər davam edəcək (doğrusunu Allah bilir).

Hal-hazırda müsəlman ölkələrində müharibə və qarşıdurmalar, terror, şiddət, anarxiya, qarışıqlıq, qırğınlar, işgəncələr və əxlaqi degenerasiya dözülməz həddə çatıb. Bu ölkələrdə baş verən hadisələr hədislərdəki izahlarla üst-üstə düşür. Bölgədə yaşanan anlaşılmazlıqlar, döyüşlər, işgəncə və qırğınlar hz. İsanın (ə.s) nüzulu və hz. Mehdinin (ə.s) zühuru ilə bağlı olan əlamətlərdəndir.

Peyğəmbərimiz (s.ə.v) müsəlman ölkələrində baş verən hadisələri 1400 il

əvvəldən xəbər vermişdir.

## Əfqanıstanın iki dəfə işğal edilməsi

*"Taliqana (Əfqanıstana) heyif oldu. Şübhəsiz, Allahu-təalanın orada qızıl və gümüş olmayan xəzinələri var.* (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, s. 59)" hədisində Əfqanıstanın axırzamanda işğal ediləcəyinə dair işarə var. Həqiqətən də, rusların Əfqanıstanı işğal etdiyi 1979-cu il hicri 1400-cü ilə, yəni XIV əsrin əvvəlinə təsadüf edir. Əfqanıstan 2001-ci ildə başda ABŞ olmaqla, NATO ilə bağlı ölkələr tərəfindən "Terrora qarşı mübarizə, insani kömək, ölkənin yenidən inşa edilməsi və demokratiya" adı altında ikinci dəfə işğal edilmişdir. İkinci işğal 70.000-dən çox insanın ölümü, əkin ərazilərinin əksəriyyətinin minalanaraq yox edilməsi, bunun nəticəsində aclıq və epidemiyadan (başda uşaqlar olmaqla) hər gün yüzlərlə insanın ölümü ilə nəticələnmişdir. Ölkə başdan ayağa dəfələrlə bombardmana məruz qalmış və bu, bu gün də arasıkəsilmədən davam etdiyi üçün sığınma yerləri qalmamış, beləliklə, əhalinin 70%-i işsiz, ac və susuz küçələrdə yaşamağa məcbur olmuş, hər cür sağlamlıq və təhsil imkanlarından məhrum olmuşlar.

## Bağdadın alovlarla yox edilməsi

*"Axırzamanda Bağdad alovlarla yox ediləcək..." (Risalet-ül Huruc-ül Mehdi, 3-cü cild, s. 177)*

2003-cü ildə İraq müharibəsinin ilk günlərindən etibarən Bağdad ən çox bombardmana məruz qalan şəhərlərdən biri olmuşdur. Güclü bombardman gecələr Bağdadın hədisdə xəbər verildiyi kimi, alov-alov yanmasına səbəb olmuşdur. Bağdadın qəzet və televizor xəbərlərində verilən görüntüləri yuxarıdakı hədisdə diqqət çəkilən "alovlarla yox ediləcək" ifadəsinə tamamilə uyğundur.



## və Ərəbistanda qarışıqlıq

Rəsulullah (s.ə.v) belə buyurmuşdur: *"... Elə bəla və müsibətlər olacaq ki, heç kim sığınmağa bir yer tapmayacaq. Bu bəlalar Şamın ətrafında dolanacaq, İraqın üzərinə çökəcək. Ərəbistan yarımadasının əlini və ayağını bağlayacaq... Onlar bəlanı bir tərəfdə dəf etməyə çalışarkən, o, digər tərəfdən yenə ortaya çıxacaq".* (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, c.5, s. 38-39)

## İraqın yenidən qurulması

*"... İraqa hücum edilmədikcə qiyamət qopmaz. İraqdakı günahsız insanlar Şama doğru sığınmağa yer axtararlar. Şam yenidən qurular, İraq da yenidən qurular".* (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, c.5, s. 254)

Hədisdə İraqın yenidən qurulacağına diqqət çəkilir. Əvvəl İran-İraq müharibəsi, sonra Körfəz müharibəsi, sonra da 2003-cü il İraq müharibəsindən sonra İraqda bir çox şəhər yerlə-yeksan edilmişdir. Bu müharibədən sonra baş verən qarət hadisələrinin təsiri ilə böyük xarabalığa çevrilən İraqın yenidən qurulması məcburi olmuşdur.



## İraqın üç hissəyə bölünməsi

İraq xalqı üç firqəyə ayrılar. Bir qismi soyğunçulara

qoşular. Bir qismi ailələrini arxada qoyub qaçar. Bir qismi döyüşər və öldürülər. Siz bunları gördüyünüz zaman qiyamətə hazırlaşın. (Yusuf el-Makdisi, Fera İdu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)











Hədisdə xəbər verilir ki, xalqın bir qrupu soyğunçulara qoşulacaq. Münaqişədən sonra hakimiyyət boşluğundan istifadə edərək, İraqda böyük qarətlər edilmişdir. Hədisdə xalqın bir qisminin olduqları yerdən tezliklə qaçmağa cəhd edəcəkləri, hətta arxada qoyduqları ailələrini belə düşünməyəcəkləri xəbər verilmişdir. Qəzetlərdə buna dair xəbərlər diqqət çəkicidir. Hədisdə xalqın bir qisminin isə döyüşəcəyi və öldürüləcəyi bildirilir. İraq müharibəsində bir qrup insanlar müxtəlif bölgələrdə mübarizəyə qatılmış və şəhid edilmişlər.

Misirdə baş verən hadisələr və Misirin prezidenti Hüsnü Mübarəkin hədislərdə ətraflı şəkildə təsvir edilməsi

Misir son günlərdə tarixin ən qarışıq dövrlərindən birini yaşayır. Qarşıdurmalar sürətlə davam edərkən iki milyon aksiyaçı meydanlara çıxmışdır. Misirdə baş verən hadisələrin və 1981-ci ildən bəri Misirin prezidenti Hüsnü Mübarəkin fiziki xüsusiyyətlərinin Peyğəmbərimizin (s.ə.v) hədislərində ətraflı təsvir edilməsi isə çox heyrətamizdir.

## HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏ MİSİRDƏ ZÜHUR EDƏN ALA QARĞA

Naim bin Həmmad Fitən və Əbu Cəfər Məhəmməd bin Əlidən (ə.s) rəvayət etdilər. Buyurdu ki: ***"Abbasi Xorasana çatdığı zaman Şərqdə buynuz şəklində bir ulduz çıxar... O ulduzun doğulması Günəş və Ay tutulmasından sonra olacaq. Sonra fitnələr "ala qarğa" Misirdə zühur edənə qədər davam edər.*** (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 32)

Hədislərdə deyildiyi kimi, Hüsnü Mübarəkin üzü, saçı, gözlərinin forması, baxışları, üzündəki ifadə, burnu və ağız quruluşu qarğaya bənzəyir. Peyğəmbərimiz (s.ə.v) bu şəxsin fitnələrin yaşandığı və iki uclu kometanın çıxdığı dövrdə yaşayacağını bildirir. Bəhs edilən Lulin kometası 2009-cu ilin fevral ayında Yer kürəsinə ən yaxın nöqtədən keçmişdir. Buna görə də hədisin dövrümüzə baxdığı açıq şəkildə aydın olur. Peyğəmbərimizin (s.ə.v) ***"Misirdə zühur edən ala qarğa" bənzətməsi Hüsnü Mübarəkə tam uyğun gəlir.*** (Doğrusunu Allah bilir)

## ... ÇÖKÜK BURUNLU:

Deyləmi Əbu Əli Mərdənidən (ravi silsiləsi ilə), o da Əbu Zərdən, o da Rəsulullahdan (s.ə.v) rəvayət etdilər. Buyurdu ki: ***Misirdə Qüreyşdən bir adam çıxar, çökük burunludur,***





***məğlub olar və mülkünü zail edər və Ruma qaçar. Onları tutub İskəndəriyyəyə gətirər və müsəlmanlarla döyüşər və ilk məlhamə bu olar.*** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 30)

Hüsnü Mübarəkin burnu eynilə hədisdə təsvir edildiyi kimidir.

## ... YAXŞILARI ÖLDÜRƏN ZALIM MİSİRLİ

Başqa bir rəvayətdə də ***"Mahzum qəbiləsinə mənsub olan biri başa keçəcək, daha sonra Mövla gələcək, sonra da qarşı gələni yox edən, uzun boylu, çox qüvvətli, geniş çiyinli bir ərəb başa keçəcək..."*** (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, s. 30)

Bu hədisdə bildirilən xüsusiyyətlərin hər biri Hüsnü Mübarəkə uyğun gəlir. Məsələn, Hüsnü Mübarəkin uzun boylu olması prezidentliyə namizədlik tələblərinə daxil etmişdir. Özü də eynilə hədisdə ifadə edildiyi kimi uzun boyludur.

Hədisdə bildirilən başqa bir xüsusiyyət isə bu insanın özünə qarşı gələni yox etməsidir. Belə ki, Mübarək dövlət başçısı olduğu illərdə xalqa və xüsusilə də müsəlmanlara etdiyi zülmlərə və diktator rəhbərliyinə görə, "son firon" kimi xatırlanır.

Peyğəmbərimiz (s.ə.v) bu adamın bədəncə qüvvətli və geniş çiyinli olduğundan da bəhs etmişdir. Həm keçmişdə əsgər olması, həm də 25 min şəxsi ordusu olduğuna görə, zahirən qüvvətli olan Mübarəkin fiziki cəhətdən də də güclü və geniş çiyinli olduğu açıq şəkildə görünür.

## Darvinist-materialist dünyagörüşü müsəlman ölkələrini müharibə və qarışıqlığa sürükləmişdir

Peyğəmbərimizin (s.ə.v) ***"Hələ bir tərəfdə sönməmiş, digər tərəfdə alovlanan fitnələr görünəcək və səmadan bir münadinin "Əmriniz nədir" şəklindəki səsinə qədər belə davam edəcək.*** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s.25)" və ***"Fitnələr ard-arda davam edər... "Nə vaxt bitdi?" -deyilər, yenə də davam edər gedər"*** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 36)" hədisləri ilə diqqət çəkdiyi kimi, müsəlman ölkələrində qarışıqlıq və şiddət hadisələri ard-arda yaşanacaq. Müsəlman ölkələrinin yaşadıqları qarışıqlıq və parşalanmanın təməlində Peyğəmbərimizin (s.ə.v) fitnə kimi bildirdiyi darvinist və materialist dünyagörüşün böyük təsiri var. Bu ölkələr İslam dinini qəbul etmələrinə baxmayaraq, Quran əxlaqının gətirdiyi sevgi və sülh ruhunu tam mənada yaşamırlar. Bu ölkələrin çoxunda uzun illərdir darvinist təhsilə üstünlük verilir, dövlət



rəhbərləri darvinizmi dəstəkləyir, gənclər darvinist-materialist kimi yetişdirilir. İslami camaatların və qrupların əzilməsi, din əxlaqının azad şəkildə yaşanmasına mane olunması, xristianlara qarşı hücumlar Quran əxlaqına tamamilə müxalif olan darvinist-materialist dünyagörüşün nəticəsidir. Son günlərdə Misir və Tunisdəki yaşanan hadisələrdə də etirazların zamanla təcavüzkarlığa, talan və zorakılığa çevrilməsi eyni dünyagörüşün nəticəsidir.



Tunisdə, Misirdə və bəzi İslam ölkələrində yaşayan qardaşlarımız haqlı və qanuni tələblərini ifadə edərkən, insani və konstitusion hüquqlarını qazanmaq üçün mübarizə apararkən bunu mütləq Qurana və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə uyğun etməlidirlər. Allahın bildirdiyi yol, Peyğəmbərin (s.ə.v) göstərdiyi həll yolu göz ardı edildiyində Allah arzu edilən müvəffəqiyyəti verməz.



Müsəlmanların parçalanması davam etdikcə və darvinist-materialist dünyagörüş sona çatmadıqca Misirdə reallaşan heç bir etiraz, heç bir döyüş və bunlara qarşı qoyulan heç bir qadağa və heç bir texniki tədbir problemi həll etməyəcək. Tam əksinə, belə hadisələrin nəticəsində müsəlman xalq daim əzilmiş, zərər çəkmiş, itkilər vermişdir. Belə hadisələr daim müsəlman xalqın əzab çəkməsinə və zülm görməsinə səbəb olmuşdur. Bu səbəbdən, çətinliklərin, əzabların, haqsızlıqların sona çatması üçün küçələrə tökülmək, polislə və əsgərlə mübarizə aparmaq, muzeyləri yağmalamaq, dinc əhalini narahat edib qorxutmaq yox, darvinist zehniyyəti tərk etmək və müsəlmanları qardaşlığa çağırmaq lazımdır. Allah belə hadisələrlə müsəlmanlara parçalanmağın dəhşətli nəticələrini göstərir və darvinist-materialist anlayışın gətirdiyi dünyagörüşünü tərk etməyin lazım olduğunu xatırladır.



## Müsəlman ölkələrdə yaşanan hadisələr Mehdiyyətin bir hissəsi kimi inkişaf edir



Hədislər müsəlman ölkələrdə yaşanan hadisələrdən sonra İslam aləmində bəzi dəyişikliklərin yaşanacağını müjdələyir. Bir çox İslam ölkəsində demokratik olmayan rəhbərliklər məzlum xalqı uzun illərdir təzyiq altında saxlayır. Bu rəhbərliklərin ədalətsiz siyasəti xalqı yoxsulluq içində buraxmışdır. Xalqın düşüncəsini ifadə etməsini, dinini istədiyi kimi yaşamasını, İslamı azad şəkildə izah etməsini qadağan edən, bu qadağalara riayət etməyənləri işgəncələrlə, həbslərlə, hətta ölüm təhdidi ilə təzyiq altına almağa çalışan bu düşüncə dəyişməlidir. Peyğəmbərimizin (s.ə.v) ***"... Heç bir tərəfin ondan məhfuz qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə bir yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir münadinin səmadan səslənərək: "Ey insanlar, əmiriniz artıq Mehdidir", -deməsinə qədər davam edəcək.*** (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, s. 22)" hədisindəki müjdəsinə

görə, fitnələrlə dolu, qorxu və şiddətin hakim olduğu bu qaranlıq dövrün dəyişməsi Allahın hz. Mehdini (ə.s) göndərməsi və bu dəyərli şəxsin vasitəsi ilə mümkün olacaq (doğrusunu Allah bilir).

## Müsəlman ölkələrindəki ictimai hadisələr və fitnələr hz. Mehdi (ə.s) vasitəsilə sona çatacaq

*"... Onunla (Hz. Mehdi ilə (ə.s)) da fitnədən xilas olacaqlar"*. (Kitab-ül Burhan fi Alametil Mehdiyyil Muntazar)

Peyğəmbərimiz (s.ə.v) Allahın izni ilə hədislərində axırzamanın əlamətlərini ətraflı şəkildə izah etmişdir. Hədislərdəki məlumatlara görə, axırzamanın ilk dövrünü meydana gətirən qarışıqlıq və degenerasiyadan sonra Allah gözəl əxlaqdan uzaqlaşıb, qarşıdurmaya uğrayan cəmiyyətləri doğru yola yönəltmək üçün "Mehdi" (doğruya aparan) ismini daşıyan üstün əxlaqlı bir qulunu vəsilə edəcək. Hz. Mehdi (ə.s) İslam dünyasını bir yerə yığacaq və ikinci dəfə dünyaya gələn hz. İsa (ə.s) ilə birlikdə Quran əxlaqının dünyaya hakim olmasına səbəb olacaq. Bu müjdəli xəbərin reallaşması Allahın izni ilə çox yaxındır. İnananlar dünya tarixinin ən xüsusi və ən görkəmli zamanlarından biri olan bu günləri həyəcan və coşğu ilə gözləyirlər.

Müsəlman ölkələr axtardıqları rahatlıq və rifahı tapmaq üçün ittihadi-İslamın qurulmasına səy göstərməli, hz. Mehdinin (ə.s) adını xatırlamalıdırlar.

*"Bir fitnə görünər, bunu digər fitnələr izləyər və birincilər sonuncuların qılıncla qarşıdurmaya dönüşünü qamçılayar və bundan sonra bütün haramların halal sayılacağı bir fitnə gələr. Sonra da xilafət (müsəlmanların mənəvi liderliyi) yer üzünün ən xeyirlisi olan hz. Mehdiyə (ə.s) evində oturarkən gələcəkdir".* (Kitab-ül Burhan fi Alametil Mehdiyyil Muntazar, s.26) hədisində ifadə edildiyi kimi, müsəlman ölkələrində yaşanan hadisələrdə diktator rejimlərə qarşı xalq küçələrdə toplanmış, xalq və dövlət qüvvələrini qarşı-qarşıya gətirmiş, bir-birlərinə qarşı savaşmışlar. Halbuki dəyişmə küçə qarşıdurmaları, yağmalar, təcavüzkarlıq və şiddətlə reallaşdırıla bilməz. Şiddətə əsaslanan vasitə dəyişikliyi, insanların həsrət qaldıqları və ehtiyacları olduğu rahatlığı, rifahı və etibarı təqdim etməz. Bəzi müvəffəqiyyətlər və inkişaflar əldə edilə bilər. Amma bu, tam təmin edici həll meydana gətirməz. Əsl həll ancaq Allahın və Rəsulullahın (s.ə.v) göstərdiyi yola tabe olmaqla təmin edilə bilər. Allahın və Elçisinin (s.ə.v) göstərdiyi həll isə bütün İslam aləminin mənəvi lider ətrafında birləşməsi, Türk-İslam Birliyinin təsis edilməsidir.



# QAN DÖVRANINI TƏNZİMLƏYƏN MEXANİZM



Görüləcək işin faydalarını və zərərlərini hesablayaraq tədbir görmək insana, yəni ağıla xas xüsusiyyətdir. Ancaq insan bədənindəki qan dövranına nəzər saldıqda insandan daha ağıllı görünən bəzi varlıqların birlikdə mütəşəkkil işin öhdəsindən gəldiklərini görürük. Onların üzərinə düşən məsuliyyət isə daha böyükdür: bir insanın həyatı! Buna görə, fasiləsiz, səhvsiz, hər vəziyyətə və şəraitə uyğun tədbir görərək yollarına davam etməlidirlər.

Orqanizmdəki bu mexanizmin ağıllı olduğunu sübut edən bir çox dəlil var. Əvvəlcə orqanizmin ehtiyacları müəyyən olunur. Bunun hansı qərarla edildiyi və ehtiyacların kim tərəfindən müəyyən edildiyi məlum deyil. Ancaq ürək, damarlar, qandakı hüceyrələr birlikdə həddindən artıq şüurlu və mütəşəkkil şəkildə fəaliyyət göstərirlər. Ürək qanı müəyyən miqdarda vurur, eritrositlər (qırmızı qan hüceyrələri) daşıdıqları oksigeni müəyyən hüceyrələrə paylayır və damarlar müəyyən yerləri qanla təmin edirlər.

Siz yatarkən və ya dincələrkən ürəyinizin çox qan vurmasına ehtiyac yoxdur. Yataqdan cəld qalxdıqda təngnəfəs olmağınıza səbəb aradakı bu fərqdir. Ürək siz yatarkən sizi yaşadacaq qədər qan vurur. Bu, çox önəmli qənaətdir. Yataqdan qalxıb yeriməyə başladıqda ürəyin hərəkəti artır. Sizi daha artıq çətinliyə salmadan məlumat lazımi yerə çatdırılmışdır: bədən hərəkət edir və daha artıq qana ehtiyac var. Qaçmağa başladıqda isə ürəyinizin qan vurma sürəti və həcmi 6-7 dəfə artır. Orqanizm çox qənaətcildir. Bədənin hər tərəfinə hər an eyni miqdarda qan getmir. Qan yemək yedikdə mədənizə, üzdükdə ağciyərlərinizə və əzələlərinizə, bir şey oxuduqda beyninizə toplanır. Çünki həmin an qidalanmalı və nəfəs almalı hüceyrələr o bölgələrdədir.

Orqanizm təkcə bu anlarda qənaət etmir. Normal şəraitdə bədən əzələlərini qidalandırmaq üçün xüsusi səy göstərmir. Əzələlər bədənin 30-40%-ni təşkil edir. Buna baxmayaraq, gündəlik dincəlmə vəziyyətində əzələlərə gedən qanın miqdarı həddindən artıq azdır. Ancaq əzələlərinizi işlətməyə başladıqda maddələr mübadiləsi 50 dəfə, əzələlərə qan axını isə 20-25 dəfə artır. Bu, həqiqətən, heyrətamiz dəyişiklikdir. İdman hərəkətləri zamanı əzələlərin bu qədər çox qana ehtiyacı var. Əgər normal şəraitdə də əzələlərin bu qədər çox qana ehtiyacı olsaydı, şübhəsiz ki, ürək bunu təmin edə bilməzdi. Orqanizmin ağıllı nəzarətçiləri bunun əvəzinə qanı beyin kimi daha vacib, lazımlı yerlərə istiqamətləndirirlər.



Beyin daima qidalanmalı və oksigenlə təmin olunmalıdır. Çünki beyin orqanizmdə baş verən proseslərə və bütün orqanlara nəzarət edir. Maraqlısı budur ki, ürək, qan damarları və qan hüceyrələri bunu bilirlər. Buna görə, beyinə daima qan göndərilir. Damarlar beyinə hər dəqiqə təqribən 1 litr qan göndərməlidirlər. Qanaxma baş verdikdə isə orqanizmdə azalan qanı müəyyən sinirlər beyinə göndərir. Beyindəki damarlar bu təcili vəziyyətə uyğun özlərini tənzimləyirlər, yəni ya genişlənir, ya da daralırlar. Vəziyyətdən xəbərdar olan orqanizmin başqa hissəsindəki qan damarları əsas mərkəzi xilas etmək üçün qan axınını dayandırırlar. Beləliklə, daha az əhəmiyyətli orqanlara qanın göndərilməsinin qarşısı alınır. İnsan bədəninin hər yerində özünü göstərən ağıl burada da qarşımıza çıxır.

Orqanizmdəki hər toxumanın qan ehtiyacı tam təmin edilir. Məsələn, ən çox oksigenə ehtiyacı olan toxumaya qan lazımi miqdarda və ya bir az artıq göndərilir. Lakin bundan daha artıq qan verilmir. Bu tənzimləmə həm toxumaları kifayət qədər qidalandırır, həm də ürəyin fəaliyyətini minimum səviyyədə saxlayır. Böyük əhəmiyyət kəsb edən bu tənzimləmə sistemi damarlarla əlaqədardır. Damarlar ancaq qana ehtiyacı olan toxumalar üçün yollarını açır, yəni genişlənirlər, o əsnada daha az qana ehtiyacı olan toxuma üçün yolları bağlayır, yəni daralırlar. Damarları əzələlərlə əhatə edən mükəmməl yaradılış burada özünü biruzə verir.

Bəs bu cür tənzimləmə mexanizmi olmasaydı və orqanizmdəki hər toxuma və orqan hər an bərabər səviyyədə qan alsaydı, nə baş verərdi? Onda ürək hal-hazırda olduğundan bir dəfə artıq qan vurardı. Ürək, təbii ki, bu ritmə uyğunlaşa bilməz və qısa müddətdə yorulardı. Hündür dağa çıxdığınızı və ya həddindən çox idman etdiyinizi düşünün. Bu zaman bədəninizin daha çox oksigenə ehtiyacı olur. Bu oksigen ehtiyacını təmin etmək üçün nə qədər sürətlə nəfəs alırsınız və ürəyiniz necə sürətlə döyünür. Bədənin bütün toxumaları eyni miqdarda qanla qidalanarsa, siz günün 24 saatı buna bənzər şəkildə, bəlkə daha çətin yaşayacaqsınız. Bu müqayisə bədənin tənzimləmə mexanizminin sizin üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu göstərmək üçün kifayətdir.

Həqiqətən, damarlar bu mükəmməl tənzimləmə mexanizmi üçün xüsusi yaradılmışdır. Fövqəladə hallarda nə etməli olduqlarını bilir və buna əsasən, çox ağıllı



tədbirlər görürlər. Məsələn, soyuq şəraitdə bədən temperaturu düşür və beyin zərər görür. Ancaq insan damarların bu üstün qabiliyyəti sayəsində şaxtaya davam gətirir. Soyuq havada ayaq və əl barmaqlarındakı damarlar görülən ilk tədbir nəticəsində daralırlar. Bu şəkildə əl və ayaq barmaqlarına qan axını azaldılır və bədəndəki qanın soyumasının qarşısı alınır. Məlumdur ki, əl və ayaqlardakı damarlar səthə yaxındır və buna görə, bədəndəki qanın soyumasına səbəb ola bilərlər. Qanın soyuması isə qan ilə qidalanan ürək və beyinin soyumasına səbəb olur ki, bu da böyük təhlükədir.

Həddindən artıq şaxtalı havada isə bədəninizdəki damarlar sizi donmaqdan, yəni ölümdən xilas etmək üçün barmaqlarınızı fəda edir və bu bölgəyə qan axınını tamamilə dayandırırlar. Eyni anda beyin də xəbər göndərərək əzələlərin bir-birinə toxunaraq titrəməsinə səbəb olur. Bu titrəmə nəticəsində hərəkətə gələn damarlar və qan bədən temperaturunun bir az qalxmasına səbəb olur. Qarlı havada çölə çıxdıqda, şübhəsiz ki, siz də bədəninizdə görülən bu tədbirlərin təsirini dərhal hiss edirsiniz. Soyuğun ilk təsir etdiyi yer əl və ayaqlarınızdır. Bədəninizdə başlayan titrəmə də beyindən gələn əmrin nəticəsidir.

Damarların daralıb-genişlənməsi də, şübhəsiz ki, beyinin nəzarəti altındadır. Beyin müxtəlif sinir hüceyrələri və hormonlar vasitəsilə müvafiq damarlara əmr göndərir. Bu yolla hər toxumanın ehtiyacı müəyyən edilir. Məsələn, psixoloji hal olmasına baxmayaraq, utandıqda sinirlərinizdən gələn siqnallar arteriyaları əhatə edən əzələlərə çatır. Arteriyaların genişlənməsi nəticəsində qan axını artır və üzünüz birdən qızarır.

**O, sizi silkələməsin deyə, yer üzündə möhkəm dağlar və düzgün səmt götürəsiniz deyə, çaylar və yollar yaratdı. Əlamətlər (yaratdı). (İnsanlar) ulduzlar vasitəsilə də (getdikləri) yolu müəyyənləşdirirlər. Heç Yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? (Nəhl surəsi, 15-17)**

Kapilyarlar isə bu işdə ən sərbəst davranan damarlardır. Ehtiyaca əsasən, qan göndərir, lazım gəldikdə qanın verilməsini tamamilə dayandırır. Lazım gəldikdə isə növbəli şəkildə qanın keçməsinə icazə verirlər. Məsələn, siz dincələrkən bir çox kapilyardakı qanın axını dayanır. Ancaq düz bağırsağınızda yeməkdən sonra qanın axını sürətlənir. Normal şəraitdə bədəninizdə bütün kapilyarlarınızı dolduracaq qədər qan yoxdur. Əgər orqanizm bütün kapilyarlarınızı qanla doldursaydı, beyninizə qan getməzdi və



qısa müddətdə huşunuzu itirərdiniz. Bu halın davam etməsi isə beyninizin ölümünə səbəb olardı.

Kapilyarların qan axınını birbaşa tənzimləmə qabiliyyətləri qanın soyumaması və beləcə, bədən temperaturunun sabit qalması baxımından çox əhəmiyyətli xüsusiyyətdir. Soyuq havada, xüsusilə dəriyə yaxın bölgələrdə kapilyarların qan axınını dayandırması burada temperatur itkisinin qarşısını alır.

Bədən temperaturunun normada saxlanılmasına soyuq hava kimi isti hava da təsir edir. Həddindən artıq isti havada bədəndəki damarlar əks metoddan istifadə edirlər. İsti şəraitdə dərinizə yaxın olan qan damarları genişlənir. Qan dərinizə, yəni səthə yaxın yerlərə axır. Buna görə, üzünüz qızarır. Qanın temperaturu dərinizi isidir və bu temperatur dəridən havaya ötürülür. Beləliklə, istiyə baxmayaraq, bədən temperaturunuz normal səviyyədə qalır.

Daha bir çox mühüm xüsusiyyəti olan bu tənzimləmə mexanizmi üzərində ağılla düşünən hər insan mühüm həqiqətin fərqinə varır. Qarşımızda insan ağlının hüdudlarını aşan ağıl, dizayn və qüsursuzluq var. Bütün bunlara açıq şüurla açıqlama axtaran insan Allahın mütləq varlığını və hakimiyyətini dərk edəcəkdir.

Bu mükəmməl xüsusiyyətlər Allahın varlığının hər yerdə olduğunu, Allahın bədənimizdəki ehtişamlı əsərlərini göstərir. Bu açıq həqiqətləri görə bilməyən və ya görmək istəməyən insanlar düşdükləri vəziyyəti axirətdə anlayacaqlar. Onlara göstərilmiş saysız-hesabsız dəlili görməməzliyə vurduqları, hətta gördükləri halda, bütün bunlar üçün başqa açıqlamalar axtardıqları üçün Allah qatında əzablı qarşılığını görə bilərlər. Bilə-bilə inkar edənlər üçün Allah sonsuz cəhənnəm həyatı hazırlamışdır.

Ağılla düşünən hər insan axirət həyatının gerçək olduğunu fikirləşməli və cəhənnəm əzabından qorxmalıdır. Allah inkar edərək axirətə köçənlərin vəziyyətini bir ayədə belə açıqlayır:

**Haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir. (Onlar deyəcəklər:) "Vay halımıza! Biz bundan qafil idik. Üstəlik zalım da olmuşuq!" (Ənbiya surəsi, 97)**

# Quranda Sevgi

Quranda imandan qaynaqlanan və ruhda dərin təsir meydana gətirən sevgiyə diqqət çəkilir. Bu sevgiyə sahib olmaq əmək tələb edir. Fədakarlıq, səbir, cəsarət və diqqət Quranda xəbər verilən sevgi anlayışının tərkibinə daxildir. Rəbbimiz Quranda pisliyə və pis sözə qarşı ən gözəl şəkildə cavab verməyi və insanlara yaxşı davranmağı da sevginin əsası kimi bildirir.

Kimdən soruşursunuz soruşun, insanların əksəriyyəti sevgini və sevməyi çox yaxşı bildiklərini və sevdikləri bir çox insan olduğunu söyləcəklər. Halbuki dünyada sevgini və sevməyi bacaran insanların sayı çox azdır. İnsanların sevgi zənn etdikləri isə həvəs hissidir. Zaman keçdikcə bu duyğunun sevgi olmadığı açıq şəkildə ortaya çıxır. Əsl sevgi Allah sevgisindən qaynaqlanan və Onun razılığı üçün yaşanan, bir çox sınaqdan keçdiyi halda, heç vaxt zədələnməyən, zamana, çətinliklərə, çatışmazlıqlara, yanlışlara səbir edə bilən və daim artan duyğuya verilən addır.

## Pisliyə ən gözəl şəkildə cavab vermək sevginin dəlilidir

Allah Quranda inananlara pisliyə yaxşılıqla cavab verməyi əmr etmişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

Allah möminlərə pisliyə gözəl rəftarla cavab verdikləri təqdirdə böyük nəticə əldə edəcəklərini vəd etmişdir. Hətta qarşılarındakı insanla aralarında düşmənçilik də olsa, bunun dostluq meydana gətirəcəyinə diqqət çəkmişdir. Bu, eyni zamanda, inananların mərhəmət və sevgi anlayışlarının da tələbidir. Qarşı tərəfin Allahın bəyənmədiyi rəftarı göstərdiyini gördükləri zaman, hər şeydən əvvəl, bunun o insanın axirəti baxımından riskli olduğunu düşünərək qürura qapılmadan, ədalətli və təvazökar şəkildə yaxınlaşar, dost üslubundan istifadə edərlər. Quran əxlaqını yaşamayan insanlarda olduğu kimi, "səhv edən, pisliyi edən qarşı tərəfdir, əvvəl o yaxınlaşsın", ya da "nə edirsə etsin" məntiqi ilə hərəkət etməzlər. Gözəl rəftarı kim göstərsə, Allahın o insanın rəftarından məmnun olacağını və pisliyə məruz qaldığı halda, gözəl davranmağın Quran əxlaqına uyğun rəftar olduğunu bilərlər. Bu səbəbdən də təvazökarlığın itki deyil, əksinə, böyük qazanc olduğunu düşünərək hərəkət edərlər.

İman gətirənlər həyatları boyu müxtəlif əxlaqlı insanla qarşılaşa bilərlər. Ancaq heç bir zaman qarşılarındakı insanların rəftarlarına görə öz əxlaqlarını dəyişdirməzlər. Qarşı tərəf istehzalı üslubla danışa bilər, çirkin sözlərdən istifadə edə bilər, hirslənə bilər, pislik və ya düşmənçilik edə bilər. Ancaq mömin əsilzadə, təvazökar, mərhəmətli və sevgi dolu rəftarını heç vaxt dəyişməz. Ona deyilən pis sözə pis sözlə cavab verməz. Lağ edənə lağ etməz, əsəbə əsəblə cavab verməz. İncidici rəftara qarşı, qarşı tərəfi utandıran və gözəl rəftara sövq edən ədalət, mərhəmət və sevgi anlayışı ilə hərəkət edər. Hirslənən insana qarşı sakit və etidallı olar.

Əlbəttə, möminin bu rəftarları tamamilə ağıl çərçivəsində olar. Özünü zərərə

məruz qoyan vəziyyətə salmaz. Nə özünü, nə də digər möminlərin haqsızlığa və ya zərərə uğramasına izn verməz. Amma bir tərəfdən də göstərdiyi gözəl rəftarlarla dinin əmr etdiyi gözəl əxlaqı təbliğ etmiş olar. Allahın bəyəndiyi əxlaqı tətbiq edərək qarşı tərəfi din əxlaqına istiqamətləndirməyə çalışar.

Bunu da unutmaq olmaz ki, qarşı tərəfin pis əxlaq göstərməsi insanın özünün pis əxlaq göstərməsinə səbəb deyil. Hər insan Allaha qarşı etdiklərindən təkbaşına məsuldur. Bundan başqa, pis rəftara qarşı şəfqət, mərhəmət, gözəl əxlaq və sevgi göstərmək Qurana görə üstün əxlaqın göstəricisidir. Çünki mömінin gözəl rəftarı onun Allaha olan bağlılığının gücünü və dərinliyini göstərir. Mömin bu əxlaqı yalnız Allahın razı olması üçün səbirlə tətbiq edir. Quran əxlaqını yaşamaq mövzusunda göstərdikləri bu üstün səbrin əvəzində də Allah onların əcrlərini ikiqat verəcəyini belə bildirir:

**Səbir etdiklərinə görə, onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər. (Qəsəs surəsi, 54)**

## İnsanlarla yaxşı davranmaq sevginin dəlilidir

**Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O saat mütləq gələcəkdir. Odur ki, sən (onları) gözəl tərzdə bağışla. (Hicr surəsi, 85)**

Allah möminlərə gözəl davranmağı və insanlara sevgi ilə yanaşmağı əmr etmişdir. Bu, mömінin Allah qorxusundan və Qurana olan bağlılığından qaynaqlanan sabit əxlaq anlayışıdır. Bu səbəbdən, mömin həyatı boyu bu əxlaqdan əl çəkməz və Allahın razılığını qazanmaq üçün ətrafındakı insanlarla gözəl davranar və sevgi göstərər.

Qarşı tərəfin varlı və ya kasıb, yaşlı və ya uşaq, qadın və ya kişi olmasının heç bir əhəmiyyəti yoxdur. Mömin gözəl rəftarının əvəzini insanlardan və dünyadan bir mənfəət güdmədiyi üçün insanları bu xüsusiyyətlərinə görə qiymətləndirməz. Belə ki, Allah bir ayəsində möminlərə belə bildirmişdir:

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz (kölə və kənizlərə) yaxşılıq edin! Həqiqətən, Allah özünü öyənləri və lovğalıq edənləri sevmir. (Nisa surəsi, 36)**

Mömin hamı ilə gözəl davranar. Ancaq bu, qarşı tərəfin yanlış fikirlərini təsdiq edən və ya yanlışlarına göz yuman bir yaxşılıq anlayışı deyil. Mömin doğru və haqq olan bir mövzuda Allahın göstərdiyi yoldan əsla vaz keçməz. Əgər qarşı tərəfin yanlışı varsa, yenə gözəl rəftarla, mərhəmətlə, sevgi ilə bunu ona göstərməyə çalışar və mütləq doğru olanı izah edər.



## Daim qarşı tərəfin haqlı olduğunu qəbul etmək sevgi əlamətidir

Din əxlaqından uzaq olan insanların gün ərzində qarşılaşdıqları neqativ hadisələrin əksəriyyətində hər iki tərəfin də haqlılıq payı var. Bir insanı tamamilə haqlı, digərini isə tamamilə haqsız kimi dəyərləndirmək doğru deyil. Bəzən iki tərəfin haqlılıq nisbətləri 80-20% olduğu halda, bəzən də bu nisbət 50-50% olur. Belə bir vəziyyətdə hər kəs hadisəyə öz tərəfindən baxar. Bu səbəbdən, bir insan özünü tamamilə haqlı görərkən, digəri də özünü haqlı görər. Bu insanlardan biri üzr istəməyi və haqsızlığın qəbul edilməsini qarşı tərəfdən gözləyərkən, digəri də, eyni şəkildə, qarşısındakının vəziyyəti düzəltməsini gözləyər.

Din əxlaqına görə yaşamayan cəmiy-yətlərdə ən kiçik anlaşılmazlıq belə insanlar arasında dərin narahatlıqlara və soyuqluqlara gətirib çıxarır. Möminlərin fərqi isə məhz bu vəziyyətdə ortaya çıxır. Möminin əhəmiyyətli xüsusiyyəti sevgini və sevməyi çox yaxşı bilməsidir. Mömin dostluqda, vəfada, sədaqətdə, şəfqət və mərhəmətdə, bağışlamada, ədalətdə üstün əxlaqa sahibdir. Mömin sevgisində çox fədakardır. Heç vaxt öz nəfsini sevdiyi insana dəyişməz. Öz rahatlığı, öz mənfəətləri üçün sevdiyini çətin vəziyyətdə qoymaz. Özü haqlı çıxmaq üçün sevdiyini haqsız çıxarmağa çalışmaz. Əksinə, sevdiyi haqsız olsa, o yenə də özünün haqsız olduğunu bildirər. Özü səhvi, əskikliyi, qüsuru boynuna götürər, amma yenə də sevdiyinə qıymaz. Yeganə məqsədi də yalnız Allahın razılığını qazanmaqdır. Çünki möminin sevgisi yalnız Allah sevgisinə söykənir. Sədaqəti də yenə yalnız Allaha olan sədaqətindən qaynaqlanar. Sevdiyi insana olan bağlılığının qaynağı da yalnız budur.

## Sevgi əhəmiyyətli mömin əlamətidir

Hamı həyatı boyu sevgisiz və mərhəmətsiz insanlarla qarşılaşır. Belə insanlar ətraflarında baş verən hadisələrə və hər mövzuya qarşı laqeyddirlər. Şübhəsiz ki, insanları bu sevgisizliyə və mərhəmətsizliyə itələyən şeytandır. Şeytan insanın vicdanlı, ağıllı, təvəkküllü, şükredici, ədalətli, Allahın yaratdıqlarından razı olan, ətrafındakılara gözəl əxlaq göstərən sevgi dolu insan olmasını istəmir. Halbuki Allah insanın fitrətini asanlaşdıran, rahatlandıran, fədakarlıq tələb olunan anda bunu qarşı tərəfə hiss etdirmədən edən, sevgi dolu ruha sahib olaraq yaratmışdır. Allahın yaratdığı bu xüsusiyyəti çox yaxşı mənimsəyən möminlər olduqları hər mühiti gözəlləşdirər və daim müsbət təsir meydana gətirərlər. Bir insanın Allah qorxusundan ətrafındakı insanlara qarşı göstərdiyi müsbət, tamamlayıcı, rahatlandırıcı, mehriban xarakter çox gözəl bir mömin əlamətidir. Allah Quranda sevgi nemətini iman edənlər üçün yaratdığını belə bildirir:



**İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

Möminlərin insanlara qarşı ürəklərində hiss etdikləri sevginin əsl qaynağı Allaha duyduqları sevgidir. Bir insana duyulan qəlbdəki coşğunu Allahın yaratdığını və hər şeydə Allahın təcəlli etdiyini bilmək insana sevgidəki dərinliyi verən əsl səbəbdir. Səmimi sevgidə insan hər an sevdiyi insanlara bu duyğularını daha əvvəl heç istifadə etmədiyi, bir-birindən təsiredici, bir-birindən gözəl sözlərlə ifadə edə bilər. Hər biri əvvəlkindən fərqli olar. Çünki insan bu coşğunu ürəyində hər an yaşayır.

## Adnan Oktar Quranda təsvir edilən sevgini izah edir

ADNAN OKTAR: Quranda sevginin zəmini bizə izah edilir. Sevmək üçün səbir lazımdır, fədakarlıq lazımdır, cəsarət lazımdır, diqqət lazımdır. Eqoist insan sevgini yaşaya bilməz. Eqoist insan mütləq sevgini itirər. Səbirli olmayan sevgini itirər, bağışlayıcı olmayan sevgini itirər. Yəni sevgi durduğu yerdə meydana gəlməz, mütləq əmək sərf edilməli, diqqət göstərilməlidir. Yəni necə çiçəyi qoruyursan, onu qoruyan kimi sevgini də qorumaq lazımdır. Bir insanın qaşına-gözünə aşiq olunmaz, qaşı-gözü dəyişə bilər, xəstələnə bilər, yaşlana bilər, hər şəklə düşə bilər. Var-dövləti də gedə bilər, amma imanı və əxlaqı, yəni imandan qaynaqlanan əxlaqı qalıcıdır, bu da ruha dərin təsir edər. Ondan ötrü biz insanı sevərik. Yoxsa sırf ət-sümükdən ibarət olan bir insan sevilməz. Çünki insanın dərisini qaldırsan, bir millimetrin altı qıpqırmızı qandır, dərinin altı qıpqırmızıdır, qırmızı ət çıxar, yağ çıxar, başqa bir şey qalmaz. Bu səbəbdən, bəyənilən bir yeri qalmaz insanın. (14 iyun 2011, A9 TV)

Allah insanı digər varlıqlardan fərqli olaraq ruh sahibi olaraq yaratmışdır. Bu səbəbdən, digər varlıqlardan fərqli olaraq, bir insanın ruhundakı zənginliklə qarşı tərəfdə meydana gətirəcəyi təsir də fərqlidir. Hər insan ruhunun gözəlliyi nisbətində sevgini yaşayar. Onda nə qədər çox seviləcək və hörmət ediləcək xüsusiyyət varsa, insanlar onu bu nisbətdə sevərlər. Eyni şəkildə, öz ruhunda da bir insandakı sevilib hörmət ediləcək xüsusiyyətlərə qarşı nə qədər həssaslıq varsa, o da insanlardakı gözəllikləri o nisbətdə görüb, onlara o nisbətdə sevgi və hörmət bəsləyə bilər.



# İNSAN RUHU HAQQINDA BİLMƏDİKLƏRİNİZ

## RUH ALLAHIN VARLIĞININ VƏ İNSANIN YARADILIŞININ DƏLİLLƏRİNDƏN BİRİDİR

Bu məqalədə materialistlərin ruhun varlığı ilə bağlı düşdüyü çıxılmaz vəziyyəti üzə çıxaracaq, Allahın üstün yaratma sənətinin təzahürlərindən olan ruh haqqında Quranda xəbər verilən həqiqətlərə və İslam alimlərinin izahlarına yer verəcəyik.

Allahın varlığını inkar edən materialist düşüncəyə ən böyük zərbəni vuran, materialistlərin düşünməkdən və haqqında danışmaqdan ən çox çəkindikləri mövzu ruhdur. Çünki ruh Allahın varlığının və insanın yaradılışının açıq dəlillərindən biridir.

## Materialistlər ruhun mənbəyini nə üçün izah edə bilmirlər?

Allahın varlığını və canlıların yaradılışını inkar edən materialist fəlsəfə insanın ruhuna aid xüsusiyyətlərin mənbəyini əsla açıqlaya bilməz. Çünki materialist fəlsəfə ancaq maddənin varlığını qəbul edir. Materialistlər maddədən başqa bütün varlıqları inkar etdikləri üçün ruhun varlığını qəbul etməməkdə israr edirlər. Ona görə, insan şüurunu beyini təşkil edən maddələrlə izah etməyə çalışırlar. Bunun üçün əsas fərziyyələri "mütəşəkkil maddə" anlayışıdır. Bu anlayışa görə, beyində neyronlar arasındakı rabitələr "insana şüur qazandırır". Bu neyronlar arasındakı kimyəvi və elektrik rabitələrinin "mənlik" dediyimiz şüurumuzu əmələ gətirdiyini iddia edirlər. Materialist elm adamlarından olan Frensis Krik bu məntiqsiz materialist iddianı belə xülasə edir:

"Sevinciniz, kədəriniz, xatirələriniz və istəkləriniz, şəxsi hissləriniz və iradəniz, əslində, çox sayda sinir hüceyrəsinin və onlara bağlı olan molekulların birlikdə həyata keçirdiyi hərəkətlərdən başqa bir şey deyil". (John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , New York:Free Press, 1999, səh. 258-259)

Halbuki bu nə elmi, nə də məntiqi cəhətdən doğru deyil. Materialistləri insan ruhuna aid xüsusiyyətləri bu cür izah etməyə vadar edən onların materialist ön mühakimələridir. Maddənin fövqündə olan bir varlığın mövcud olduğunu qəbul etməmək üçün insan zehnini maddə ilə izah etməyə çalışır və bu



məqsədlə ağıla və məntiqə sığmayan iddialar irəli sürürlər.

Lakin xüsusilə XX əsrin sonlarında əldə olunan bəzi nailiyyətlər insan şüurunun əsla maddə ilə məhdudlaşmadığını, maddənin fövqündə reallığın var olduğunu aşkar etmişdir. Amerikalı filosof və riyaziyyatçı Dr. Uilyam A. Dembski "Maddəni zehnə çevirmək" (Converting Matter into Mind) adlı məqaləsində insan beynindəki neyronlorın biokimyəvi funksiyasının məlum olduğunu və bunun hansı zehni fəaliyyətlərlə əlaqədar olduğunun müəyyən edildiyini bildirmişdir. Lakin buna baxmayaraq, qərar vermək, istəmək, düşünmək kimi xüsusiyyətlərin "maddə ilə məhdudlaşmadığını" və şüuru tədqiq edən mütəxəssislərin bu məhdudlaşdırmanın yanlış olduğunu gördüklərini açıqlamışdır:

***... Şüuru tədqiq edən mütəxəssislər bu faktı (şüuru) neyroloji səviyyədə anlamaqdan ümidlərini kəsiblər... Materializmə olan bağlılıq davam etsə də, insan ağlını neyron səviyyəsində açıqlamaq ümidi artıq ciddi düşüncə deyil... (William A. Dembski, Converting Matter into Mind, 1998)***

İnsanların düşüncələrinin, mühakimə bacarıqlarının, qərar vermə mexanizmlərinin, sevinc, həyəcan, ümidsizlik kimi hisslərinin beyinlərindəki neyronların bir-birilə qarşılıqlı əlaqəsi olduğunu irəli sürmək olduqca məntiqsiz iddiadır. Materialistlər bu mövzu üzərində səmimi düşünsələr, özlərinin də, digər bütün insanların da neyron yumağından və ya atom yığınından daha fərqli varlıqlar olduğunu qavrayacaqlar. Beyin mütəxəssisi Uolf Sinqer materialist olmasına baxmayaraq, üzləşdiyi bu həqiqəti belə ifadə etmişdir:

Kainatın bu mürəkkəb maddəsində özünü "Mən" kimi qavrayan bir "şey" var. (Cumhuriyet Bilim Teknik Dergisi, 7 Temmuz 2001, sayı 746, səh. 18; DerSpiegel, 1/2001, Nilgün Özbaşaran Dede)

## Görən kimdir?

Dövrümüzdə elmi nailiyyətlər göstərir ki, xarici aləmdəki maddi dünya ilə təmasda olmaq qeyri-mümkündür. Beynimizdə təmasda



olduğumuz bütün cisimlər xaric aləmdə mövcud olanların əsli deyil, onların əksi kimi görmə, eşitmə, toxunma hissələrinin məcmusundan ibarətdir. Duyğu mərkəzlərindəki məlumatları şərh edən beynimiz həyatımız boyu maddənin xarici aləmdəki "əsli" ilə deyil, beynimizdəki surətləri ilə təmasda olur. Biz isə bu surətləri xarici aləmdəki gerçək maddə zənn edərək yanılırıq. Əlinizdəki jurnal, oturduğunuz otaq, qarşınızdakı bütün görüntülər, əslində, beyninizin içində görünür. Bəs bu görüntüləri beyninizin içində görən kimdir? Beyninizin içində gözə ehtiyacı olmadan bu jurnalın görüntüsünü görən, gördüklərini anlayan, oxuduqlarından təsirlənən, bunlar üzərində düşünən kimdir? Beyinə gedən elektrik siqnallarını qulağa ehtiyacı olmadan dostunun səsi və ya ən sevdiyi mahnı kimi dinləyən, dinlədiklərindən zövq alan kimdir? Hiss etdikləri ilə düşünən, sevinən, kədərlənən, həyəcanlanan varlıq zülal və yağlardan ibarət beyin ola bilərmi? Bu suallar üzərində düşünən insan şüurlu şəkildə görən, eşidən və hiss edən varlığın fövqəltəbii varlıq olduğunu dərhal anlayar. Bu varlıq ruhdur.

Yeganə mütləq varlığın maddə olduğunu iddia edən, insan şüurunun da ancaq beyindəki kimyəvi hadisələrin nəticəsi olduğunu zənn edən materialist düşüncə bu məsələdə çıxılmaz vəziyyətə düşür. Bunu görmək üçün hər hansı bir materialistdən soruşa bilərsiniz: "Görüntü beynimizdə əmələ gəlir, bəs bu görüntünü beynimizdə kim seyr edir? Hal-hazırda yanınızda olmayan qonşunuzu təsəvvür edin. Onu təsəvvürünüzdə aydın görürsünüz. Geyindiyi paltar, üzündəki cizgiləri, saçlarındakı ağ telləri, səs tonunu, danışıq üslubunu, yerişini xəyalınızda aydın canlandırdığınız bu insanı kim seyr edir?"

Bu və buna bənzər sualları materialistlərdən soruşduqda heç bir cavab almayacaqsınız. Çünki bu sualların yeganə cavabı Allahın insana verdiyi ruhdur.

## Ruhun əsl mənbəyi nədir?

Bu sualın cavabını bizə verən mənbə Qurandır. Allah Quranda əvvəlcə insanın bədənini yaratdığını, sonra da ona ruhundan üfürdüyünü belə bildirmişdir:

**Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, (toxunduqda saxsı kimi) səs çıxaran quru gildən insan yaradacağam! Mən ona biçim verib Öz**



ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 28-29)

**Sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 9)**

Yuxarıdakı ayələrdən də məlum olduğu kimi, ruhun mənbəyində Allahın Öz ruhu var. Allahın insana verdiyi ruh sayəsində insan öz varlığını dərk edən və: "Mən mənəm", - deyən varlıq olmuşdur. İnsan bu ruh ilə düşünən, danışan, sevinən, qərar verən, sivilizasiyalar quran, ölkələri idarə edən varlıqdır. Ağıl və vicdan sahibi hər insan həyatı boyu yaşadığı hər hadisəni beyninin içindəki ekranda seyr edən varlığın ruhu olduğunu dərhal anlayar.

## GÖRÜNTÜLƏRI RUHUMUZA SEYR ETDIRƏN KIMDIR?

Bizim xarici aləm kimi seyr etdiyimiz görüntülər ancaq Allahın bizim üçün yaratdığı xüsusi görüntülərdir. Əslində, xarici aləmin əsli ilə heç vaxt təmasda ola bilmərik. Gördüyü görüntüdən həyəcanlanan, sevinən, kədərlənən, narahat olan ruhdur. Bizə hər şeyi seyr etdirən üstün elm sahibi Allahdır. Ruhumuz beynimizdə əmələ gələn görüntüləri seyr edir. Allah bu şəkildə bizim üçün dünya həyatını yaradır və bizi imtahan edir.

Allah dünya kimi qavradığımız görüntüləri müəyyən hikmət və elmlə ruh adlandırdığımız varlığa hiss etdirir. Allah bizə istədiyi görüntüləri göstərdikcə biz heç fərqinə varmadan hadisələrə reaksiya veririk, halbuki biz ruh və ruhun seyr etdiklərindən başqa xarici aləm ilə təmasda olmuruq.

## RUHUN VARLIĞI NƏYI SÜBUT EDIR?

Ruhun varlığı yaradılışın sübutudur. Ruh və ruha aid xüsusiyyətlər təkamül nəzəriyyəsinin təsadüf doqması ilə və ya materialist fəlsəfənin mütəşəkkil maddə iddiası ilə açıqlana bilməz. Neyronlar və onları təşkil edən atomlar düşünə, qərar verə, fəlsəfi fikirlər



irəli sürə bilməz, sevgi, şəfqət hissini yaşaya bilməzlər. Yeganə mütləq varlıq olan Allah bütün canlılarla birlikdə kainatı yaratmış və hər an yaratmaqdadır. İnsanı insan edən xüsusiyyət Allahın insana verdiyi ruhdur. Hər insan onun üçün əvvəlcədən müəyyən edilmiş əcəl vaxtı çatdıqda ruhunu yenə Allaha təslim edəcək və dünyadakı həyatı sona çatacaq. Ruh isə axirətdəki əbədi həyatına davam edəcək.

Qapqaranlıq beynimizin içində işıqlı, rəngarəng, aydın, kölgəli görüntüləri, elektrik siqnallarından ibarət kiçik bir yerdə böyük dünyanı əmələ gətirən beyin ola bilərmi? Beyin zülallardan və yağdan ibarət qırışlı ət parçasıdır. Bu cür ət parçası ən qabaqcıl texnologiya ilə istehsal edilmiş televizorlardan daha aydın, çox canlı rəngləri olan qüsursuz görüntü əmələ gətirə bilərmi? Ət parçasının üzərində bu qədər keyfiyyətli görüntü əmələ gələ bilərmi? Bu ət parçası ən qabaqcıl musiqi mərkəzindən daha keyfiyyətli, aydın stereo səs meydana gətirə bilərmi? Təqribən 1.5 kq çəkisi olan bir ət parçasının öz-özünə bu qədər qüsursuz hisslər əmələ gətirməsi, əlbəttə, qeyri-mümkündür. Bəs ruhumuza bu görüntüləri göstərən, ona əsli kimi aydın görüntü və hisslərlə həyat yaşadan, bu görüntüləri fasiləsiz davam etdirən kimdir?

Ruhumuza bütün görüntüləri göstərən, bütün səsləri eşitdirən, ruhumuzun zövq alması üçün dadları və qoxuları yaradan bütün aləmlərin Rəbbi, hər şeyin yaradanı olan Allahdır.

## Materialistlər ruhun varlığını inkar etmək üçün nəyə əsaslanırlar?

Materialistlər ruhun varlığını inkar etmək üçün təkamül nəzəriyyəsinə əsaslanırlar. Darvinizmin batil iddialarına əsasən, insan heyvan növüdür. Bu ağıldan və elmdənkənar iddiaya aldananlar da insanın bütün xüsusiyyətlərinin "heyvan əcdadlarından" miras qaldığını irəli sürürlər. Bu isə insanın özünə və digərlərinə qarşı mənfi düşüncə tərzinin formalaşmasına gətirib çıxarır. İnsan heyvan növü hesab etdiyi digər insanlara dəyər vermir, onların düşüncələrinə əhəmiyyət vermir, həyatlarını dəyərsiz hesab edir. Darvinizmin gətirdiyi bu qorxunc düşüncə tərzi böyük müharibələrə, zülmə, kütləvi qırğınlara, vəfasızlıq, sevgisizlik və laqeydliyə səbəb olur.

Halbuki insanda Allahın ruhu var. Bu ruh ilə ağıla, iradəyə, vicdana, dərrakəyə, doğrunu yanlışdan ayırma anlayışına malik olur, bu ruh ilə düşünür, qərar verir, mühakimə edir, başına



gələnlərdən ibrət alır.

İnsanın ruhu Allahın dünyada yaratdığı imtahana tabedir. Bu xüsusiyyətlərdən heç biri digər canlılarda yoxdur və ola da bilməz. Çünki bunlar insanın fiziki quruluşu, genləri ilə bağlı xüsusiyyətlər deyil. Bütün bunlar insanın ruhuna aid xüsusiyyətlərdir. Ona görə, darvinizmin iddiası əsassızdır. "Mütləq maddə" anlayışına əsaslanan darvinizm ruhun varlığını açıqlaya bilmir. Darvinizm inkaredilməz həqiqət olan "insana aid mənliyi" görür, lakin bunun maddi qarşılığını axtarıb tapa bilmir. Şübhəsiz ki, tapa da bilməz, çünki ruh heç bir maddi anlayışla bağlı deyil. Elə isə ağıl sahibi olan insan bu həqiqəti hiss etməli, buna görə də şərəfli, iradəli və vicdanına uyğun yaşamalıdır.

## Quranda ruh anlayışı

"Ruh" anlayışı həyat, idrak və hərəkətin mənbəyi, mənəvi varlıq, vəhy, Allah kəlamı, Qurani-kərim, qüvvət, vəhy mələyi, Cəbrail (ə.s.), hiss, duyğu və buna bənzər mənalar üçün istifadə edilir (Raşid el-İsfahânî, el-Müfredât) Garibil-Kur'ân, Mısır 1961, "ruh" md.). Ruh sözü Quranda bir neçə yerdə işlədilir və müxtəlif mənalar ifadə edir:

1) Allah hz. Adəmi torpaqdan yaratdıqdan sonra ona Öz ruhundan üfürmüş və beləliklə, hz. Adəm həyat qazanmışdır. Allah insanı ana bətnində yaratdıqdan sonra da ona Öz ruhundan üfürmüş və onu ruh sahibi etmişdir. Bu, ayələrdə belə xəbər verilir:

**Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" (Sad surəsi, 71-72)**

2) Ruh sözü Quranda "Ruhul-Qudüs" və ya "Ruhül-Əmin" şəklində Cəbrail (ə.s.) haqqında da işlədilmişdir.

Ruhül-Qudüs anlayışı Quranda dörd yerdə işlədilir:

**Biz Musaya Kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruhla qüvvətləndirdik… (Bəqərə surəsi, 87)**



**Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir. Biz Məryəm oğlu İsaya açıq-aydın dəlillər verdik və onu müqəddəs ruh ilə qüvvətləndirdik… (Bəqərə surəsi, 253)**

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim… (Maidə surəsi, 110)**

**De: "Müqəddəs ruh onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstərən rəhbər və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir". (Nəhl surəsi, 102)**

Ruhül-Qudüs "ruh" və "qudüs" sözlərindən əmələ gəlib. "Qudüs" sözü "qüds" kökündəndir və "müqəddəs, mübarək" mənalarını verir. Ruhül-Qudüs "hər hansı kir ilə ləkələnmə ehtimalı olmayan, müqəddəs və təmiz ruh, vəhy mələyi, Cəbrail" deməkdir. (Elmalılı Hamdi Yazır, Hak Dini Kur'ân Dili, V, 3125)

Ruhül-əmin də Ruhül-Qudüs sözü ilə eyni mənanı daşıyır. Quranda ancaq bir ayədə işlədilir:

**Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir. Onu Cəbrail (Ruhul-əmin) endirdi. (Şuəra surəsi, 192-193)**

3) Ruh sözü Allahın vəhyini, başqa sözlə, ayələri ifadə edir (ən doğrusunu Allah bilir).

**(Allah) Öz hökmü ilə qullarından istədiyi kimsəyə mələkləri ruh ilə göndərib buyurur: "(Qullarımı) qorxudub xəbərdar edin ki, Məndən başqa ilah yoxdur. Məndən qorxun!" (Nəhl surəsi, 2)**

"Ruh"un əsl mənasını isə Allahdan başqa kimsə bilməz. Çünki bu xüsus Allah tərəfindən belə xəbər verilmişdir:

**"Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir". (İsra surəsi, 85)**

# Fosillər Təkamülü TƏKZİB EDİR



### SUİTİ KƏLLƏ SÜMÜYÜ

Yaşı: 48 milyon il
Dövr: Eosen
Bölgə: Quanq Xi, Çin

Suitilərinin böyük göz çuxurları, xüsusi burun sistemləri var. Bu canlının 48 milyon il əvvəl də dövrümüzdəki ilə eyni olduğunu, milyon illər ərzində heç dəyişmədiyini görmək yaradılış gerçəyini göstərən böyük dəlildir. Belə ki, canlının fosili hərtərəfli təhlil edildikdə dövrümüzdəki suitilərinin 48 milyon il əvvəl də mövcud olduğunu, dənizdə yaşadığını görürük. Bu və bunun kimi saysız-hesabsız dəlil təkamül nəzəriyyəsinin tarixin tozlu səhifələrinə gömüldüyünü göstərir.



### VAŞAQ KƏLLƏ SÜMÜYÜ

Yaşı: 65 milyon il
Dövr: Paleosen
Bölgə: Ma Linq dağı, Çin

65 milyon illik bu kəllə sümüyü fosilində canlının dişləri də daxil olmaqla, bütün mühüm xüsusiyyətlər görünür.

Allahın yaratdığı qüsursuz kainat yaradılış möcüzələrilə doludur. Burada yaradılmış hər gözəllik Allahın üstün ağlının və sənətinin təcəllisidir. Allah yoxdan yaradır və Onun yaratmasında sərhəd yoxdur.



### AĞ PƏLƏNG KƏLLƏ SÜMÜYÜ

Yaşı: 32 milyon il
Dövr: Oliqosen
Bölgə: Donq Bey, Çin

Darvinistlər elmi faktları ört-basdır edə bilməzlər. Təkamül prosesi baş verməmişdir. Təkamülün saxta ilahı olan təsadüf xaos əfsanəsinin məhsuludur. Ağlı, şüuru yoxdur, görə, eşidə, düşünə, tədbir görə bilməz, sənətkarlıq və estetik gücü yoxdur. Belə bir sistem görən, eşidən, tədbir görən, hiss edən, ağıl və şüur ilə yaradılan, sənətkarlıq və estetika nümunəsi olan canlı varlıqları meydana gətirə bilməz. Milyonlarla illik fosillər bu darvinist yalanı təkzib edir. Fosil qeydlərindəki canlılar yaradıldıqlarını elan edirlər. Bunlardan biri də 32 milyon il əvvəl yaşamış və dövrümüzdəki növdaşlarından heç bir fərqi olmayan ağ pələng kəllə sümüyüdür.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.

# HƏR İNSAN TƏKBAŞINA MÜHAKİMƏ OLUNACAQ



Nəfs, əsasən, məsuliyyəti başqasına yükləməyə, səhvi başqasında görməyə meyillidir. Nəfsinə tabe olan insanın başına sıxıntılı və ya narahatlıq verən bir iş gəldikdə səbəbini daima başqalarında görür. İş yerində, dostları ilə münasibətlərində, ailədaxili məsələlərdə, yəni insanların bir-birlərilə ünsiyyət zamanı baş verən anlaşılmazlıqlarda daima qarşı tərəfin ucbatından problem çıxdığına inanırlar. Nəfs insana, əslində, çox yaxşı niyyəti olduğunu, ancaq ona haqsızlıq edildiyini düşündürür. Nəfsə qulaq asdıqda insan bu təlqinlərlə özünü daima aldadır. Onu heç cür anlamadıqlarını, dediklərini, düşüncələrini, niyyətini ifadə edə bilmədiyini düşünür, bu inancla öz səhvlərini, çatışmayan cəhətlərini görə bilmir. Ona görə də bu səhvlərini düzəltmə imkanı olmur.

Haqsızlığa məruz qaldığına və problemlərin səbəbkarının daima başqaları olduğuna özünü inandırmış insan hadisələri də səthi qavrayıb dəyərləndirir. Habelə çox vaxt qəfil, düşüncəsiz, həssas və Quran əxlaqına zidd reaksiyalar verir. Düşdüyü vəziyyəti ağıllı, məntiqli dəyərləndirə bilmədiyi üçün qarşısındakını və ətrafındakıları da ittiham edir. Həm özünə, həm də yaxınlarına mənfi təsir edir. Daima qarşısındakıları təqsirləndirən, ağılla düşünməyən, haqsızlığa məruz qaldığına inanmış, hətta bunu adət halına çevirmiş insanın ətrafındakılara müsbət, gözəl, sevgi ilə yanaşması, bunu səmimi hiss etdirməsi də qeyri-mümkün olur. Hətta bu cür düşünən insan danışmasa belə, ətrafına mənfi enerji yayır.

Əgər bir insan Quran əxlaqına uyğun yaşamırsa və dərin imana sahib deyilsə, əlində buna dair heç bir məlumatı olmasa da, bu dünyada uzun ömür sürəcəyini zənn edir. Ətrafında ölümə dair yüzlərlə nümunə görsə də, imtahanın sirrinə müvafiq olaraq ətrafda ona bu açıq həqiqəti unutduran və onu qəflətə sürükləyən bir çox detal var. Halbuki dünya Allah tərəfindən hər fərd üçün ayrı-ayrılıqda şəxslərə xas qədərlə yaradılmışdır. Uzunömürlü insanların olması həmin şəxsin özünün də uzun illər yaşayacağına əsas deyil. Hər kəsin qədəri fərqlidir. Hər kəsin yeganə labüd sonu var. Hər kəs əzəli və əbədi, diri və Qaim olan Rəbbimizə qovuşacaq. Hər

kəs ancaq öz qədərində müəyyən edilənlərə əsasən, başqalarından asılı olmadan, ancaq özünəməxsus qədəri ilə imtahan olunur. Ona görə, “ancaq mən yaxşı davrandım”, “güzəştə getdim”, “səbir edib haqqımdan keçdim”, “bir az da qarşı tərəf etsin” kimi səthi məntiqlə insan niyyətini dəyişməməlidir. Müsəlman hər şəraitdə Allaha təvəkkül edər, Allah üçün səbir edər və bunu ömür boyu şövqlə edər, əsla gözəl əxlaqdan əl çəkməz. Hər an Allah rizası üçün gözəl davranar. Allahın hüzuruna tək çıxacağını, tək sorğu-sual ediləcəyini unutmaz. Onun günahını heç kim boynuna götürməyəcək və yaxud heç kim onun Allah rizası üçün etdiyi əməllərə şərik çıxmayacaq. Niyyətinə görə ancaq özü əməllərinin məsuliyyətini daşıyacaq.

**Heç bir günahkar başqasının günahını daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün (başqasını köməyə) çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz. Sən ancaq Rəbbindən (Onu) görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim (günahlardan) təmizlənirsə, özü üçün təmizlənmiş olur. Axır dönüş ancaq Allahadır. (Fatir surəsi, 18)**

Bununla yanaşı, insan öz-özünə ədaləti təmin edə bilməz, ancaq Allahın ədalət anlayışı ilə hər şeyi dəyərləndirməlidir. Hadisələrin Allahın təqdirindən uzaq (Allahı tənzih edirik), təsadüfən baş verdiyini düşünən insanlar, adətən, ədaləti özləri bərpa etməyə meyilli olurlar. Bu, əslində, həmin insanın qəflətdə olduğunu göstərir. Belə bir insan təvəkküldən, İslam əxlaqından çox uzaqdır. Təvəkkül və qədərə iman isə Allaha tam güvənməyi, tam təslim olmağı tələb edir. Əks təqdirdə, insan həm çox sıxıntılı yaşayar, həm də dəyərsiz varlığa çevrilər. Sınandığını, imtahan edildiyini unutmuş, axirətdə cənnətə layiq olmaq üçün imtahan edildiyindən bixəbər, ağılsız, sevginin, sədaqətin, vəfanın dəyərini bilməyən, sanki bütün insani xüsusiyyətlərini itirmiş vəziyyətə düşər.

Çünki təvəkkülsüzlük insanı ancaq nəfsin əsəri olan məntiqə yönəldir, ədalətdən uzaqlaşdırır. Qəzəbini cilovlamayıb başqalarına haqsızlıq etməsinə, məsələni nəfsi ilə dəyərləndirdiyi üçün kiçik məsələni böyütməsinə, asanlıqla bağlanacaq mövzunu böyük məsələyə çevirməsinə səbəb ola bilər. Çətin vəziyyətlə qarşılaşdıqda nəfs insanı ani hissləri ilə davranmağa yönəldə bilər. Nəfsdə qəzəblənmə, qarşı tərəfə əsəbi halda izah etmə, kədərlənmə, mübahisə etmə kimi meyillər ola bilər. Şeytanla eyni cəbhədə yer alan nəfs insanı ağılla düşünməkdən uzaqlaşdırır.

Halbuki vicdan, ağıl və Allah qorxusu ilə insan özünü doğru idarə edə bilir. Nəfsdə bu cür hisslər olsa da, nəfsin istəklərinə tabe olmaq olmaz. Allah qorxusu olan insanla Allah qorxusundan məhrum insan arasındakı fərqlər bu zaman üzə çıxır. Allah “Ali-İmran” surəsinin 134-cü ayəsində belə buyurmuşdur:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 134)**

İmanlı insan Allahdan qorxduğuna görə, ağılla hərəkət edər. Müsəlman onu mənəvi cəhətdən kirlədən nəfsinin oyunlarından uzaq durar, bir az düşünər və dərhal gözəl, doğru olanı seçər. Çünki əks təqdirdə, nə maddi, nə də mənəvi heç bir qazancı olmaz. Nəfsə tabe olmaq axirətdə də, dünyada da itkiyə səbəb olar. Digər tərəfdən, qədəri düşünərək təvəkkül edib Quran əxlaqına uyğun hərəkət edən insan mənəvi cəhətdən getdikcə yüksələr, imanı getdikcə güclənər.

Heç kim unutmamalıdır ki, hər kəs öz əməllərinə görə məsuliyyət daşıyacaq. Ətrafdakı bəzi insanların qəflət içində etdiyi hərəkətlər insanın mənfi davranması üçün əsla bəhanə ola bilməz. İnsan seçimini özü edir. Mömin hər cür şəraitdə Qurana uyğun danışacaq, kamil davranacaq gücə malikdir.

# Allah hər hadisəni İSLAM ƏXLAQINI DÜNYAYA HAKİM ETMƏK ÜÇÜN XÜSUSİ OLARAQ YARADIR

İslam dünyasının yerləşdiyi ərazi qərbdə Afrikanın Atlantik okeanı sahillərində yerləşən Mərakeş və Mavritaniyaya, şərqdə isə Sakit okeanı sahillərindəki İndoneziyaya qədər uzanır. Bu böyük ərazidə yaşayanların təxminən 1,5 milyard olan müsəlman əhalisi son iki əsrdə sırf müsəlman olduqları üçün müxtəlif hücum, təzyiq, terror və hətta qırğınlara məruz qalmışdır. Çünki bir çox müsəlman müsəlman olmayan və ya müsəlman olduğunu söylədiyi halda, aldığı darvinist-materialist təhsil səbəbilə İslam əxlaqından uzaq bəzi rəhbərlərin hakimiyyəti altında yaşamaq məcburiyyətindədir. Ancaq İslam dünyasının yaşadığı bu mənfi kimi görünən hadisələri və çətinlikləri Allah İslam dinini dünyaya hakim etmək üçün hikmətlə yaratmışdır.

**"Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir. (Saff surəsi, 4)"** ayəsində xəbər verildiyi kimi, Allah Quranda müsəlmanları bir millət, bir birlik kimi qəbul edir. Dünyanın istənilən yerində bir müsəlmana zərər gəldiyi zaman ayənin hökmünə əsasən, bütün müsəlmanlar birləşməlidirlər. Bu, fərz olan Quran ayəsidir. Həmçinin bu ayə müsəlmanların birləşməsinin və ittihadi-İslamın əhəmiyyətinə də diqqət çəkir.

Müsəlmanlar darvinizm və materializmin verdiyi zərərlərin qarşısını almaq məqsədilə bir-birləri ilə birləşəndə Allahın izni ilə yer üzündən fitnə qalxacaq. Allah bir ayədə müsəlmanların birləşmədiklərində yer üzündə böyük fitnə olacağını belə bildirir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

Unutmaq olmaz ki, Allahın müsəlmanların birləşmələrini əmr etdiyi ayələr namaz qılmaq və ya oruc tutmaq barəsindəki ayələr qədər açıqdır. Bu ayələrdə (Allahı tənzih edirik) Allah "bir qisminiz namaz qılın, bir qisminiz qılmayın" və ya "bir qisminiz oruc



tutun, bir qisminiz tutmayın" şəklində əmr etmir. Ayələr bütün müsəlmanlara aiddir. "Birləşin" əmri də bu şəkildə bütün müsəlmanlar üçündür. Üstəlik, Allahın "Birləşin" əmri yalnız müsəlmanlara qarşı edilən zülm və təzyiqləri əhatə etmir, müsəlmanlar öz ölkələrində yaşayan xristian və yəhudiləri, hətta müşrikləri də qorumaqla mükəlləfdirlər. Bu həqiqət ayədə belə bildirilir:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir camaatdır. (Tövbə surəsi, 6)**

Bəzi insanlar və müsəlman ölkələrin bir qismi Allahın bu əmrini anlamazlıqdan gəlirlər. Halbuki Allah müsəlmanların cümə namazları, təravih namazları, iftar yığıncaqları və dini bayramlarda qıldıqları namazlarda olduğu kimi, həmişə birlikdə hərəkət etmələrindən razı olur. Çox az sayda müsəlmanın yoxsullara kömək etmək üçün təşkil etdiyi kiçik maddi yardımlar və ya bəzi ölkələrin zülmdən qaçanları mühacir kimi qəbul etmələri problemləri kökündən həll etmir. Problemlərə bu cür yanaşma tərzi çox səthidir və nəticəsi yoxdur. Ancaq Türk-İslam Birliyi meydana gəlsə, problemlər kökündən həll edilər. Allah problemlərin kökündən həll edilməsinin lazım olduğunu bir ayədə çox açıq şəkildə bildirir:

**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər (şirkə) son qoysalar, (bilsinlər ki,) Allah onların etdiklərini görür. (Ənfal surəsi, 39)**

Allah insanlara zülm etməz, O, həmişə qullarının yaxşılığını istəyər. Müsəlmanlara qarşı hücumların təşkil edilməsi, təzyiq, şiddət və zülmün artması xüsusi hikmətlə yaradılmış hadisələrdir. Çünki bu cür hadisələr müsəlmanların hamiyəti-İslamın (İslamı qorumaq arzusu) artmasına səbəb olar. Əgər Allah bu cür hadisələr yaratmazsa, insanlar böyük ətalətə düşər. Çünki Allah insanların nəfslərini imtahan etmək üçün tənbəlliyə, eqoizmə, xəsisliyə meyilli yaratmışdır. Lakin müsəlmanlar şəhid edildiyində, xüsusilə qadınlara, uşaqlara və yaşlılara qarşı zorakılıq tətbiq olunduqda müsəlmanların hamiyəti-İslamı coşur. Hamiyəti-İslamın coşmasının səbəbi Allahın insan ruhunda qoruma hissini yaratmasıdır. Zəif, məzlum, fiziki cəhətdən gücsüz insanların əziyyət çəkməsi, özünü müdafiə edə bilməyən insanların şəhid edilməsi, onlara əzab verilməsi vicdanlı insanları qəzəbləndirir. Bu da haqsızlığa qarşı birləşmək istəyini qüvvətləndirir.

Allah gücsüz və zəif insanlara edilən əziyyətin müsəlmanlarda meydana gətirəcəyi təsiri bir ayədə belə bildirmişdir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**



Allah bu təzyiq, zülm və işgəncələri qullarını sınamaq üçün xüsusi olaraq yaradır. Əslində, Allahın bu cür imtahanlara ehtiyacı yoxdur. Çünki qullarının etdiklərini və edəcəklərini yaradan Allahdır. Allah sonsuz qısa zaman içində, yəni bir anda, sonsuz uzun zamanı yaratmış və hər şey bu qısa zaman içində nəticələnmişdir. Cənnətdə qulların: "Mən mübarizə apardım, Allah yolunda cəhd göstərdim, çətinliklərə dözdüm, əzab çəkdim, Allah üçün hər cür fədakarlığı etdim, səbir etdim, comərdlik etdim", - deməsi üçün bu hadisələri yaradır. Əvvəl İslam dünyasında çətinliklər, təzyiq yaradır, sonra hz. Mehdini (ə.s.) çıxarır, İslamı dünyaya hakim edir və bu hadisələrə insanları vəsilə edir. Bu, çox böyük bir həyəcan yaradır. Allah bu şəkildə insanı özünə sevdirir və cənnətdən daha çox zövq almalarını təmin edir.

Unutmaq olmaz ki, anarxiya, terror və şiddət hadisələrini, diktatorları Allah İslam əxlaqını dünyaya hakim etmək üçün xüsusi olaraq yaradır.



## Adnan Oktar Allahın hər hadisəni bir hikmətlə yaratdığını izah edir

ADNAN OKTAR: *Allahın bizi sınamağa ehtiyacı yoxdur. Çünki bizim nə edəcəyimizi yaradan Odur. Sonsuz qısa zamandır an. Sonsuz qısa zamana an deyilir. Sonsuz qısa zaman içərisində sonsuz uzun zamanı yaratmışdır Allah. Hamısını bitirmişdir. Şeytandan Allaha sığınaram: "Allah istəməsə, siz istəyə bilməzsiniz. (İnsan surəsi, 30)" - buyurur Allah ayədə. "Allahın izni olmadan heç kəsə bir müsibət üz verməz... (Təğabun surəsi, 11)" - buyurur. Yəni bir müsibət baş verəcəyi zaman, mütləq əvvəl Allah diləyir, sonra o meydana gəlir. Bu, nə deməkdir? "Hər şeyi mən yaradıram", - deyir Allah.*

*Bizim nə olduğumuzu Allah bizə göstərir. Özümüzü-özümüzə sevdirir. Öz şəxsiyyətimizi görürük, o zaman cənnət bizim üçün mənalı olur. "Mən mübarizə apardım, səy göstərdim, çətinliklərə səbir etdim, əzab çəkdim, Allah üçün hər cür fədakarlığı etdim, comərdlik etdim", - deyir. Halbuki hamısını Allah edir, insan ondan zövq alır, xoşuna gəlir axirətdə.*

*Axirətdə, cənnətdə xoşuna gəlsin deyə meydana gətirilir. Məsələn, hz. Mehdi (ə.s) çıxır. Allah İslamı əvvəl yıxır, Osmanlı İmperiyasını yıxır. Sonra hz. Mehdini (ə.s.) çıxarır, İslamı dünyaya hakim edir. Möhtəşəm bir həyəcandır, insanların özlərinin etdiyi hissini verir Allah. Təbii ki, Allah yaradır. Cənnətdə də Allah: "Məhz bu, hz. Mehdidir (ə.s.)" - deyir. "Bu Həsən, bu Hüseyn, bu hz. Əlidir". Bir sevgi*



*səbəbi meydana gəlmiş olur. Həyəcanın səbəbi.*

*O zaman hz. Mehdi (ə.s.) mənalı olur. Hz. İsa (ə.s.) mənalı olur. Məsələn, hz. İsa (ə.s.) göyə alınır. Yenidən dünyaya gətirilir. Bu çox həyəcanlı hadisədir, elə deyilmi? Xoşdur, dünyada bir rəng, gözəllikdir. Rəng, gözəllik olsun deyə edir Allah. Yoxsa bizim nə edəcəyimizi, hamısını bilir. Məsələn, qarışıqlıq, anarxiya və s. bunların hamısı Allah tərəfindən yaradılır, hamısı. İslamı dünyaya hakim etmək üçün Allah tərəfindən xüsusi olaraq yaradılır hər şey, hər hadisə. (A9 TV, 10 Oktyabr 2011)*

## Azğın ideologiyalara qarşı imani mübarizənin əhəmiyyəti

İslam dünyası XIX əsrin əvvəllərindən etibarən xarici qüvvələr tərəfindən hədəf alınmışdır. Dünya müsəlmanları keçən 200 il ərzində bu qüvvələr tərəfindən işğal edilmiş, müstəmləkəyə çevrilmiş, təzyiq və zülm görmüşdür. Bu qüvvələrin bəzi müsəlman ölkələrdə qoyduqları kukla rəhbərlər də müsəlmanlara bir o qədər zülm etmiş və hələ də zülm etməyə davam edirlər. Həmçinin xarici qüvvələr İslam dünyasına aid olmayan bəzi ideologiyaları (həddindən artıq milliyyətçilik, faşizm və ya kommunizm) müsəlman cəmiyyətlərə təlqin etmiş, bu ideologiyaları təlqin etdikləri şəxsləri də müsəlman cəmiyyətlərə qarşı istifadə etmişlər.

Hələ də dünyanın hər tərəfində dinsiz sistemlər tərəfindən əzilən bir çox müsəlmanın olması bizə elmi mübarizənin nə qədər əhəmiyyətli olduğunu xatırladır. Unudulmamalıdır ki, dinsizliyə (və dinsizliyin dayağı olan fəlsəfə, ideologiya və darvinizm kimi "elmi" nəzəriyyələrə) qarşı qazanılacaq hər fikri zəfər, eyni zamanda, dünyadakı məzlum müsəlmanlara kömək mənasını daşıyan mənəvi zəfərdir.

## İslam dünyasının qarşı-qarşıya qaldığı ən böyük çətinlik müstəmləkəçilik və İslam düşmənçiliyini ehtiva edən ideologiyalardır

İslam dünyasını təsiri altına alan darvinizm müstəmləkəçiliyin, zorakılığın, təzyiqin elmi əsasını meydana gətirir. Darvinizm əvvəlcə yaradılışı inkar edərək kainatın və canlılığın təsadüf nəticəsində meydana gəldiyi fikrini təlqin edir. Allahın varlığının inkar edilməsi, Allah qorxusu və inancının ortadan qalxmasına zəmin hazırlayır. Bu düşüncəyə sahib olan insan heç bir elmi əsası olmadığı halda, bütün insanlığın daim qarşıdurma və həyat mübarizəsinin davam etdiyinə, güclünün gücsüzü əzdiyinə inanır. Belə ki, Darvin "İnsanın törəməsi" adlı kitabında avropalı ağ adamı ən üstün irq saymış, asiyalı və afrikalı qövmləri isə demək olar ki, meymunlarla eyni səviyyədə göstərmiş və bunu təbiətin qanunu olaraq açıqlamışdır.



Deyilənlərdən aydın olur ki, İslam dünyasının düşməni hər hansı bir millət və ya sivilizasiya (məsələn, qərb sivilizasiyası) deyil, əslində, millətləri, sivilizasiyaları və ya İslam dünyasındakı idarəçiləri zalım halına gətirən bu azğın ideologiyadır. Bu ideologiya dünyanın böyük hissəsinə hakim olmuş və hakim olduğu hər əraziyə zülm və vəhşilik gətirmişdir. İslam dünyasını işğal edən, parçalayan, yağmalayan, kölələşdirən, qırğınlar törədən qüvvələr, əslində, bu azğın ideologiyadan doğan kommunizm, faşizm və vəhşi kapitalizmdir.

Bu halda, Darvinin fikirlərinə əsaslanaraq dinsizliyə qarşı aparılan mübarizənin də fikri olması çox əhəmiyyətlidir. Çünki dinsizlik yalnız insanların imanlarını yox edərək onları cəhənnəmə sürükləyən bir güc deyil, eyni zamanda, dünyanı qarışıqlıq və müharibə meydanına çevirməyə çalışan gücdür. Müsəlmanları isə bu qarışıqlıq və döyüş mühitində ən böyük hədəfə çevirir.

Allah bütün bu hadisələri müsəlmanları bu fitnəyə qarşı mübarizə aparmaları üçün yaradır. Bu şəkildə, həm böyük bir imani xidmət etmələrini, həm də dünyanı əhatə edən fitnəyə qarşı elm və düşüncə ilə böyük mədəni mübarizə aparmalarını təşviq edir. Onların cənnəti qazanmaları, eyni zamanda, dünyanı da cənnət kimi bir mühitə çevirmələri üçün gözəllik yaratmış olur.

## Tarix əvvəlcədən təqdir edilmiş bir qədərdir

Dünya tarixində bütün hadisələr **"... Allahın əmri əzəldən müəyyən edilmiş bir hökmdür" (Əhzab surəsi, 38)** ayəsində bildirildiyi kimi, Allahın təyin etdiyi qüsursuz qədərə görə reallaşır. Tarixə düşmüş bütün müharibələr, sülh sazişləri, fəlakətlər, ideologiyalar, siyasi və iqtisadi dəyişikliklər, kəşflər, bütün hadisələrdə rol oynayan insanlar və saymaqla bitməyən detalların hamısı Allahın idarəsindədir və Onun hikmətli yaratmasının bir hissəsidir. Bu səbəbdən, yaxın tariximizdə dünyada yaşanan bütün hadisələri bu istiqamətdə qiymətləndirmək lazımdır. Rəbbimiz axır zamanda dünyada baş verən bütün hadisələri hz. İsa (ə.s.) və hz. Mehdinin (ə.s.) çıxışına zəmin olaraq yaradır. Bu səbəbdən, son dövrdə ölkəmizdə və dünyada reallaşan bütün hadisələr axır zamanın müjdələnən şəxsi hz. Mehdinin (ə.s.) çıxış əlamətlərini meydana gətirən hadisələrdir. Bu hadisələr dünyanı Allahın izni ilə həm İslam birliyinə, həm də mehdiyyət mövzusuna yaxınlaşdırır. Bu müjdəli xəbərlərin reallaşması isə Allahın izni ilə çox yaxındır. İnananlar İslamın gəlişindən sonra dünya tarixinin ən xüsusi və ən görkəmli zamanlarından biri olan bu günləri həyəcan və coşğu ilə gözləyirlər. O dövrdə Allahın izni ilə bu ayələr təcəlli edəcək:

**Allahın köməyi və zəfər gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)**



# Bir ayə, Bir açıqlama

**"...Əhdə vəfa qılın. Çünki (hər kəs) əhd barəsində sorğu-sual olunacaqdır." (İsra surəsi, 34)**

Ayədə əhdə vəfa etməyin əhəmiyyətinə diqqət çəkilir, əhdin məsuliyyət olduğu xəbər verilir. Möminlər Allah qarşısında verdikləri sözləri tutmaqla məsuliyyət daşıyırlar. Etibarlı olmaq möminin ən vacib əxlaq xüsusiyyətlərindən biridir. Bütün rəsullar qövmlərində etibarlı insanlar kimi tanınmış, dürüst və əxlaqlı olmuşlar. Əhdə vəfa etmək isə etibarın əsas tərkib hissəsidir.

Vəfa mömin xüsusiyyətidir, vəfasızlıq isə münafiq xüsusiyyətidir. Peyğəmbərimiz (s.ə.v) münafiqlərin xüsusiyyətlərindən danışarkən onların üç xüsusiyyətini belə sadalayır:

***"Danışdığı zaman yalan danışar. Söz verdiyi zaman sözünü tutmaz. Əmanətə xəyanət edər".***

Allahın təsvir etdiyi möminlər isə doğru sözlü, dürüst, etibarlı, sadiq, vəfalı və məsuliyyətlidirlər. Kiçik hesablar və kiçik mənfəətlər arxasınca qaçmazlar. Möminlər onlara verilən əmanətə və verdikləri əhdə sadiq qalarlar. (Məaric surəsi, 32) Buna görə də, bir əhdə sadiq qalmaq və ya əmanətə xəyanət etməmək mövzusunda güvənilən insanlardır.

Əhdləşmə və əmanət mövzusu çox əhəmiyyətlidir. Mömin verdiyi sözü tutmalı, edə bilməyəcəyi bir iş barəsində söz verməməlidir. İnsanların etməyəcəkləri şeyləri söyləmələri Rəbbimiz tərəfindən bəyənilməyən, eyni zamanda da Quran əxlaqına uyğun olmayan davranışdır.

Verilən əhdi tutmamaq, əmanətə xəyanət etmək Allah Qatında hesab veriləcək məsuliyyətdir. Quranda bildirilən gözəl əxlaqı mükəmməl şəkildə yaşamağı niyyət edən möminlər Allah Qatında bəyənilməyən rəftardan çəkinərlər. Başqa ayələrdə bu mövzu belə bildirilmişdir:

**Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar. (Səff surəsi, 2-3)**

# Şeytanın təlqini: BOŞ VAXT

Boş vaxt keçirməyi gözəl görmək şeytanın insanlara verdiyi təlqinlərdən biridir. Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə bəzi insanlar üçün boş vaxt keçirmək, yəni "vaxtı öldürmək" normal qarşılanır. Lakin möminlər Allahın onlara lütf etdiyi vaxtın hər anını Allaha olan yaxınlıqlarını artıraraq, daha dərin düşünərək və İslam yolunda fikri mübarizə apararaq keçirərlər.

Səmimi şəkildə Allaha inanan şəxs şeytanın dünya həyatında insanlara cəlbedici göstərdiyi boş işlərdən özünü tamamilə uzaq tutmalıdır. İnsan ancaq bu şəkildə açıq zehinlə lazımi kimi dərin düşünə bilər. Quranda möminlərin boş işlərdən üz çevirdikləri belə bildirilmişdir:

**O kəslər ki, lağlağıdan (lüzumsuz şeylərdən, qadağan olunmuş əməllərdən) üz döndərərlər. (Muminun surəsi, 3)**

Bu ayədə də bildirildiyi kimi, dünyada verilən zaman insanlar üçün çox qiymətlidir. İnsan hər an Allahın razılığının ən çoxunu axtarmalıdır. Gəlin düşünək, bir insan vaxtını boş və faydasız işlərlə keçirirsə və bunlar onun axirəti üçün faydalı deyilsə?! Mömin hər an bunun şüurunda olub, şeytanın ona xoş və asan göstərdiyi boş və lazımsız düşüncələrdən və davranışlardan tamamilə uzaqlaşmalıdır. Peyğəmbərimiz (s.ə.v.) bir hədisində belə buyurmuşdur:

Abbasdan (ə.s.) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.v.) bu mövzu ilə əlaqədar belə buyurmuşdur: ***"Sağlamlıq və boş vaxt insanlardan bir çoxunun bunlardan faydalanmaq barəsində aldandıqları iki böyük nemətdir"***. (Buxari, Rikak 1)

Vaxtını boş keçirən bir insan ölümü, cənnəti, cəhənnəmi dərin düşünə bilməz. Halbuki mömin hər kəs kimi özünün də sürətlə ölümə doğru getdiyini, dünyadakı hər şeyin imtahanın tələbi olaraq yaradıldığını Allahın izni ilə qətiyyən ağlından çıxarmaz. Sonsuz rəhmət sahibi Allahın gün ərzində ona göstərdiyi acizliklərini düşünüb özünü Allaha yaxınlaşdıracaq mövzulara yönələr.

**Quranın "Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?" (Nisa surəsi, 75)** ayəsində bildirildiyi kimi, möminlər həyatlarını Allahın razı olacağı şəkildə dərin düşünərək, İslam əxlaqını təbliğ edərək keçirməlidirlər. Bu əxlaqa sahib olmayanların düşüncələri, diqqət etdikləri dünyəvi mövzular onlara heç bir fayda verməyəcək. Əksinə, hesabını verə bilməyəcəkləri boş vaxt onları axirətdə itkiyə sürükləyə bilər. Möminin bu həqiqətin şüurunda olması və bir anını belə boş yerə keçirməməsi çox əhəmiyyətlidir. Quranda bu istiqamətdə səmimi səy göstərən möminlər belə müjdələnmişdir:

**İman gətirib yaxşı əməl edənlər isə cənnət sakinləridir. Onlar orada**





**əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik. (Əraf surəsi, 42)**

## Əsla unutmayın!...

Boş işlərin axirətdə heç bir faydası olmayacaq... Axirət günündə insanların dünya həyatında uzun-uzadı boş söhbətlərə və müzakirələrə daldıqları mövzuların, haqqında saatlarla vaxt sərf etdikləri lazımsız işlərin heç bir faydası olmayacaq. O gün Allahın izni ilə varlı-kasıb, cavan-yaşlı hər kəs Allahın qarşısına ayədə bildirildiyi kimi, **"...tək-tənha, həm də verilən nemətləri arxada qoyub..." (Ənam surəsi, 94)** dünyadakı əməllərinə görə ya cənnətlə müjdələnəcək, ya da cəhənnəm əzabına məruz qalacaq. Bu həqiqət bir Quran ayəsində belə bildirilir:

**(O gün) məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar. Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. (Onlar) Cəhənnəmdə əbədi qalacaqlar. (Muminun surəsi, 102-103)**

Rəbbimizin dünya həyatında verdiyi müddət çox dəyərlidir... Bəzi insanların Quran əxlaqını yaşamaq mövzusunda ən çox yanıldığı məqamlardan biri həyatlarını "ibadət zamanları" və "digər zamanlar" kimi iki hissəyə ayırmalarıdır. Bu şəxslər bu dünyanın keçici olduğunu və axirət həyatının varlığını yalnız müəyyən ibadət vaxtlarında xatırlayırlar. Qalan vaxtlarını dünya işlərinin qarışıqlığına qapılaraq sahib olduqları "vaxtı"ı axirət baxımından əhəmiyyətli olmayan faydasız işlər və düşüncələrlə keçirirlər. Halbuki yatdığımız saatları çıxsaq, Allah qullarına hər gün təxminən 16-17 saatlıq böyük bir vaxtı Onun razılığını qazanmaq üçün lütf etmişdir.

Boş düşüncə və davranışlardan üz çevirmək Allahın izni ilə çox asandır... Şeytan boş düşüncə və davranışlardan çəkinməyi çətin və çox vaxt alan bir müddət kimi göstərməyə çalışa bilər. Ancaq bu üstün əxlaq xüsusiyyəti səmimi dua və qətiyyətlə Allahın diləməsilə dərhal qovuşula biləcək mömin xüsusiyyətidir.

**"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, eşidəndir, biləndir" (Fussilət surəsi, 36)** ayəsində bildirildiyi kimi, şeytanın təlqinlərindən Allaha sığınmaq və hər anı Onun razılığını qazanacaq şəkildə keçirmək çox vacibdir.






# İNSAN SƏSİNDƏKİ MÖHTƏŞƏM MÜXTƏLİFLİK

İnsanlardan başqa bütün canlıların səsi bir-birinə bənzəyir. Ancaq insan səsi onlardan fərqlidir. Çünki hər insanın səsi fərdidir. Öz səsimiz, ailəmizin və tanışlarımızın səsi ancaq həmin şəxsə aiddir. Hətta insan səsi o qədər özünəməxsusdur ki, görmədiyimiz halda, telefona cavab verən kimi telefondakı insanın səsini "Salam" sözündən tanıyırıq.

Necə olur ki, səsin əmələ gəlməsinə xidmət edən orqanlar və hava kimi amillər eyni olmasına baxmayaraq, hər insanın səsi fərqlidir?

## Bu müxtəlifliyə səbəb olan xüsusiyyətlər nələrdir?

Allahın insanlara bəxş etdiyi xüsusi nemət olan səs və nitq ətraf mühitlə ünsiyyət qurmaq,



sevinc, kədər kimi hissləri, fikirləri, müxtəlif səs tonlarından istifadə edərək ifadə etmək üçün yeganə yoldur. İnsan səsi çox müxtəlif tonlarına görə bu günə qədər düzəldilmiş musiqi alətlərindən milyon dəfələrlə üstün quruluşa və funksiyaya malikdir. Musiqi alətləri zaman keçdikcə köhnəlir, xarab olur, qulluğa ehtiyacı olur, ancaq səsimiz xarab olmadan, köhnəlmədən, özü-özünə qulluq edərək ömrümüz boyu bizə xidmət edir.

## Səsin əmələ gəlməsindəki qüsursuzluq

Səsin əmələ gəlməsi üçün qırtlaqdakı əzələlər, dil, dişlər, damaq, dodaqlar kimi bir çox orqan və hava bir-biri ilə mükəmməl uyğunluq içində işləyir. Əgər bu cür mütəşəkkillik olmasaydı, danışmaq istədikdə anlaşılmaz və narahatlıq verən səs-küy meydana gələrdi. Bu cür mütəşəkkil iş aşağıdakı detallar sayəsində həyata keçirilir:

## Səs tellərindəki dizayn

İnsan səsini əmələ gətirən ən əsas orqanlar səs telləri və onların bağlandığı əzələlərdir. Bunlar qırtlağın içindəki səs qutusunda yerləşən selik təbəqəsi ilə örtülü bir cüt əzələdir. Qırtlağın ön hissəsində halqa formasında qalxanvari qığırdaqların arxasında yerləşir.

Səsin əmələ gəlməsi üçün "V" formasındakı səs telləri "II" formasına düşməlidir. Ancaq əgər bir-birlərinə çox yaxınlaşsalar və ya kifayət qədər gərgin olmasalar, səsin keyfiyyəti aşağı olar. Hətta danışmaq mümkün olmaz.

Səs tellərinin uzunluğu səsin qalınlığını müəyyən edir. Səs teli nə qədər uzun olarsa, səs o qədər incə olur. Qadınların səsinin kişilərə nisbətən incə olmasının səbəbi də budur. Çünki qadınların səs telləri kişilərin səs tellərindən uzun olur.

İnsandan başqa heç bir canlının səsini dinləyərək onun cinsiyyətini ayırd edə bilmərik. İnsan isə bu baxımdan çox fərqlidir. Danışdığımız insanı görməsək də, səs tonundan onun qadın, yaxud kişi olduğunu dərhal anlayırıq. Bu, əlbəttə, Allahın insanlara bəxş etdiyi xüsusi nemətdir.

Səs tellərinin səs çıxarması üçün aralarındakı məsafə, uzunluq, gərginlik kimi bir çox xüsusiyyət incəliklə düşünülməli və hesablanmalıdır. Təkcə səs telindəki bu detalları düşündükdə bunların təsadüfən əmələ gəldiyini iddia etmək, təbii ki, qeyri-mümkündür. Səs









telləri, onların titrəməsi kimi bir çox detal Allahın üstün ağlına və hər şeyi bir ölçü ilə yaratmasına dəlildir. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**... Onun dərgahında hər şeyin müəyyən ölçüsü vardır. (Rəd surəsi, 8)**

## Qırtlaqdakı dizayn

Səsin əmələ gəlməsindəki detallar yalnız səs telləri ilə məhdudlaşmır. Nəfəs borumuzun ağız boşluğuna açılan hissəsində yerləşən qırtlaq boyu başqa əzələlər də yerləşir. Bu əzələlər səs telləri arasındakı hava boşluğunu və tellərin uzunluğunu tənzimləyir, səs tellərinin titrəməsi, hava axınının keçməsi üçün qırtlağın digər əzələlərindən asılı olmadan hərəkət edirlər. Şübhəsiz ki, bu detal təkamül nəzəriyyəsi ilə açıqlana bilməz. Qırtlağın səs tellərinin titrəməsi üçün mərhələ-mərhələ inkişaf edərək ancaq səs tellərinin yerləşdiyi hissədə ayrıca əzələ əmələ gətirməsi, əlbəttə, mümkün deyil. Nitqin ən əsas şərtlərindən biri olan bu detal Allahın "Ol!" əmri ilə bir anda yaranmışdır.

İnsan qırtlağının digər canlılara nisbətən daha aşağıda yaradılması da insanın nitq qabiliyyətinə səbəb olan detaldır. Bu detal qırtlaqdan çıxan nəfəsin müxtəlif səslərə çevrilməsini təmin edir. Qırtlağın bu xüsusiyyətinə görə nəfəs borusuna qida düşə bilər. Bu risk körpəlik zamanı qazanılan reflekslərlə və udlaqdakı dilçək ilə aradan qaldırılır.

## Ağız, diş, burun və dilin funksiyası

Dünyada müxtəlif dillər mövcuddur. Ancaq bütün insanların ağzından eyni hərf səsləri çıxır. Çünki insanlar Allahın ilhamı ilə hərfləri söyləyərkən eyni orqanlardan istifadə edirlər.

Hər iki dodaqları ilə "p" və "b", dodaq və dişləri ilə "f" və "v", dilin ön hissəsi ilə "t" və "d", dilin arxa hissəsi ilə də "k" və "q" səslərini tələffüz edirlər.

Heç bir uşaq doğulduğu zaman hərfləri söyləyərkən ağız boşluğundan necə istifadə edəcəyini bilmir, ancaq dil açma vaxtı çatdıqda Afrikadakı qəbilədə yaşayan uşaq da, Nyu Yorkda yaşayan uşaq da hərfləri eyni şəkildə tələffüz edir. Şübhəsiz ki, bu, böyük möcüzədir və nitqin Allahın ilhamı ilə yarandığının ən gözəl dəlilidir.

Danışarkən bəzi orqanların digərlərindən daha çox istifadə edilməsi isə istər sözün başa düşülməsi, istərsə də



dinləyənin qavramasında problem əmələ gətirir. Məsələn, danışarkən qırtlaq bölgəsindən istifadə edənlərin səsi parazitli çıxır və onları rahat eşitmək olmur.

Yalnız ağız boşluğundan istifadə edən insanlar ağızlarını kifayət qədər açmadıqları üçün "a" və ya "o" əvəzinə "ı" səsini tələffüz edir və bu insanların səslərini eşitmək çətin olur.

Təkcə burun bölgəsindən istifadə edən insanların səsi isə tonsuz, enerjisiz və uğultulu olur. Bu problemin səbəblərindən biri yumşaq damağın lazımi qaydada funksiyasını yerinə yetirməməsidir. Yumşaq damağın vəzifələrindən biri səslərin burun yolu ilə çıxmasına mane olmaq üçün burun yolunu bağlamaqdır. Çünki bəzi səslər burun yolu ilə hərəkət etmək istəyir, bu təqdirdə, yumşaq damaq o bölgəni bağlayır və səslərin düzgün tələffüzünü təmin edir.

Şübhəsiz, burada bir neçə nümunə ilə verilən detallar səslərin doğru tələffüzü üçün bütün sistemin müəyyən hərəkətləri eyni anda etməli olduğunu göstərir. Hər birimizin fərqinə belə varmadan həyata keçirdiyimiz bu mütəşəkkil iş Allahın üstün ağlının göstəricilərindən biridir.

## Beyinin rolu

Beyindəki bir bölgə nitqi idarə edir. Burada fikrin əsas quruluşu əmələ gəlir, qulaq və gözlərdən gələn impulslarla birləşdirilir və boğaza göndərilir.

Heyvanların beyinlərində belə bir bölgə yoxdur. Bəzi tutuquşular, hətta qarğa növlərinin danışması şüurlu şəkildə baş vermir. Sadəcə əzbərləmə və təkrar etmə qabiliyyətlərindən qaynaqlanır.

Beynimizdə nitq mərkəzinin olması bizə aid xüsusiyyət olmadığı kimi, bəzi quş növlərinin sözləri əzbərləyib təkrar etməsi də onlara xas deyil. Çünki beyin sadəcə ət parçasıdır. Bu ət parçası düşünüb danışmağa qərar verə, hansı səslərin hansı orqanlar vasitəsilə tələffüz ediləcəyini müəyyən edə, sözlərin mənalı şəkildə deyilərək dinləyənin anlayacağı cümlələrə çevirə bilməz. Beyin ancaq nitqi idarə edən vasitədir. Ayədə bildirildiyi kimi, sözləri öyrədən və danışmağı ilham edən Allahdır.

**... Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. (Bəqərə surəsi, 31)**

Buraya qədər izah edilənlər səsin əmələ gəlməsi üçün zəruri möcüzəvi detallardır. Maraqlıdır ki, barmaq izi kimi hər insanın səsi də özünəməxsusdur. Bəs bu möcüzə necə baş verir?

## Səsimizi bənzərsiz edən xüsusiyyətlər

Bu günə qədər yaşamış, yaşayan və yaşayacaq milyardlarla insan bir-birindən fərqli səs tonlarına malikdir. Bu, əlbəttə,







Allahın insanlara lütf kimi bəxş etdiyi böyük nemətdir. Çünki bu nemət insanlar arasındakı ünsiyyəti asanlaşdırır, bir-birlərini görməsələr də, səslərindən tanıyırlar. Bundan əlavə, insanlar fərqli səs tonlarına görə mahnı dinləyib zövq alırlar.

Səsimizi özünəməxsus edən mexanizm eynilə motorlu cihazların ətrafındakı hava girdablarının səs çıxarması kimi işləyir. Bu barədə Sinsinati Universitetindən tibb elmləri doktoru Sid Kosla və tədqiqat qrupu reaktiv təyyarələr üzərində uzunmüddətli tədqiqatlar aparmış və bu nəticəyə gəlmişlər:

Ağciyərlərdən çıxan hava axını qırtlaq boyu eynilə səs motorlarındakı kimi hava girdabları əmələ gətirərək səs çıxarır. Fırlanan tüstü halqalarına bənzəyən bu hava girdabları hər insanda müxtəlif tona malik səslərə çevrilir. Ancaq bu girdabların əmələ gəlmə mexanizmi çox mürəkkəbdir.

İnsanın səsin əmələ gəlmə mexanizmi haqqında məlumatı və səsinin əmələ gəlməsində heç bir rolu yoxdur. Hər bir insana məxsus səs, əlbəttə, Allahın yaratma sənətindəki ağılın üstünlüyünü göstərir.

## Müxtəlif səs tonları Rəbbimizin şanındandır

Səsin əmələ gəlməsi üçün orqanizmimizdə bir çox orqan bir-birilə uyğunluq içində fəaliyyət göstərir. Bu orqanların birinin olmaması və ya funksiyasını normal yerinə yetirməməsi səsin əmələ gəlməsinə mane olar. Bu səbəbdən, səsi əmələ gətirən bütün sistem eyni anda, tam şəkildə ortaya çıxmalı və hər biri öz funksiyasını "bilib" qüsursuz şəkildə yerinə yetirməlidir. Orqanların ağlı və şüuru yoxdur. Ona görə, vəzifələrini, səs əmələ gətirmək üçün nələr etməli olduqlarını bilmirlər. Ağlı və şüuru olmayan bu orqanlar zaman keçdikcə yavaş-yavaş inkişaf edərək təkmilləşə bilməz. Skripka düzəldən usta ancaq alətin bütün hissələrini eyni anda birləşdirdikdən sonra səsin çıxması kimi, bizim səs mexanizmimiz də Allah tərəfindən bir anda yaradılmışdır.

Ancaq səsin əmələ gəlməsi üçün təkcə bu sistem kifayət etmir. Eyni zamanda hava da olmalıdır. Habelə bu hava hər insanın qırtlağında müxtəlif girdablar əmələ gətirərək hər kəsin səsinin özünəməxsusluğunu təmin etməlidir.

Hər insanda səs və nitq sistemi və hava eyni olmasına baxmayaraq, hər insanın özünəməxsus səsi olması, əlbəttə, ağlın qavrama hüdudlarını aşır. Bu, Rəbbimizin üstün ağlını, yoxdan yaradan olduğunu göstərir. Allah



insanı yaratmış və ona dünyadakı heç bir canlıda olmayan düşünmə, nitq qabiliyyəti və özünəməxsus səs bəxş etmişdir. Quran ayələrində belə bildirilir:

**İnsanı yaratdı. Ona danışmağı öyrətdi. (Rəhman surəsi, 3-4)**

## Səs necə əmələ gəlir?

Danışarkən nəfəs veririk və bu nəfəs nitqin xarakteristikasına təsir edən ən az 11 yerdən keçir.

Səs ağciyərlərdən nəfəs borusu ilə yuxarıya qalxan havanın qırtlaqdakı iki səs telini titrətməsi nəticəsində əmələ gəlir.

Səs telləri susduqda "V" formasında olur və hər iki tərəfə açıq olur. Danışdıqda ortada birləşirlər və "II" formasını alırlar.

Bu tellər incə səslərin çıxarılması üçün daha çox gərilir və titrəyirlər. Qalın səslərdə isə bunun əksi baş verir.

Səs qırtlaqdan çıxdıqdan sonra dil kökü, dil, dişlər, dodaqlar kimi orqanlarımızda formalaşır. Bu əsnada udlaq, burun boşluğu və sinuslar da (kanallar) titrəyərək insana məxsus səs xüsusiyyətləri meydana gəlir.

## Səsimizdəki özünəməxsusluq

Hər insan səs əmələ gətirən orqanlarından fərqli şəkildə istifadə edir. Ona görə, hər kəsin özünəməxsus səs tonu var. Əgər Allah istəsəydi, bütün insanlar eyni səslə danışar, hər yerdə eyni səs tonunu eşidərdilər. Öz səsimiz anamızın, dostumuzun və ya qonşumuzun səsi ilə eyni ola bilərdi. Ancaq eyni səs tonu ilə bütün insanların telefonla əlaqə saxlaması çox cəhətdən riskli və çətin olardı. Çünki hər kəs bir-birinin adından danışar, bu təqdirdə, insanları ayırd etmək mümkün olmazdı. Bundan əlavə, bir-birindən fərqli gözəlliyə malik insan səsləri olmayacağına görə, yeknəsək musiqi anlayışımız olardı.

Ancaq aləmlərin Rəbbi olan Allah böyük nemət və lütf kimi insanlar arasındakı ünsiyyəti asanlaşdırmaq və zövqlü mahnılar dinləmək, söhbət etmək üçün onları bir-birindən fərqli və bənzərsiz səs tonları ilə yaratmışdır.

Yeni doğulan körpələrin qırtlağı böyüklərinkinə nisbətən yuxarıda yerləşir. Beləcə, hələ danışmadığı üçün qırtlaq quruluşuna ehtiyacı olmayan körpə süd əmərkən eyni anda nəfəs ala bilir və böyüklərdə olduğu kimi, udduqlarının nəfəs borusuna, oradan da ağciyərə getmə riski olmur. Ancaq dil açdıqda nitq çətinliyi olmaması üçün uşaq dil açmadan qırtlaq aşağıya enir. Yəni məhz lazım olduğu vaxtda uyğun şəkildə dəyişir. Bu, əlbəttə, Allahın yaratma sənətindəki detalı və üstün ağılı göstərən nümunələrdəndir.

# HƏYATIN HƏQİQİ MƏNASI

Heç düşünmüsünüz ki, 70 yaşlı insan keçmişə dair nələr fikirləşir?

Bu insan kim olsa da, yaşadığı 70-80 ilin necə keçdiyini anlamadığını düşünür. Hətta özündən soruşsanız: "Bir göz qırpımında keçdi, heç nə anlamadım", - deyər.

20 yaşında olarkən bəlkə o da yaşlanacağını heç düşünməmişdi. Ancaq hal-hazırda çox uzaq gördüyü o dövrdədir və bu anı uzaq görməklə nə qədər yanıldığını anlamışdır.

Həyatı boyu etdiklərini yazmağını və ya danışmağını xahiş etsəniz, ən çox bir dəftəri doldura bilər və ya beş-altı saat danışa bilər. "70 il" dediyi müddət bu qədərdir...

Bu düşüncələrlə yaşayan insanın ağlında bəzi mühüm suallar var:

-Bir göz qırpımında keçib-gedən bu həyatın məqsədi nədir?

-Mən bu 70 ili nə üçün yaşamışam?

-Bəs bundan sonra nə olacaq?

Yuxarıdakı suallara bir-birindən fərqli cavablar verən iki cür insan qrupu var. Bunlardan biri Allaha inanmayan, digəri isə könüldən səmimi imanla Allaha bağlanan insanlardır.

## Boş məqsəd üçün yaşayanlar

Böyük ehtimalla, yuxarıdakı suallar haqqında belə düşünər: "Həyatım bu günə qədər boş məqsəd uğrunda keçib getdi. 70 il yaşadım, ancaq nə üçün yaşadığımı heç anlaya bilmədim. Əvvəlcə: "Atam-anam üçün yaşayıram", - dedim, sonra həyat yoldaşım, sonra uşaqlarım... İndi isə ölüm yaxınlaşıb. Öləcəyəm və bu dünyadan yox olub gedəcəyəm. Sonra? Sonra nə olacağını bilmirəm, ancaq hər halda, hər şey bitəcək!"

Bu insanın düşdüyü boşluğun səbəbi bütün kainatın, canlıların və insanların müəyyən məqsədi olduğunu



qavramamasıdır. Bu məqsəd bütün bu varlıqların yaradıldığından qaynaqlanır. Ağıllı insan kainatın hər yerində və canlılarda böyük plan, nizam və ağıl olduğunu görər və bunları üstün ağıl sahibi Yaradanın yaratdığını anlayar. Bunlar yaradıldıqlarına, təsadüfən və şüursuz proseslə əmələ gəlmədiyinə görə, mütləq bir məqsədi var. Bu məqsəd isə bizə üstün Yaradanın, yəni Allahın yol göstərici kimi nazil etdiyi Quranda bildirilir.

Bu həqiqətləri nəzərə alan və Allaha iman gətirən insan yuxarıdakı suallara doğru cavab verib belə deyər: "Məni hər şeyin sahibi olan Allah yaradıb və bu dünyaya göndərib. Dünyada olduğum müddətdə məni yaradan Allaha qulluq etməklə əmr olunmuşam və bunu ən gözəl şəkildə edib-etməməklə sınanmışam. Dünyanın çox qısa olduğunu, bir göz qırpımında keçəcəyini bilirdim. Ona görə də Allaha qulluq etmişəm, dünya həyatının müvəqqəti bər-bəzəyinə aldanmamışam. Sonra? Həyatım boyu yaxşı işlər görmüşəm və Allahın razılığını qazanmağa çalışdığım üçün əbədi səadət yurdu olan cənnətə qovuşmağı ümid edirəm. Rəbbimə qovuşacağım günü səbirsizliklə gözləyirəm".

Yuxarıda bəhs etdiyimiz iki insan arasındakı fərqi daha da dəqiqləşdirmək üçün bir cəhətə diqqət çəkməliyik: Allahın varlığını qəbul edən hər kəs həqiqi iman gətirməmişdir. Bu gün bir çox insan kainatı bir Yaradanın yaratdığını qəbul edir, ancaq bu həqiqətin onun həyatı üçün nə qədər böyük əhəmiyyəti olduğunu qavramır. İnsanların əksəriyyəti Allahın kainatı yaratdığını və daha sonra insanları özbaşına buraxdığını düşünür.

Bu yanlış inanca görə, insanların çoxu gündəlik həyatla onları yaradan Allah arasında əlaqə qura bilmir. Düşünürlər ki, bu dünyada yaşayacaq, öz prinsiplərinə əsasən, yaxşı işlər görəcək və öldükdən sonra əgər günahları varsa (!) bir müddət cəzalarını çəkib cənnətə gedəcəklər. Hətta əksəriyyəti bunu belə düşünmür, "bu dünyada yaşadığımız hər gün mənfəətdir, Allah nemət verib, dadını çıxaraq" şəklində Allahın nemətlərinin qədrini bilməyən cahil üslubla danışır və bu məntiqlə heç nə etmədən yaşayırlar.



## Halbuki həqiqət çox fərqlidir...

Əslində isə, reallıq bu deyil. Allahı tanımayan və ya Onu unutmuş bütün insanlar çox yanılırlar. Qurandakı ifadə ilə desək: **"Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər". (Rum surəsi, 7)**



*El arasında qısa və müvəqqəti dünya həyatı haqqında bəzi ifadələr var: "ölümlü dünya", "üç günlük dünya", "fani dünya". Bu qəlibləşmiş sözlər, əslində, insanların səmimi fikirlərini əks etdirmir. Bu cür sözlər cəmiyyətdə bir ənənə kimi, insanların öz aralarında etdiyi söhbət və hətta zarafat mövzusudur. Belə ki, bu qədər mühüm mövzunun ardınca dərhal dünya ilə bağlı planlara başlayırlar. Məsələn, "ölümlü dünya", "dünyaya bir dəfə gəldik" sözlərinin ardınca "təbii ki, dünyadan bacardıqca çox zövq almaq lazımdır" şəklində dayaz məntiq irəli sürürlər. Halbuki həyatın qısa olması, ölümlü olmaq və dünyaya bir dəfə gəlmək hər bir insan üçün mühüm həqiqətlərdən biridir.*

Bu qafil insanlar dünya həyatının həqiqi üzünü və məqsədini qavramırlar. Müvəqqəti olduğunu, "bir göz qırpımında" bitəcəyini isə heç düşünmürlər. Bu həqiqəti ətrafımızda asanlıqla görə bilərik.

Halbuki həyatın qısa olması, ölüm, dünyaya bir dəfə gəlmək hər insan üçün mühüm həqiqətlərdəndir. Müəyyən yaşa qədər insan bu mühüm həqiqəti dərk etməyə bilər, ancaq bunu anladıqda dərhal bütün həyatını gözdən keçirməli və Allahın ondan istədiyi şəkildə yenidən həyatını qaydaya salmalıdır. Çünki həyat qısadır, ancaq insan ruhu, Allahın istəyi ilə, əbədi yaşayacaq. Əbədiyyətlə müqayisədə 3-5 günlük həyatın heç bir dəyəri yoxdur. Dünyada bir az zövq almaq üçün sonsuz həyatı fəda etmək, şübhəsiz ki, ağılsızlıqdır. Ancaq bu həqiqəti qavramayan inkarçılar bütün ömürlərini Allahı unudaraq boş məqsədlər üçün sərf edirlər. Əslində, heç bu boş məqsədlərinə də çatmırlar. Heç nədən məmnun qalmayaraq yaşayır və hər an bir az artığını arzulayırlar. Həmin şeyə nail olduqda daha artığını arzulayır və təmin olunmayan bu istəklərlə ölənə qədər yaşayırlar. Arzuladıqları gözəllik və zənginliyə dünyada qovuşmaları qeyri-mümkündür. Çünki həmişə əldə etdiklərindən daha yaxşısı qarşılarına çıxacaq.



## Labüd reallıq: ölüm

Daha gözəlini və yaxşısını axtarmaq... Buna nail olduqda əvvəlkinin əhəmiyyətinin qalmaması... Bir müddət sonra, yeninin də köhnəlməsi. İnsanların tarix boyu yaşadığı həyat budur. Ağıllı insan dünyaya aludə olmağın heç bir fayda vermədiyini anlamalı və: “Bu düşüncə tərzinin kökündə problem var”, - deyə düşünməlidir. Lakin insanların əksəriyyəti ağılsızlıqla əsla nail ola bilməyəcəkləri xəyalların ardınca qaçmağa davam edirlər.

Halbuki heç kim növbəti anını zəmanət altına ala bilməz. Qəzaya düşmək, yaralanmaq, şikəst qalmaq və ya ölmək çox asandır və adi səbəblərdən asılıdır. Ölümü hər an xatırlayan insan isə torpağın altında nə mal-mülkün, nə də ətrafındakı insanların heç bir dəyərinin olmayacağını açıq-aşkar görər. Hər bir insan daim bu həqiqət haqqında düşünməlidir: Varlı və ya kasıb, gözəl və ya çirkin hər insan bir neçə metrlik bezə bükülərək dəfn ediləcək.





# DARVİNİZM *ELM DEYİL*, TƏBİƏTİ İLAHLAŞDIRMIŞ *ŞAMAN DİNİDİR*



Təkamül nəzəriyyəsi irəli sürüldüyü gündən etibarən bir çox elm sahəsindəki nailiyyətlər bu nəzəriyyənin iddialarını bir-bir təkzib etmişdir. Buna baxmayaraq, nəzəriyyə hələ də müdafiə edilir. Elmi nəzəriyyənin əsassız olduğu sübut edildikdə elmi ədəbiyyatdan çıxarılır və müzakirə edilmir. Ancaq darvinizmdə vəziyyət fərqlidir. Təkamül əleyhində olan dəlillər nə qədər güclü və qəti olsa da, təkamülçülər bunları görməməzliyə vurur və inanclarını təkidlə müdafiə edirlər.

Darvinizmin ən əsas bütü təsadüflərdir. Hansı darvinist əsəri oxusanız, təkamülçülərin həmin bütün güc və qabiliyyətləri haqqındakı iddialarını görərsiniz. Təsadüf bütü darvnizmin həyat damarı, köküdür.

Təkamülçülər təsadüf bütünün hər şeyi bir ölçü ilə etdiyini iddia edirlər. Onların fikrincə, bu büt hər şeyi düşünür, hər addımı əvvəlcədən ölçüb-biçir, hesablayır.

Təkamülçülər qeyri-adi qüvvəyə inanırlar. Maddəni ilahlaşdırırlar. Maddənin canlıları əmələ gətirdiyinə, bir canlının başqa bir canlı meydana gətirdiyinə inanırlar. Elm bunları inkar edir, ancaq darvinistlər üçün bunlar inkaredilməz həqiqətlərdir.

Darvinizm cəfəngiyyat və yalanlar üzərində qurulmuş qədim şaman dinidir. İslama qarşı bu şirk dini gətirilmişdir.

Darvinist şaman dininə görə, torpaq, su, daş, qaya eşidir, hiss edir, qoxulayır, rəngləri qavrayır.

Darvinizm dininin əsasını elmə və ağıla zidd olan batil təsadüf inancı təşkil edir. Əslində, insan ağılla düşünsə, heç bir kompleks canlının öz-özünə, təsadüfən əmələ gəlmədiyini, mütləq şüurlu planın məhsulu olduğunu anlayar. Ancaq eynilə öz əlləri ilə düzəltdikləri bütlərə sitayiş edən bütpərəstlər kimi darvinistlər də saxta tanrılara inanırlar.

Darvinistlərin qəbul etdiyi batil inancla qədim bütpərəstlərin inancları bir-birinə çox bənzəyir. Bütpərəstlər cansız bütlərin bütün varlıqları yaratdığına inandıqları kimi, təkamülçü və materialistlər də cansız maddənin bəzi təsadüflər nəticəsində bütün canlıları və onların özlərini yaratdığına inanırlar (Allahı tənzih edirik).

Şagirdlərə biologiya adı altında darvinist şaman dininin öyrədilməsi qəbuledilməzdir. Bu dindən təmizlənmiş elm sahəsi olaraq biologiya təhsili verilməlidir.

İftira, hədə-qorxu ilə təkamül sübut edilə bilməz. Bir dəlil varsa, ortaya qoyular, beləliklə, hər kəs doğru ilə yanlışı asanlıqla anlayar.

Təkamülçülərin əllərində nəzəriyyələrini dəstəkləyən fosil varsa, onu göstərməlidirlər. Bunu etmirlərsə, təkamülü müdafiə etməkdən əl çəkməlidirlər. Ara fosil yoxdur, çünki belə bir şeyin olması qeyri-mümkündür. Tapılan yüz milyon fosilin hamısı yaradılışı sübut edir. Təkamül iddiasını dəstəkləyən bircə dənə də ara keçid forması olan fosil yoxdur. Darvin özü əgər ara keçid forması, fosil yoxdursa, nəzəriyyəsinin əsassız olduğunu söyləmişdir.

Bu günə qədər təkamülçülərin göstərdiyi hər fosil saxta və ya etibarsız olmuşdur. Məsələn,



Piltdaun adamı fosili saxta çıxmış, Nebraska adamı fosilinin, əslində, donuz dişi olduğu məlum olmuş, Latimeriya (Coelacanth) fosilinin normal balıq olduğu üzə çıxmışdır. İnsanın təkamülü hekayələrinə dəlil kimi göstərilən bütün kəllə sümükləri və sümük parçalarının bügünkü insanlara və ya keçmişdə yaşamış, ancaq nəsli kəsilmiş meymun növlərinə aid olduğu sübut edilmişdir.

## Elmi faktlar darvinist şaman dininin iddialarını təkzib edir

Darvinist şaman dininə əsasən, ilk canlı öz-özünə əmələ gəlmişdir.

Müasir elmə əsasən, canlılar təsadüfən əmələ gələ bilməz. Nəinki bir canlı, bircə canlı hüceyrə, hətta bircə zülal belə təsadüfən əmələ gələ bilməz. Bir zülalın təsadüfən əmələ gəlmə ehtimalı $10^{950}$-də 1-dir. Bu isə sıfır ehtimal deməkdir.

## Darvinist şaman dininə əsasən, canlılar bir-birlərindən əmələ gəliblər

Müasir elmə əsasən, canlılar bir-birlərindən əmələ gələ bilməzlər. Hər canlının özünəməxsus xüsusiyyəti var. Bu xüsusiyyətlərin başqa bir canlıya çevrilərkən yavaş-yavaş dəyişməsi qeyri-mümkündür.

## Darvinist şaman dininə əsasən, fosillər təkamülü dəstəkləyir

Müasir elmə əsasən, fosillər təkamülün deyil, yaradılışın dəlilidir. Bu günə qədər təqribən 350 milyon fosil tapılmışdır. Bunların hamısı mükəmməl canlılara aiddir. Canlıların təkamül keçirdiyini göstərən heç bir fosil yoxdur.

## Darvinist şaman dininə əsasən, canlılar mutasiyalarla müxtəlifləşmişdir.

Müasir elmə əsasən, mutasiyalar canlıları məhv edir, canlıları fərqli etmir. Ya öldürür, ya da şikəst edir.

Darvinist şaman dininə əsasən, insanlar meymunabənzər varlıqlardan əmələ gəliblər.

Müasir elmə əsasən, meymunlar və insanlar ayrı-ayrı canlılardır. Bir-birləri ilə heç bir nəsil əlaqələri yoxdur. Fiziki bənzərliklərlə bərabər təkamülçü iddialarla açıqlana bilməyən çox böyük fərqləri var.

## Darvinist şaman dininə əsasən, təbii seçmə təkamülə dəlildir.

Müasir elmə əsasən, təbii seçmə təbiətdə mövcud olan sistemin bir hissəsidir. Bir canlını təkmilləşdirmir və yeni canlılar meydana gətirmir.



# Şeytanın GÜCÜ ZƏİFDİR

Unutmaq olmaz ki, şeytanın Allahdan müstəqil gücü yoxdur. Şeytanı Allah yaratmışdır və Onun idarəsi altındadır. Düşmənçiliyi yalnız insana qarşıdır.

Şeytanın Allahdan müstəqil gücə sahib olduğunu düşünənlər isə yanılırlar. Bu insanlar şeytanın Allaha qarşı mübarizə apardığını zənn edirlər. Nəticə etibarilə, o da Allahın yaratdığı bir varlıqdır və Onun izni ilə fəaliyyətini davam etdirir. Ona verilən möhlət bitəndə cəzasını çəkmək üçün azdırdığı insanlarla birlikdə cəhənnəmə atılacaq.

**Mən cəhənnəmi səninlə və sənə tabe olanların hamısı ilə dolduracağam! (Sad surəsi, 85)**

Unutmamaq lazımdır ki, şeytanın möminlər üzərində gücü yoxdur. Şeytanın gücü yalnız Allahın müəyyən etdiyi, daha doğrusu, cəhənnəm üçün xüsusi olaraq yaratdığı insanlar üzərində etibarlıdır.

Şeytan Allahın mömin olaraq yaratdığı bir qulu əsla sapdıra bilməz. Yalnız möminin dünya həyatındakı imtahanın tələbi olaraq kiçik səhvlər etməsinə səbəb ola bilər. Şeytanın təsiri yalnız qəlblərində xəstəlik olanlar üzərindədir. Bu həqiqət Quranda belə bildirilir:

**Şübhəsiz ki, şeytanın iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)**

Bir başqa ayədə möminlərin şeytan tərəfindən azdırılmayacaqları belə bildirilmişdir.

**Əslində, Mənim (ixlaslı) qullarım üzərində sənin hökmün olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər. (İsra surəsi, 65)**

Şeytan da yaradılmış bir varlıq olduğuna görə, hər şeydə olduğu kimi, onun yaradılışında da sonsuz hikmət var. Şeytanla birlikdə böyük bir insan kütləsinin cəhənnəmə sürüklənməsi qiyamət günü möminlərin Allaha şükürlərini, cənnətə duyacaqları sevinc hissini artıran bir ünsürdür.

Şeytan, eyni zamanda, mömin birliyin içində gizlənən münafiqlərin ortaya çıxmasını təmin edir. Bu insanları təsiri altına alaraq, möminlər əleyhinə fəaliyyət göstərmələrinə səbəb olur. Beləliklə, münafiqlər mömin birliyi içində gizlənə bilməyərək özlərini ifşa etmiş olurlar. Möminlər də onlara sığınmağa çalışan bu qrupu asanlıqla təsbit edirlər. Şeytanın fəaliyyətlərinin və münafiqlər üzərindəki təsirinin fərqinə varan möminlərin (Quranda keçən bir ayənin təcəllisini gördükləri üçün) imanları və Allaha yaxınlıqları artır:

# Əslində, Mənim (ixlaslı) qullarım üzərində sənin hökmün olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər. (İsra surəsi, 65)

**(Allah ona görə belə edir ki) Şeytanın vəsvəsəsini qəlblərində mərəz və ürəkləri qatı olanlar üçün bır sınaq vasitəsi etsin. Şübhəsiz ki, zalımlar haqqdan uzaq bir nifaq içindədirlər. Və elm verilən kəslər də bilsinlər ki, haqq sənin Rəbbindəndir. Artıq ona inansınlar və ürəkləri ondan arxayın olsun. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər! (Həcc surəsi, 53-54)**

Bu, mömin birliyinin içində bir növ təmizlik mənasını verir. Allahın şeytana möhlət verməsinin hikmətlərindən biri də budur. Allah bu vəziyyəti Quranda belə açıqlayır:

**İblisin onlar barəsindəki ehtimalı doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları onun toruna düşdülər. Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün (şeytana) belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 20-21)**

Cahiliyyə cəmiyyətinin bilmədiyi başqa bir məqam isə şeytanın hökmranlıq gücünün olmamasıdır. O, insanı yalnız dəvət edir. Əgər bir insanın qəlbində xəstəlik varsa, bu çağırışa tabe olar. Yoxsa şeytanın insanlar üzərində elə bir təsirli gücü yoxdur. Ona uyanların, hətta tapınanların hamısının, əslində, nə qədər böyük qəflət içində olduqlarını bilir. Şeytanın qiyamət günü edəcəyi etiraf ayədə belə xəbər verilir:

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin (vədimə) xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi (azğınlığa) dəvət etdim, siz də (dəvətimi) qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni (Allaha) şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün üzücü bir əzab hazırlanmışdır. (İbrahim surəsi, 22)**



# Dinsizliyin yanlış təlqini:
# SABİT FİKİRLİ OLMAQ

İnkarçıların Quranı dinləməmələrinin, ondan qaçmalarının səbəblərindən biri də yanlış və sabit fikirli olmalarıdır. Özlərindən əvvəlki nəsillərdən öyrəndikləri məlumatlar və yanlış adət-ənənələr, cəmiyyətdə gördükləri düşüncə tərzi bu insanların həyata baxışında mühüm rol oynayır. Hər hansı bir kiçik dəyişiklik və ya yenilik onların etirazına səbəb olur. Hətta yeniliklə, dəyişikliklə, haqla gələn insanlara qarşı təcavüzkar, qəzəbli olmalarının səbəbi də bu yanlış və sabit fikirləridir.

Bu yanlış fikir bir pərdə kimi insanların bir-birlərini dinləmələrinin və görmələrinin qarşısını alır. Allaha iman gətirməyə dəvət edilən bu tip insanların cavabları "Fussilət" surəsində belə bildirilir:

**Ayələri Quran kimi ərəbcə müfəssəl izah edilmiş, bilən camaat üçün bir Kitabdır. O, həm müjdə verən, həm də xəbərdar edəndir. Lakin onların çoxu üz çevirib söz eşitməzlər. Onlar deyirlər: "Sənin bizi dəvət etdiyinə qarşı qəlbimiz qapalıdır, qulaqlarımızda tıxac vardır, bizimlə sənin arana pərdə çəkilmişdir. Sən işində ol, biz də öz işimizdə olacağıq!" (Fussilət surəsi, 3-5)**

Əslində, insan Qurana dəvət edilərkən batil, səhv düşüncələrindən uzaqlaşmaq fürsəti əldə edir. Belə bir vəziyyətdə bu dəvəti edəni dinləmək, dəvət etdiyi haqq kitabı oxumaq və düşünmək daha doğru olar. Vicdanlı insan doğrunu gördüyü andan öz fikirlərini tərk edəcək.



Yanlış və sabit fikirli olmaq insanı ağıllı və məntiqli düşünməyə qoymur. Üstəlik, burada bəhs etdiyimiz mövzu hər insanın borcudur. Quran hər insanın qurtulmaq üçün təslim olacağı yeganə kitabdır. Hər hansı bir mövzunu dinləmədən, oxumadan, düşünüb qiymətləndirmədən rədd etmək ancaq sabit fikirli, dar dünyagörüşlü, yeni düşüncələrə bağlı olan insanların davranışıdır. Amma Allahın insanlara göndərdiyi təhrif edilməmiş son haqq kitab olan Quranı dinləməmək, ayələri oxumamaq sadaladığımızdan daha ciddidir. İnsanın hər hansı bir həyati mövzuda yanlış fikirdə olması bəlkə ona böyük zərər verməz, amma Allahın əmrlərini dinləməmək mövzusunda sabit fikirlilik insanı cəhənnəmə aparan çox ciddi təhlükədir. Hər bir insan belə vəziyyətə düşməkdən çəkinməlidir.

Bundan başqa, insanın fitrətində daim mükəmməlik axtarmaq xüsusiyyəti var. Daha gözəl fikir, daha gözəl düşüncə insanı həmişə özünə cəlb edir. Ancaq dinsizlik insanın yaradılışına uyğun olmayan sabit fikirliliyi məqbul göstərir və insanın köhnəlmiş fikirlərinə bağlı qalmasına səbəb olur. Hadisələri olduğu kimi mühakimə etməyə izn vermir, köklü dəyişikliklər etməyə qoymur.

Bu dünyagörüşünü metroların, təyyarələrin, gəmilərin, inkişaf etmiş nəqliyyat vasitələrinin olduğu halda, başqa qitəyə at arabası ilə getmək istəyən insanın vəziyyətinə bənzətmək olar. Necə ki, bu insanın inadkar davranışı onu texnologiyanın nemətlərindən məhrum edirsə, eləcə də yanlış və sabit fikirli insan bütün çətinlikləri özünə tərəf çəkir, gözəllik və rahatlıqdan məhrum olur.

İnsanların yanlış və sabit düşüncələri sadəcə dinə baxışları ilə məhdudlaşmır, bütün həyat tərzlərində özünü göstərir. Evlərinin dekorasiyasında dəyişiklik etməmək, yeni texnoloji məhsullara qarşı ön mühakiməli yanaşaraq bu məhsullardan istifadə etməmək, eyni cür geyinmək, eyni yeməkləri yemək, eyni cür əylənmək, eyni zarafatları etmək bu yanlışlıqlardan sadəcə bir neçəsidir. Bu sabit fikirlilik düşüncə formalarını da öz təsiri altına alır. Buna görə, səhv olsa da, eyni fikri müdafiə edir, eyni doğrulara və yanlışlara sahib olurlar. Bu qaydalar ucbatından müstəqil və rahat düşünə bilmir, yeni fikirləri müdafiə edən kitabları oxumur, yeniliklərdən zövq almır, həyatlarını yaxşılaşdırmağa cəhd etmirlər.

Buna misal olaraq materialist və kommunist fəlsəfəni mənimsəyən insanları göstərə bilərik. Onları dərhal tanımaq mümkündür. Geyim stilləri, saç formaları, danışıq üslubu illərdən bəri dəyişməmişdir. Əsrlər keçsə də, keçmiş fikirləri müdafiə edir, bu fikirləri doğru kimi göstərir, öz təcrübələrini hər yerdə nümunə göstərirlər.

Karl Marksın "Kapital"ını, Çarlz Darvinin "Növlərin mənşəyi"ni və ya Maonun "Qızıl kitab"ını illərlə özlərinin stolüstü kitabı edir, bu kitabları təkrar-təkrar oxuyur, altından xətt çəkir, əzbərləyirlər. Bu kitablardakı "dövriyyədən çıxmış" məlumatları israrla





müdafiə edir, çatışmazlıq və ya səhv olma ehtimalını belə qəbul etmirlər. Dünyada baş verən hadisələri və elmi inkişafı izləmədiklərindən bu kitablarda olan məlumatları "doğru və elmi" zənn edirlər. Səbirlə Marksın XIX yüzilliyin qaranlıq səhifələrində qalmış fikirlərinin və utopiyasının həyata keçməsini gözləyir, XX əsrin əvvəllərində elmi tərəqqi qarşısında süqut edən Darvinin iddialarının doğru olduğunu zənn edirlər. Sadəcə özləri kimi düşünənlərlə görüşür, illərlə eyni qəzeti oxuyur, eyni filmlərə baxırlar. Ən çox dedikləri isə "mən dəyişməmişəm, bundan 40 il əvvəl nəyi müdafiə edirdimsə, indi də onu müdafiə edirəm" sözüdür. Ancaq unutmaq olmaz ki, bu söz ancaq mütləq doğruları müdafiə edən insan tərəfindən söyləndiyi zaman məqbul sayılır.

Dəyişikliyə, yeniliyə qarşı çıxmaq, müxtəlif fikirləri dinləmədən rədd etmək bu insanların qürur hesab etdikləri anlayışdır. Öndər hesab etdikləri Marks, Mao və ya Darvin kimilərin dinə qarşı sözlərinə o qədər inanırlar ki, bu sözdən dönməmək üçün Quran və Quran əxlaqından bəhs edən kitabları oxumaqdan çəkinirlər. Belə kitabları oxumağın onlara zərər verəcəyini düşünürlər.

Halbuki Quran əxlaqına dəvət edilmələri bu insanların keçmiş təcrübələrindən dərs almaları, səhvlərindən nəticə çıxarmaları, daha gözəlini, daha yaxşını axtarmaları sabit fikirlərindən qurtulmaları üçün fürsətdir. Ancaq yanlış fikirləri ucbatından onlara məsləhət verən insanları aşağı səviyyəli görür, səmimi, xoş niyyətli təklifi düşünmədən rədd edir, korkoranə bağlandıqları inanclarından əsla vaz keçmirlər.

Niyə hər cür yeni məlumata, yeni fikrə, yeni anlayışa və ya elmi həqiqətə qarşı çıxan bu insanlar yanlış və sabit fikirlərindən dönmürlər? Məhz burada şeytanın insanlar üzərindəki təsiri qarşımıza çıxır. Şeytan inkar edənlərə gördükləri işləri gözəl göstərib, onları doğru yolda olduqlarına inandırmışdır. Vicdanlarının səsini dinləməyənlər və Qurandan qaçan bu insanlar şeytana aldanmışlar. Ayədə bu şəkildə bildirilmişdir:

**... Şeytan onlara etdikləri əməlləri gözəl göstərib onları haqq yoldan çıxartdı. Halbuki onlar gözüaçıq adamlar idilər. (Ənkəbut surəsi, 38)**



Doğruları görən, mənfi cəhətlərinin fərqinə varan bu insanlar şeytanın təsiri ilə sonradan görməyən, həqiqətlərə qulaq tıxayan insanlara çevrilirlər. Həqiqətən də, bu tip insanla danışmaq, xəbərdarlıq etmək və ya fikir mübadiləsi aparmaq mümkün deyil. Çünki onlar öz fikirlərini paylaşmayan insanları dinləməyə, onların sözlərinə qulaq asmağa və onların tənqidinə dözə bilməzlər.

Ağıllı, vicdanlı, düşünməyi bacaran bir insan rahat şəkildə qüsurlarını görə bilir, lakin sabit fikirli insan isə özünü kənardan izləyib dəyər verə bilmir. Bu insanların ən vacib xüsusiyyəti sabit fikirləri ilə öyünmələri, illərlə dəyişməyən düşüncə sistemləri və həyat tərzləri ilə qurur hissi keçirmələridir.

Allahın **"şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. (Zuxruf surəsi, 37)"** ayəsi ilə bildirdiyi kimi, bu insanlar doğru yolda olduqlarını zənn edirlər. Amma heç də düşündükləri kimi deyil. Hesab günü düşünmək, xatırlamaq və peşman olmaq haqdan üz çevirən insanlara bir fayda verməz. Ayədə bu şəkildə bildirilir:

**Və o gün cəhənnəm gətiriləcək. O gün insan xatırlayacaqdır. Lakin xatırlamanın ona nə faydası? (Fəcr surəsi, 23)**



# İNŞAALLAH və MAŞAALLAH sözlərində xüsusi sirr var

***“İnşaAllah” və “maşaAllah” sözlərinin çox zikr edilməsində xüsusi sirr nədən ibarətdir?***
***“İnşaAllah” və “maşaAllah” sözlərini lazım olduğunda söyləmək nə üçün əhəmiyyətlidir?***
***Adnan Oktarın bu mövzudakı şərhləri nədən ibarətdir?***

Rəbbimiz sonsuz mərhəmət sahibidir. Həyatları boyu onlara bənzərsiz nemətlər lütf edir. Fiziki nemətlərlə bərabər, çox saylı mənəvi nemətlər də verir: səhvlərini bağışlayır, tövbələrini qəbul edir, onları qoruyur, pisliklərini örtür, hidayətlərini artırır, doğru yola yönəldir. Allah hər şeyi möminlərin lehinə edir və onları müxtəlif yollarla dəstəkləyir. Quranda keçən “inşaAllah” və “maşaAllah” sözlərində də belə böyük, dərin məna və rəhmət var.

## “İnşaAllah” və “maşaAllah” Allahı zikr edən və şirkin qarşısını alan sözlərdir

Kamil imanda mütləq Allaha qarşı təslimiyyət var. Bu zaman insan bir saniyə belə səhvə yol verməməyə çalışır. Allaha etibarında əskiklik hiss etdiyi və ya Allahdan başqa köməkçilər axtardığı anda bunun şirk olacağını bilir. Bu səbəbdən, kamil imana sahib olan mömin yalnız Allaha rəğbət bəsləyir, bir tək Ona güvənir. Çünki Allahın hər şeyə hakim olduğunu, hər şeyə gücünün yetdiyini, Allahın izni olmadan bir yarpağın belə yerə düşmədiyini bilir. Buna görə, hər hansı bir hadisədə kömək istənəcək yeganə varlığın Allah olduğunun fərqindədir. Onu vəli etmişdir. Allahdan başqa heç kimə ehtiyacı yoxdur. Çünki baş verən hər hadisənin Allahın izni ilə reallaşdığının fərqindədir. Kamil imana sahib bir insan həyatının hər anında bu şüurla hərəkət edir. Bu səbəbdən, “inşaAllah” sözündən istifadə edir və hər şeyin Allahın izni və Allahın qədərdə yaratması ilə reallaşdığını zikr edir. Əgər kimsə: “Sabah mən bir iş görəcəyəm”, -desə və bunu Allahın yaradacağını unutsa, bu, şirk olar. Amma: “İnşaAllah, Allahın diləməsilə, Allahın qədərdə yaratması ilə edəcəm”, -desə, Allahın izni ilə ən böyük günah olan şirkdən xilas olar. Digər tərəfdən, əgər hər hansı bir şəxs bir gözəllik görsə, bu gözəlliyi Allahın yaratdığını düşünmədən: “Nə qədər gözəldir”, -desə, ona



ilahlıq vermiş olar (Allahı tənzih edirik). Lakin, eyni zamanda, “Allah nə gözəl yaratmışdır” mənasını verən “maşaAllah” sözünü desə, şirkdən qorunmuş olar. Bu səbəblə, “inşaAllah” və “maşaAllah” axır zamanda şirki ortadan qaldıran və Allahın zikri olan çox əhəmiyyətli sözlərdir. Hikmət sahibi olan Allah bu iki sözün şirkdən xilas olmağın açarı olduğunu “Kəhf” surəsində belə bildirmişdir:

**Heç bir şey barəsində: “Mən onu sabah edəcəyəm!”– demə! Ancaq: “Əgər Allah istəsə!” (“inşAllah”, -de!) Unutduğun zaman Rəbbini yada salıb: “Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin”, – de. (Kəhf surəsi, 23-24)**

**Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: “MaşAllah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!”– deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa (Kəhf surəsi, 38-39)**

## Adnan Oktar “inşaAllah” və “maşaAllah” zikrlərinin şirki ortadan qaldırdırdığını izah edir:

ADNAN OKTAR : *“Bir işə başlayanda, sabah hər hansı bir şeyi etməyi düşünəndə: “inşaAllah deyin”, -deyir Allah. Yəni “Allahın izni ilə”, “Allahın diləməsi ilə”. “İnşaAllah” bir zikrdir. “La ilahə illəllah” kimi, “sübhanAllah” kimi, “Allahu əkbər” kimi, “Əlhəmdülillah” kimi bir zikrdir. Allahı zikr etməkdir. Başqa sözlə, bərəkətlidir. “İnşaAllah”ı, “maşaAllah”ı çox istifadə edənlər dünyaya hakim olacaqlar axırzamanda. Hz. Mehdi (ə.s) tələbələrinin xüsusiyyətidir. Sirli sözdür, sirli cümlədir. Kəhf əhlinin də xüsusiyyətidir. Axırzamanın xüsusiyyətidir. Bir şey gördüyümüzdə: “MaşaAllah, Allah nə gözəl yaratmışdır”, -deyirik. Beləcə, şirkdən xilas olmuş oluruq. “İnşaAllah” da Allahın izni ilə, Allahın yaratması ilə, Allahın qədərdə yaratması ilə. Hər ikisi də antişirk sözlərdir, “İnşaAllah” və “maşaAllah” şirkə zərbədir. Şirki darmadağın edən iki sözdür. “Nur” surəsində Allah Allaha şirk qoşmayanların dünyaya hakim olacağını*

*söyləyir. İndi: "Sabah mən bir şey edəcəyəm", -desəm, əgər Allahı unudaraq söyləsəm, Allahın yaradacağını unutsam, bu, şirk olar. Amma: "İnşaAllah, Allahın diləməsilə, Allahın qədərdə yaratması ilə edəcəyəm", -desən, şirkdən xilas olmuş olarsan. Müşrik olmazsan. Bir də bir şeyə: "Nə qədər gözəldir", -desən ona ilahlıq vermiş olarsan. Amma: "Allah nə gözəl yaradıb", -desən, şirkdən xilas olmuş olarsan. "İnşaAllah" və "maşaAllah" axırzamanda şirki dağıdan Allahın iki zikridir. Bu iki zikr şirki dağıdır. Bütü dağıdır, inşaAllah... (17 İyun 2010, Kahramanmaraş Aksu TV və Kaçkar TV)*

## "İnşaAllah" və "maşaAllah" sözləri İslam əxlaqının dünya hakimiyyətinin açarıdır

Quran əxlaqının dünyaya hakim olması Qurani-kərimdə xəbər verilən, Peyğəmbərimizin (s.ə.v) hədislərində bildirdiyi, İslam alimlərinin də əsərlərində yer verdiyi böyük müjdədir. Peyğəmbərimiz (s.ə.v) Allahın hz. Mehdi (ə.s) vasitəsilə İslam əxlaqını bütün dünyaya hakim edəcəyini bildirmişdir. Hz. Mehdinin (ə.s) Allahın izni ilə, axırzamanda ortaya çıxacağı və İslam əxlaqını yer üzünə hakim edəcəyi Peyğəmbərimizin (s.ə.v) bir hədisində belə xəbər bildirilir:

*"Qiyamətin qopması üçün zamanda yalnız bir gündən başqa vaxt qalmasa belə, Allah (c.c) mənim əhli-beytimdən bir şəxsi (Mehdini) göndərəcək. O, zülmlə dolan yer üzünü ədalətlə dolduracaq".* (Sünəni-Əbu Davud, 5/92)

Peyğəmbərimiz (s.ə.v) bir başqa hədisində isə hz. Mehdi (ə.s) və tələbələrinin "inşaAllah" və "maşaAllah" sözlərini çox söyləyəcəyini bildirmişdir:

***"ONLARDAN BİRİ BİR İŞ GÖRMƏK İSTƏYƏNDƏ: "İNŞAALLAH", -DEYƏR".***

Peyğəmbərimiz (s.ə.v) bu iki sözü zikr edənlərin dərin Allah eşqi və kamil imana sahib olduqlarına diqqət çəkmişdir:

***"İNSANLAR ÜÇÜN: "İNŞAALLAH", -DEMƏKDƏN DAHA FƏZİLƏTLİ İTAƏT YOXDUR".***

***"İNŞAALLAH"I ÇOX SÖYLƏMƏK İNSANIN İMANININ GÖZƏLLİYİNDƏNDİR".*** (İsmail Hakkı Bursevi, Şuabu'l İman), (C.Sağir, 2; 50)

Hz. Mehdi (ə.s) və tələbələri gördükləri bütün işlərin Allahın izni ilə reallaşdığını bildikləri üçün həmişə:



"İnşaAllah", -deyərlər. İşlərində qazandıqları müvəffəqiyyətin əsl sahibinin Allah olduğunu unutmazlar. Bu səbəbdən də, həmişə Allahı ucaldaraq: "MaşaAllah", -deyərlər. Ayrıca, imanlarının dərinliyi və Allahın isimlərini tanıyıb Ondan qorxduqları üçün tez-tez bu sözləri zikr edərlər. Onların şirkdən uzaqlaşmaları və Allaha eşqlə bağlanmaları Allahın iznilə İslam əxlaqının bütün dünyaya hakim olmasına səbəb olacaq.

İnşaAllah" və "maşaAllah" sözlərinin keçdiyi "Kəhf" surəsi İslam əxlaqının dünya hakimiyyətinə işarə edir:

"Kəhf" surəsi dünya hakimiyyəti və Mehdiyyətdən bəhs edən surədir. Çünki "Kəhf" surəsinin sıra nömrəsi ilə ayə sayının hasilindən 1980 rəqəmi əldə edilir:

"Kəhf" surəsi 110 ayədən ibarətdir və 18-ci surədir.

**110x18=1980**

1980-cı il isə hz. Mehdinin (ə.s) çıxış tarixidir. Bu iki sözün "Kəhf" surəsində yalnız bir ayədə keçməsi Allahın "inşaAllah" və "maşaAllah" sözlərində gizlədiyi dünya hakimiyyətinə işarədir (Doğrusunu Allah bilir). Digər tərəfdən, "maşaAllah" sözü – şəddəsiz 1987, şəddəli 2016 "inşaAllah" sözü – şəddəsiz 1997, şəddəli 2027 tarixlərini verir.

## Hər iki tarix İslam əxlaqının dünya hakimiyyətinə baxan tarixlərdir.

Adnan Oktar "inşaAllah" və "maşaAllah" zikrinin hz. Mehdinin (ə.s.) tələbələrinin əlaməti olduğunu və bu zikri edənlərin dünyaya hakim olacağını izah edir:

ADNAN OKTAR: *"maşaAllah" sözü şəddəsiz 1987-yə, şəddəli 2016-ya baxır. "İnşaAllah" sözü şəddəsiz 1997, şəddəli 2027-yə, yəni dünya hakimiyyətinə baxır. "inşaAllah" və "maşaAllah" dedikcə, dünya hakimiyyəti addım-addım irəliləyər. Müəyyən sayı var "inşaAllah" və "maşaAllah" zikrinin. O saya çatanda hakimiyyət də olacaq, inşaAllah. Onun üçün bol-bol "inşaAllah" və "maşaAllah" söyləsinlər qardaşlarımız. Peyğəmbərimiz (s.ə.v) deyir ki: "Bir insanın bütün sözlərində: "İnşaAllah", -deməsi, onun imanının kamalındandır". Kamil imanındandır: "İnşaAllah", -deməsi. "İnsanlar üçün: "İnşaAllah", -deməkdən daha fəzilətli itaət yoxdur", -buyurur Peyğəmbərimiz (s.ə.v). "inşaAllah", "maşaAllah" addım-addım İslama, ittihadi-İslama yaxınlaşma deməkdir. Hər dediyində bir addım daha yaxınlaşarsan. Allahın nəzərdə tutduğu bir limit var, o limit dolana qədər, o dolanda tamamdır, inşaAllah.* (20 mart 2011, kanal Avropa və Çay TV)

ADNAN OKTAR: ***O zikri edənlər dünyaya hakim olacaqlar, inşaAllah. O zikri bol-bol edənlər dünyaya hakim olacaqlar. Hz. Mehdi (ə.s) tələbələrinin möhürüdür "inşaAllah", "maşaAllah". Biz də hz. Mehdi (ə.s) tələbələri olduğumuz üçün bizim möhürümüzdür "inşaAllah", "maşaAllah".*** (20 avqust 2011, A9 TV)

Axırzamanın iki dəyərli şəxsi hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) "inşaAllah" və "maşaAllah" sözlərini çox zikr edəcəklər

Hz. İsanın (ə.s) adının ilk hərfi olan "i" "inşaAllah" zikrindəki "i" hərfinə, hz. Mehdi (ə.s) adının baş hərfindəki "m" isə "maşaAllah" sözünün ilk hərfinə işarədir. Bu, şübhəsiz, Allahın yaratdığı mükəmməl sirdir. Çünki axırzamanda İslam əxlaqının dünya hakimiyyətinə səbəb olacaq bu dəyərli şəxslər və "inşaAllah" və "maşaAllah" zikrinin hər kəs tərəfindən çox ifadə edilməsinə səbəb olacaqlar.

Bu qiymətli şəxslərdən hz. İsa (ə.s) "inşaAllah" sözünü öz möcüzələrində tez-tez zikr edəcək. Bu həqiqət Quranda belə bildirilmişdir:

**(Allah onu) İsrail oğullarına bir elçi edəcəkdir. (O deyəcəkdir:) "Mən sizə Rəbbinizdən (elçi olduğumu təsdiqləyən) bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri diriləldərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır. (Ali İmran surəsi, 49)**

Hz. Mehdi (ə.s) isə Allahın təcəllisi olaraq gördüyü hər gözəllik qarşısında Allaha olan dərin eşqi və imanından Allahı zikr edib ucaldacaq və "maşaAllah" sözünü tez-tez zikr edəcək.

Adnan Oktar "inşaAllah" və "maşaAllah" zikrindəki sirri izah edir:

ADNAN OKTAR: ***Əvvəla, "inşaAllah", "maşaAllah" o bölgəyə gələcək fəlakətin qarşısını alar. İkincisi, dünya hakimiyyətinin açarıdır. Hz. İsa (ə.s): "inşaAllah", -deyirdi, ölünü qaldırırdı. "İnşaAllah", -deyirdi, üzünə sürtürdü, xəstənin üzünə, müalicə olurdu mərəz xəstəliyi. "İnşaAllah", -deyirdi, gözə sürtürdü, kor göz açılırdı. Hz. Mehdi (ə.s) də maşaAllah. "M" hərfi. Hz. Mehdi maşaAllah "m" hərfi ilə başlayır, hz. İsa da "i" hərfi ilə. Hz. İsaya (ə.s) işarə edir. "inşaAllah" və "maşaAllah", bu ikisi dünya hakimiyyətini təmin edəcək, inşaAllah. Hz. Mehdi (ə.s) də gözəlliyin qarşısında: "MaşaAllah", -deyər. Gözəllik görər: "MaşaAllah",***

***-deyər. Allahın təcəllisini görər: “MaşaAllah”, -deyər. Hz. İsa (ə.s) da deyər, amma hz. Mehdiyə (ə.s) işarədir. “İnşaAllah”, “maşaAllah” dünya hakimiyyətinin açarıdır. O titrəmə, inşaAllah-maşaAllahın titrəməsi dünya hakimiyyətini təmin edir. Allah onu vəsilə edir. Fəlakət gəlmir, hikməti budur. (10 noyabr 2011, A9 TV)***

“MaşaAllah” Allahın yaratmasındakı üstün sənətini və qüdrətini izah etmək üçün ifadə edilən zikrdir. Bu səbəbdən, möminlər “maşaAllah” zikri ilə Rəbbimizi tez-tez təsbih edirlər. Bu sözləri ürəkdən hiss edərək söyləmək ətrafdakı insanlara hər şeyin sahibinin Allah olduğunu xatırladır. Hər şeyi edənin Allah olduğunu tez-tez xatırlatmaq isə, şübhəsiz, insanlara çox böyük fayda verər. Çünki insan öz acizliyini unutmağa və qəflətə düşməyə meyillidir.

## “İnşaAllah” sözündə müsəlmanlar üçün böyük şəfa var

Qədər (tale) Allahın keçmişdə yaşanan və gələcəkdə yaşanacaq bütün hadisələri bilməsidir. İnsanların əksəriyyəti isə Allahın hələ yaşanmamış hadisələri əvvəlcədən necə bildiyini soruşur və qədəri qavraya bilmirlər. Halbuki yaşanmamış hadisələr bizim üçün yaşanmamışdır. Allah isə zamana və məkana bağlı deyil, hər şeyi bir anda yaradan Odur. Buna görə, Allah üçün keçmiş, gələcək və bu an - hamısı birdir və hamısı olub-bitmişdir. Biz xətkeşin əvvəlini, ortasını, sonunu və aralarındakı bütün vahidləri tam və bir anda asanlıqla görə bildiyimiz kimi, Allah bizim bağlı olduğumuz zamanı əvvəldən sona qədər bilir. İnsanlar isə yalnız zamanı gələndə bu hadisələri yaşayır, Rəbbimiz Allahın onlar üçün yaratdığı qədərə şahid olurlar. Bunun əksini iddia etmək, yəni gələcəyə dair planlarının mütləq reallaşacağını qarşıya qoymaq Allaha qarşı təkəbbürlənmək deməkdir. Lakin “inşaAllah” zikri ilə bir işə niyyət etmək, hər şeyin Allahın idarəsində olduğunun xatırlamaq və ancaq Allahın diləməsi ilə reallaşacağını bilmək insan üçün böyük şəfadır.





# AZ SAYDA MÖMİN ÇOX SAYDA İNKARÇIYA QALİB GƏLƏ BİLƏR

İman gətirənlər üçün Allahın yaratdığı möcüzələrdən biri də sayılarının az olmasına baxmayaraq, Allahın iznilə, daima üstün gəlmələridir. Bu, Allahın bir çox ayədə bildirdiyi mühüm sirdir və inkar edənləri aldadır. Quranda Talut qissəsindən də göründüyü kimi, Allah iman gətirənlərə itaət etdiklərinə görə, az sayda olmalarına baxmayaraq üstün mövqe bəxş etmiş, zəfər nəsib etmişdir. Allah Talut qissəsinin sonunda bu ayəni xatırladır:

**"Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. (Bəqərə surəsi, 249)**

## Səbir etmək möminlərə böyük güc qazandırır

Allahın Quranda bildirdiyi bir çox ayədə sirlər gizlənmişdir. Bu sirlərdən biri də səbirlə əlaqədardır. Allah səbir edənlərin gücünün artacağını müjdələyir. Unutmaq olmaz ki, dünyadakı güc və imkan tamamilə Allaha aiddir. Allaha qarşı olan insanın gücü belə, əslində, Allahın gücüdür. Allah o insanı və digərlərini sınamaq üçün o insanda güc yaradır, istədikdə o gücü ondan alır. Buna görə, Allah istədiyinə istədiyi zaman güc və qələbə bəxş edir. Allah ayədə səbir edənlərin güclü olacağını, yəni o insanlara güc qazandıracağını bildirir. Bununla bağlı ayələrdən biri belədir:

**Əlbəttə, siz səbir etsəniz, (Allahdan) qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər. (Ali-İmran surəsi, 125)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi, Allah istəsə, insanları görünməyən yollarla dəstəkləyərək zəfər nəsib edə bilər. Məsələn, bir insan Allahın dinini müdafiə edərkən Allah onu görünməyən yollarla dəstəkləyib ən gözəl və ən hikmətli şəkildə danışdırır, onun söhbətinə qarşı insanların qəlbində təsir və həssaslıq yaradır. Ona görə də uğur, zəfər, təsir insana aid deyil. İnsan Allahın əmrlərinə tabe olmalı, Onun hədlərini qorumalıdır. Bütün qələbələrin, uğurların və qəlblərdəki təsirin sahibi Allahdır. Allah başqa bir ayədə isə möminlərə böyük güc qazanmağın yollarını öyrədir:

**Ey Peyğəmbər! Möminləri döyüşə hazırlayıb təşviq et. Əgər aranızda iyirmi səbirli kişi olsa, iki yüzünə qalib gələr; əgər aranızda yüz (səbirli kişi) olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan bir tayfadır.İndi Allah sizin (yükünüzü) yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Əgər aranızda yüz səbirli kişi olsa, (kafirlərdən) iki yüzünə qalib gələr; əgər aranızda min (səbirli kişi) olsa, Allahın izni ilə (kafirlərdən) iki mininə qalib gələr. Allah səbir edənlərlədir. (Ənfal surəsi, 65-66)**

Allahın bu ayələrdə bildirdiyi kimi, əgər möminlər öz aralarında zəiflik göstərməsələr, səbir etsələr və Allahdan qorxsalar, bir möminin



gücü 10 nəfərə bərabər olar. Bu güc fiziki güc mənasını daşıdığı kimi, eyni zamanda başqa mənaları da ifadə edir. Məsələn, bir möminin insanlara din əxlaqını təbliğ etmək, Allahın yoluna dəvət etmək üçün cəhdi on nəfərin təbliğinə bərabər gücdə ola bilər. Bir möminin elmi on nəfərin elminə bərabər ola bilər. Bir möminin Allahın razılığını qazanmaq üçün gördüyü iş on nəfərin birlikdə gördüyü işə bərabər ola bilər. Bir mömin on kafirin azdırdığı qədər insanı Allahın doğru yoluna çağırıb imanlarına səbəb ola bilər. Bir mömin on inkarçının küfrünü məhv edib haqla əvəz edə bilər.

Allahın Quranda bildirdiyi bu sirr çox vacibdir. Çünki hər müsəlman, Allahın iznilə, əgər təqvalı və gözəl əxlaqlı olmaq üçün yarışarsa, nə qədər az sayda olsalar da, Allah onları hər işdə qalib edər. Məsələn, qarşılarında milyonlarla inkarçı insan, professorlar olsa və onlar şəhərlər, qitələr dolu insanı inkara sürükləsələr də, Allah çox az sayda müsəlmanı bütün bu insanlara haqqı və həqiqəti göstərəcək qədər güclü, qabiliyyətli, ağıllı edər. Kafirlərin işini çətinləşdirər, onların işini asanlaşdırıb tezləşdirər. Bu sirri bilən möminlər: "Mənim cəhdimdən və ya kiçik töhfəmdən nə olar?" - deməməli, Allahın razılığı üçün səmimi etdikləri hər əməlin təsirinin çox güclü olacağına əmin olmalıdırlar. Bəlkə Allahın varlığını izah edən səmimi bir məqalə, Allaha dəvət edən bir söz və ya gözəl əxlaqı nümayiş etdirən bir davranış bir çox insanın xilasına və Allahı sevib Ondan qorxmasına səbəb olar. Əsla unutmaq olmaz ki, dünya həyatının qanunları və səbəbləri ancaq Allahın Quranda bildirdikləridir. Yalnız Qurana uyğun düşünən hər insan Allahın yaratmasındakı bu sirləri qavrayaraq, Allahın iznilə, bütün insanlardan artıq gücə və ağıla sahib ola bilər. Allah səmimi iman gətirənləri ruhdan düşmədikcə üstün gələcəklərini bir ayədə belə müjdələyir:

**Ruhdan düşməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız. (Ali-İmran surəsi, 139)**

Ayələrdən də göründüyü kimi, Allah üstünlük və zəfər qazanmaq, dünyada və axirətdə qazanc əldə etmək üçün ancaq səmimi imanı şərt qoymuşdur. Allahın bunun üçün bildirdiyi sirlərdən biri də Allaha şirk qoşmadan iman gətirməkdir.



# ŞÜŞƏNİN MAYE OLDUĞUNU BİLİRSİNİZMİ?

Bir çoxumuz maddənin üç halının olduğunu bilirik. Buna ən yaxşı nümunə sudur. Su normal halda maye, donanda buz, yəni bərk, isinəndə də buxar, yəni qaz halına keçir. Bir maddənin molekul quruluşunu itirmədən qazandığı dəyişiklik maddənin üç fərqli halıdır. Ancaq bu xüsusiyyət hər maddəyə xas deyil. Məsələn, barıtı qızdırsaq, o, qaz halına çevrilməz. Barıt partlayar və tamamilə başqa molekul olar. Şüşə isə soyudulsa, bərk maddə xüsusiyyəti qazanmaz, yalnız sərtləşər.

Şüşəni bərk zənn etməyimizin səbəbi isə olduqca sərt olmasıdır. Qədim dövrlərdən qalmış şüşə stəkan və vazaların alt hissələrində qalın şüşə layın meydana gəlməsinin səbəbi şüşənin gözlə görünməyən miqdarda daima aşağıya doğru axmasıdır. (Harun Yəhya, Atom möcüzəsi )

## Şüşə niyə maye halındadır?

Bunu daha yaxşı anlamaq üçün bu nümunə üzərində düşünməliyik: su qaz, maye və bərk halında da eyni molekulyar xüsusiyyətlərə malikdir və H2O düsturu ilə təyin olunur. Maye halda olarkən suyu meydana gətirən molekullar bir-birinin üstündən sürüşür, qaz halında olarkən isə molekullar sərbəst şəkildə geniş sahəyə yayılırlar. Ancaq su bərk halda olarkən suyu meydana gətirən molekullar çox simmetrik və qüsursuz nizam daxilində ardıcıl düzülür və kristallaşır. Beləliklə, buz meydana gəlir. Maddənin sərtləşdiyi anda bənzərsiz forma və həndəsi nizamın yaranması o maddənin kristallaşmasıdır. Əgər bir maddə soyuduqda bu simmetrik nizamı əldə edə bilmirsə, o zaman o maddə bərk deyil. Şüşənin "bərk" olaraq qəbul edilməməsinin səbəbi də budur. Şüşəni meydana gətirən molekullar soyuyanda kristallaşmırlar. Yəni molekullardakı və atomlardakı düzülüş nizamlı deyil. Belə bir nizamlılığı təmin etməyən bir maddə kristallaşa bilməz, bu səbəbdən də bərk hala çevrilə bilməz. Gözlə görünməyən atomların bütün kainatdakı obyektlərin hamısını necə meydana gətirdiklərini öyrənən və bunun üzərində ağıl və vicdanla düşünən hər insan Rəbbimizin sonsuz qüdrətini, ağlını və bənzərsiz yaratma sənətini görər və Allahın gücü qarşısındakı acizliyini anlayaraq boyun əyər. Allahın hər şeyə hakim olduğu bir ayədə belə xəbər verilir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın Yazıda olmasın. (Ənam surəsi, 59)**